أُصُولُ الإِيمَانِ

İMANIN ƏSASLARI

İMANIN ƏSASLARI

İkinci nəşr
Düzəlişlər edilmiş

Zaynullin R.F. redaktəsi ilə

Bakı
2024

“İmanın əsasları”, Zaynullin R.F. redaktəsi ilə. İkinci nəşr. Düzəlişlər edilmiş.

Kitabda İslamın əsasları haqqında lazımi minimum biliklər və onların hər birinin izahı var.

Müsəlman inancı ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş, xüsusilə məscid və mədrəsələrdə İslam dininin əsasları üzrə axşam kursları üçün tövsiyə edilir.



© Daura. Bakı, 2024
Email: *daura.publishing@gmail.com*

MÜQƏDDİMƏ

Din — Allaha ibadət etmək üçün qaydalar toplusudur

Uca Allah — Yaradan, Yoxdan var edən, Alim və Hikmətlidir — O, bu kainatı, hər şeyi əhatə edən elmi və qüdrəti sayəsində, nizam-intizamlı yaratdı ki, öz İlahi məqsədini həyata keçirsin. Və heç bir şeyi boşuna və əyləncə üçün yaratmadı. Uca Allah buyurur:

— Biz göyü, yeri və onların arasında olanları əyləncə üçün və (əbəs yerə) **yaratmadıq. Biz onları əsl həqiqət kimi yaratdıq, lakin çoxları** (bunu) **bilmir.** "Duxan (Tüstü)" surəsi, 38-39-cu ayələr.

O insanları və cinləri yaratdı və onların yaradılmasında böyük hikmət və nəcib (pak, müqəddəs) bir məqsədin olduğunu bildirib:

— Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım. Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm. Həqiqətən, Allah ruzi verəndir, qüvvət sahibidir, Mətindir. "Zəriyət (Toz-torpağı səpələyənlər)" surəsi, 56-58-ci ayələr.

— Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə (Allahdan) **qorxasınız. O, sizin üçün yer üzünü döşəmə, göyü isə tavan etdi. Göydən su endirib onunla sizin üçün** (növbənöv) **məhsullardan ruzi yetişdirdi. Siz də**

(bunu) **bildiyiniz halda** (heç kəsi) **Allaha tay tutmayın.** "Bəqərə (İnək)" surəsi, 21-22 ayə.

Allah ən böyük mərhəmətini, lütfünü onunla göstərib ki, insanlara kainatın həqiqətini dərk etməyə kömək edib və asanlaşdırıb. Həmin o həqiqəti ki, Allah — hər bir şeyin yeganə Yaradanıdır, və insan — Onun yaratdığı varlıqdır. Həmin o həqiqəti ki, insanın yaradılışında məqsəd yalnız tək olan Allaha ibadət etməkdir. Bu, Allahu Təalənın hər bir insana vacib etdiyidir və buna görə də insan istəyindən asılı olmayaraq Allahın quludur. Və Allahın bu lütfü və köməyi aşağıdakılardan ibarətdir:

1. Allah insanı elə bir fitri xüsusiyyətlə yaratmışdır ki, bu fitrətə görə insanın ibadət etməli olduğu yeganə varlığın Allah olduğunu hiss edir — Ona ibadət edib, Onun əmrlərinə tabe olmalı olduğunu bilir.

Əgər insanların təsiri altına düşməsəydi, şübhəsiz ki, öz fitrətində qalardı. Ancaq insanın bəzi qüsurları və ya müəyyən insanlara təqlid etməsi onu bundan yayındırır.

Uca Allah buyurur:

— Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara — xəlq etdiyi (şüurlu) **məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu** (bunu) **bilmir.** "Rum (Rumlular)" surəsi, 30-cu ayə.

Əbu Hüreyrə rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurdu: ***"Hər bir doğulan körpə fitrət üzərində doğulur. Sonradan onu valideynləri yəhudi, xristian və ya atəşpərəst edir. Axı, heyvanlarda balalarını bütöv və zərərsiz dünyaya gətirir. Onlardan hər hansının burunları kəsilmiş doğulduğunu görürsünüzmü?"*** Sonra Əbu Hüreyrə Uca Allahın kəlamını oxudu: **"…Allahın insanlara —**

xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur…” “Rum (Rumlular)” surəsi, 30-cu ayə. (“əl-Buxari” 1359, 1385, “Muslim” 2658).

Muhəmməd Peyğəmbər ﷺ belə demişdir: “***Əzəmətli və Qüdrətli Allah bu gün mənə öyrətdiyini və sizin bilmədiklərinizi sizə öyrətməyi mənə əmr etdi: “Bəndələrimə bəxş etdiyim hər bir sərvət onlara halaldır. Mən bütün qullarımı Mənə itaətkar yaratdım. Lakin şeytanlar onların yanına gəldilər, onları dinlərindən döndərdilər, onlara icazə verdiyim şeyi onlara haram etdilər və heç bir dəlil olmadan Mənə ibadətlə yanaşı batil tanrılara ibadət etməyi əmr etdilər…”*** (“Muslim” 4/2197).

2. Allah insana ağıl bəxş etmişdir ki, onun vasitəsilə insan hər şeyin yaradıcısının olduğunu başa düşür. Ağıl vasitəsilə, insan ətrafdakı əlamətlər barədə düşünüb, dərk edə bilir. Hər bir ağıl sahibi, dünyanın qitələri, hissələri və səma, kainatda düzənli şəkildə qurulmuş dünya, ulduzlar, planetlər, günəş və ay, yer üzündəki dağlar, ağaclar, dənizlər və çaylar, onları bürüyən gecə və gündüz, və hər şeyi əhatə edən, bütün varlıqları özünə tabe edən kainatda qoyulan nizamın haqqında düşünsə, birmənalı olaraq anlayacaq ki, kainatın Hər Şeyə Qadir Olan, Hər Şeyə Gücü Çatan Yaradanı var, hansı ki, onu yaradıb və onu idarə edir.

Uca Allah buyurur:

— (Quranın) **haqq olduğu onlara aydın olana qədər, Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyil?** “Fussilət (Müfəssəl izah edilmiş)” surəsi, 53-cü ayə.

3. Allah insanlara peyğəmbərlər göndərdi, hansılar ki, insanlara danışırdılar, başa saldılar ki, onları Allah yaradıb və yalnız tək

Onun haqqıdır ki, Ona insanlar ibadət etsinlər və bütün başqa ibadət olunanlardan çəkinsinlər.

Uca Allah buyurur:

— Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun" — (deyə)**, elçi göndərdik.** "Nəhl (Bal arısı)" surəsi, 36-cı ayə.

Həmçinin Allah buyurur:

— Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa heç bir ilah yoxdur, Mənə ibadət edin!" — deyə vəhy etməyək. "Ənbiyə (Peyğəmbərlər)" surəsi, 25-ci ayə.

Beləliklə, insan Allahın bu cür köməyi sayəsində tək olan Allaha ibadət etməli olduğunu qəlbində hiss edir, ona verilən ağıl vasitəsilə bunu dərk edir.

Allahu Təalə, Öz məxluqatının, Ona necə ibadət etməli olduğunu insanlara peyğəmbərləri vasitəsilə xəbər vermişdir. Allaha ibadət — Onun əmirlərinə tabe olmaq və Onun qadağa qoyduğu əməllərdən imtina etməkdir. İnsanın istənilən hərəkəti ya sözdə, ya da əməldə özünü göstərir. Əməllər, öz növbəsində, aşkar ola bilərlər, yəni başqalarına zahirən görünə bilərlər. Və yaxud da gizlin, insanın qəlbində yerləşən ola bilərlər.

İbadət anlayışına belə bir tərif də verə bilərik. İbadət — Allahın sevdiyi və razı, qaldığı bütün söz və əməlləri (gizli və aşkar) birləşdirən bir təsəvvürdür. Allah isə sevdiyi söz və əmmələri əmr və qadağalar formasında Quran və Sünnədə bizə bildirmişdir. Din, Allahu Təalənin, təkçə Allaha ibadət etmək üçün əmr və qadağalarını özündə ehtiva edən qanunlar toplusudur.

Allah Öz dinini İslam adlandırdı:

— Həqiqətən, Allah dərgahında (qəbul olunan) **din, İslamdır!** "Ali İmran (İmranın ailəsi)" surəsi, 19-cu ayə.

— İslamdan başqa bir din axtaran şəxsdən, o (din) **heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar.** "Ali İmran (İmranın ailəsi)" surəsi, 85-ci ayə.

"İslam" sözünün mənası Uca Allaha təslim olmaq, boyun əymək, itaət etmək, Uca Allahın qoyduğu əmirlərinə və qadağalarına təslimiyyət deməkdir.

Qəlb əməlləri — ibadətin əsasıdır

Və artıq qeyd etdik ki, Allaha ibadət, Allahu Təalənin bizə işarə etdiyi gizli və aşkar söz və əməllərdə ifadə olunur.

Aşkar əməllərdən: namaz, həcc, sədəqə, ata-anaya hörmət, hökmdara hörmət, möminlərə kömək, qurban kəsmək və bir çox başqa şeylər. Gizli əməllər isə qəlbin əməlləridir ki, heç bir məxluqa məlum deyil. İnsanların qəlbində olanı isə ancaq Uca və Əzəmətli Allah bilir:

— Onlar o kəslərdir ki, Allah onların qəlblərində olanı bilir... "Nisa (Qadınlar)" surəsi, 63-cü ayə.

Qəlbin əməllərindən: Allaha iman, mələklərinə iman, kitablarına iman, elçilərinə iman, qiyamət gününə iman, xeyir və şərlə birlikdə qədərə iman, Allah sevgisi, Allaha təvəkkül, Allahın əzabından qorxmaq, Allahın bağışlanmasına ümid etmək, Allahdan kömək istəmək, Allaha sığınmaq, Allaha tövbə etmək, Allah qarşısında ixlas, Allaha dua etmək.

Qəlb əməllərinin və bütövlükdə bütün dinin əsası, Allaha iman və Onun əmr etdiyi şeylərə iman etməkdir, çünki bunsuz əməllərin heç bir mənası yoxdur. Allahu Təalə, altı şeyə qəlbimizlə iman gətirməyi əmr etmişdir:

1. Allaha iman
2. Mələklərinə iman
3. Kitablarına iman
4. Peyğəmbərlərinə iman
5. Axirətə iman
6. Qədərə (xeyirin və şərin Allahdan olduğuna) iman

Alimlər onları imanın altı əsas şərti adlandırmışlar.

— Ey iman gətirənlər! Allaha, Onun Elçisinə və Elçisinə nazil etdiyi Kitaba və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin!… "Nisa (Qadınlar)" surəsi, 136-cı ayə.

— Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl (sahibləri) Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən. "Bəqərə (İnək)" surəsi, 177-ci ayə.

— Allahı, Onun mələklərini, kitablarını, elçilərini və Axirət gününü inkar edən şəxs dərin bir azğınlığa düşmüşdür. "Nisə (Qadınlar)" surəsi, 136-cı ayə.

Allahın Rəsulu ﷺ belə demişdir: ***"İman odur ki, Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə və Axirət gününə iman gətirəsən, habelə qədərə — onun xeyrinə və şərinə iman gətirəsən."***

Ərəb dilində *"iman"* sözü — *"əmanə"* inanmaq, sadiq, etibarlı olmaq felindən əmələ gəlmişdir.

Ərəb alimləri deyiblər ki, *"iman"* sözünün mənası etiraf, təsdiq deməkdir. İnsanın bu altı sütuna, şərtə imanı — qəlb ilə etirafıdır, qəlbin əminliyidir. Ona görə də, bu altı sütuna, şərtə iman gətirmək qəlb əməli sayılır.

Bu altı sütuna, şərtə iman gətirnək — məhz bu dinin əsası sayılır, hansının üzərində ki, insanın bütün ibadətləri qurulur. İnsan hər hansısa ibadəti yerinə yetirdikdə bu sütunlara, şərtlərə iman həmişə qəlbində olmalıdır. Məhz bu iman, insanı həm aşkar, həm də

gizli işlər görmək istəyəndə hərəkətə gətirir. Bundan sonra biz görəcəyik ki, hər bir qəlb əməli, Allaha iman üzərində qurulur, onunla qırılmaz şəkildə, möhkəm bağlıdır.

Qəlb əməllərinin növləri

1. Allahı sevmək

Sevgi qəlb əməllərinin ən mühümüdür. Allahu Təalənı, Onun mövcud olma səbəbi ilə, Onu sevmək lazımdır, vacidir. Möminlərin Rəbbinə olan sevgisi, səadət yurduna daxil olduqdan sonra artar. O zaman ki, onlara qorxu yaradan səbəblərin aradan qalxması ilə, özlərinin də qorxuları yox olar, çünki cənnətdə olanlar nə qorxu, nə də kədər bilməyəcəklər. Həm Allahu taaə, həm də Onun Rəsulu, möminlərin Allaha olan sevgisindən bəhs etmişlər. Məsələn, Uca Allah buyurmuşdur:

— İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini (Ona) tay tutur, və onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. "Bəqərə (İnək)" surəsi 165-ci ayə.

Uca Allah həmçinin buyurur:

— ...Allah onları sevir və onlar Onu sevirlər... "Maidə (Süfrə)" surəsi, 54-cü ayə.

Hər iki "Səhih"də Rəsulullahın ﷺ belə dediyini xəbər verən bir hədis var: ***"İmanın şirinliyini ancaq üç xisləti ilə seçilən şəxs hiss edər: Allahı və Rəsulunu hər şeydən çox sevən, hər hansı bir şəxsi yalnız Allah rizası üçün sevən və Allahın onu (küfrdən) xilas***

etdikdən sonra, oda atılmağı necə xoşlamırsa, (yenidən) küfrə dönməkdən eləcə xoşlanmayan kimsə."

Bundan əlavə, Allahu Təalə Özünə itaət edən bəndələrini də sevdiyini bildirmişdir. Məsələn, Allahu Təalə buyurmuşdur:

— Və Allah İbrahimi sevimli dost tutmuşdur. "Nisa (Qadınlar)" surəsi, 125-ci ayə.

Həmçinin Uca Allah buyurur:

— Yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir. "Bəqərə (İnək)" surəsi, 195-ci ayə.

Həmçinin Uca Allah buyurur:

— …şübhəsiz ki, Allah müttəqiləri sevər. "Ali İmran (İmranın ailəsi)" surəsi, 76-cı ayə.

Bu cür, bir çox başqa misallar da çəkmək olar.

Uca Allahı sevdiklərini iddia edənlər üçün, Allah doğruluq meyarının mövcud olduğunu bildirib. Uca Allah buyurur:

— De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin…" "Ali İmran (İmranın ailəsi)" surəsi, 31-ci ayə.

Başqa sözlə, Uca Allah izah etmişdir ki, Ona olan sevgi, mütləq Allah Rəsuluna tabe olmaq ilə olur, Rəsuluna tabe olmaq isə mütləq ona gətirib çıxarır ki, Allah öz bəndəsini sevməyə başlayar.

Sevginin əsl mahiyyəti, sevdiyini razı salmaq istəyindədir. Və bu da, (sevənin) sevdiyi şeyə məhəbbətinin təzahürlərində və həmçinin də nifrət etdiyi şeyə nifrətinin təzahürlərində öz ifadəsini tapır.

2. Allahın əzabından qorxmaq

Uca Allah qorxunu hər kəs üçün vacib etdi, və O dedi:

— Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun! "Ali İmran (İmranın ailəsi)" surəsi, 175-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Təkcə Məndən qorxun! "Bəqərə (İnək)" surəsi, 40-cı ayə.

Uca Allah həmçinin buyurur:

— İnsanlardan qorxmayın, Məndən qorxun! "Əl-Maidə (Süfrə)" surəsi, 44-cü ayə.

Uca Allah, ondan qorxanları tərifləyib və buyurub:

— Həqiqətən, Rəbbinin qorxusundan əsim-əsim əsənlər, Rəbbinin ayələrinə iman gətirənlər, Rəbbinə şərik qoşmayanlar, Rəbbinə qayıdacaqlar deyə yerinə yetirməli olduqlarını qəlbi qorxa-qorxa yerinə yetirənlər — Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər. "Muminun (Möminlər)" surəsi, 57-61-ci ayələr.

Tirmizi və İmam Əhməd, Aişənin (Allah ondan razı olsun) belə dediyini rəvayət edirlər: *"Bir dəfə mən soruşdum: "Ey Allahın Rəsulu ﷺ, Allahın bu sözləri* **"...yerinə yetirməli olduqlarını qəlbi qorxa-qorxa yerinə yetirənlər..."** *— zina edənlərə, şərab içənlərə və oğurluq edənlərə işarə edilirmi?" O Cavab verdi:* ***"Xeyr, ey Siddiqin qızı, burada söhbət oruc tutan, namaz qılan, kasıblara yardım edən və bunların ondan qəbul olunmayacağından qorxanlardan gedir."***

3. Allaha ümid etmək

Uca Allah buyurur:

— Həqiqətən də, iman gətirənlər, hicrət edənlər və Allah yolunda cihad edənlər, Allahın mərhəmətinə ümid edirlər. Allah Bağışlayandır, Rəhmlidir. "Bəqərə (İnək)" surəsi, 218-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Kim Allahla qarşılaşacağına ümid bəsləyirsə, (qoy bilsin ki), Allahın müəyyənləşdirdiyi zaman hökmən gələcəkdir. O, Eşidəndir, Biləndir. "Ənkəbut (Hörümçək)" surəsi, 5-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və icra etdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın! "Kəhf (Mağara)" surəsi, 110-cu ayə.

Muslimin "Səhih"ində, Cabirdən (Allah ondan razı olsun) rəvayət edilən bir hədisdə nəql olunur: "Mən eşitdim ki, ölümündən üç gün əvvəl Allah Rəsulu ﷺ belə dedi: ***"Sizdən hər biriniz ölümünüzü, Rəbbindən xeyir umaraq qarşılasın!"***"

"Səhih əl-Buxari"də Cabirin (Allah ondan razı olsun) rəvayət etdiyi bir hədisdə, Rəsulullah ﷺ belə demişdir: "***Uca və Əzəmətli Allah buyurdu: "Bəndəm Mənim haqqımda nə düşünsə, Mən də o cür olaram, qoy Mənim haqqımda istədiyini düşünsün!"***" Uca Allah, ondan qorxan və eyni zamanda ona ümid sahibi olanları tərifləyərək buyurur:

— Onların yalvardıqları tanrıların özləri də Rəbbinə — hansı daha yaxın olacaq deyə vəsilə axtarırlar, Onun rəhmətini umurlar, əzabından qorxurlar. Həqiqətən, Rəbbinin əzabından qorunmaq gərəkdir. "İsra (Gecə səyahəti)" surəsi, 57-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Məgər gecə saatlarını səcdə edərək və ayaq üstə duraraq ibadət içində keçirən, axirətdən çəkinən və Rəbbinin rəhmətinə ümid bəsləyən kimsə (kafirlə eynidirmi?) "Zumar (Zümrələr) surəsi, 9-cu ayə.

Uca Allah həmçinin buyurur:

— Onlar (gecə namazını qılmaq üçün) böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır... "Səcdə" surəsi, 16-cı ayə.

Bütün bu deyilənlərdən, belə çıxır ki, müsəlmanda hər ikisi olmalıdır, həm qorxu hissi keçirməlidir, həm ümüd bəsləməlidir. Özünü Allaha (ibadet etməklə) həsr edən biri demişdir: *"Qorxu və ümid quşun iki qanadı kimidirlər: əgər onlar bir-birinə bərabər olsalar, quş düz qala bilər və uçuşu mükəmməl olar; bir qanadı digərindən qısa*

olsa, düzgün uça bilməyəcək, hər iki qanadı itirsə, ölüm ayağında olacaq."

Qorxu, mütləq ümidin yaranmasına gətirib çıxarır və əgər belə olmasaydı, insan mütləq ümidsizliyə düçar olardı. Ümid, həm də mütləq qorxunun yaranmasına gətirib çıxarır, çünki əks halda insan özünü tamamilə əmin hiss edərdi. Lakin həm ümidsizlik, həm də tam əminlik hissi insanda eyni dərəcədə olarsa, bu qınanılır.

Uca Allah buyurur:

— …Allahın mərhəmətindən ümidinizi üzməyin. Çünki Allahın mərhəmətindən ancaq kafir adamlar ümidlərini kəsər. "Yusuf" surəsi, 87-ci ayə.

Həmçinin Uca Allah buyurur:

— (Doğru yoldan) azanlardan başqa Rəbbinin mərhəmətindən kim ümidini üzər? "Hicr" surəsi, 56-cı ayə.

Uca Allah həmçinin buyurur:

— Allahın hiyləsindən yalnız ziyana uğrayanlar ehtiyat etməzlər. "Əraf (Sədd)" surəsi, 99-cu ayə.

İnsanı, Allahın haram buyurduğu əməllərdən çəkindirən, bu cür qorxu tərifə layiqdir. Ümidə gəlincə isə, onun iki növü tərifə layiqdir:

1. Allahın nurunu rəhbər tutan və Allahın mükafatına ümid edərək, dini vəzifələrini yerinə yetirən şəxs.

2. Günah işlədən, lakin sonra Allah qarşısında tövbə edən və Onun onu bağışlayacağına və ona lütf göstərəcəyinə ümid etməyə başlayan kəsin ümidi.

Belə bir ümid, bəndənin Allahın lütfünü və mərhəmətini bildiyini göstərir və bəndə Allahdan bunun təcəllisini gözləyir, və həmçinin Allahın rəhmətinin genişliyinə ümid edir.

4. Allaha dua ilə müraciət etmək

Uca və Əzəmətli Allah buyurur: **“Rəbbiniz dedi: “Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər.”** “Ğafır (Bağışlayan)” surəsi, 60-cı ayə.

Uca Allah həmçinin buyurur:

— Rəbbinizə acizanə, həm də gizlicə dua edin! Şübhəsiz ki, O, həddi aşanları sevmir. “Əraf (Sədd)” surəsi, 55-ci ayə.

Uca Allah həmçinin buyurur:

— “Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən (onlara) yaxınam, Mənə yalvaranın dua-sını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər.” “Bəqərə (İnək)” surəsi 186-cı ayə.

“Sünən ət-Tirmizi” kitabında Numan ibn Bəşirin (Allah ondan razı olsun) sözlərindən rəvayət olunan bir hədis var ki, o, bir dəfə Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: ***“Allaha dua etmək ibadətdir”*** dedikdən sonra O ayə oxudu hansında ki, deyilir: **“Rəbbiniz dedi: “Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər.”** “Ğafir (Bağışlayan)” surəsi, 60-cı ayə.

5. Allahdan kömək diləmək

Uca və Əzəmətli Allah buyurur:

— “Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik.” “Fatihə (kitabı açan)” surəsi, 5-ci ayə.

Peyğəmbərə ﷺ gəlincə, məlumdur ki, O bir dəfə İbn Abbasa, (Allah onların hər ikisindən razı olsun) dedi: ***“Əgər diləsən, Allahdan istə, əgər kömək istəsən, Allaha üz tut!”***

6. Allaha sığınmaq (istiazə)

Uca Allah buyurur:

— Quran oxuduqda qovulmuş şeytandan Allaha sığın! "Nəhl (Bal arısı)" surəsi, 98-ci ayə.

Uca Allah həmçinin buyurur:

— De: "Sığınıram sübhün Rəbbinə! Məxluqatının şərindən..." "Fələq (Sübh)" surəsi, 1-2-ci ayələr.

Uca Allah həmçinin buyurur:

— De: "Sığınıram insanların Rəbbinə, insanların Hökmdarına, insanların məbuduna! Vəsvəsə verənin, (Allahın adı çəkiləndə isə hövlündən) geri çəkilən (şeytanın) şərindən." "Nas (İnsanlar)" surəsi, 1-4-cü ayələr.

7. Sıxıntı halında Allahdan yardım istəmək (istiqasa)

Uca Allah buyurur:

— O vaxt siz Rəbbinizdən kömək diləyirdiniz. O da: "Mən sizə bir-birinin ardınca gələn min mələklə yardım edəcəyəm" — deyə duanızı qəbul etmişdi. "Ənfal (Qənimətlər)" surəsi, 9-cu ayə.

Məlumdur ki, Allah Rəsulu ﷺ Allaha belə xitab etmişdir: ***"Ey Diri, Ey Var olan, Ey Əzəmət sahibi, Ey yerin və göyün yaradıcısı, Sənin rəhmətinə sığınıram!"***

8. Allaha təvəkkül etmək

Başqa sözlə desək, qəlbin Allaha təvəkkül etməsi, Onun insanı qoruyacağına əminlik bildirərək təvəkkül etməsi.

Uca və Əzəmətli Allah buyurur:

— Əgər möminsinizsə, Allaha təvəkkül edin! "Maidə (Süfrə)" surəsi, 23-cü ayə.

Uca Allah həmçinin buyurur:

— Qoy möminlər ancaq Allaha təvəkkül etsinlər. "İbrahim" surəsi, 11-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Qoy təvəkkül edənlər ancaq Allaha təvəkkül etsinlər. "İbrahim" surəsi, 12-ci ayə.

ALLAHA İMAN

Əzəmətli və Qüdrətli Allaha iman, "*imanın*" ən birinci və ən mühüm sütunudur, və bu çox böyük əhəmiyyət kəsb edir. Və bütün digər sütunların təməli kimidir. Mələklərə, İlahi kitablara, elçilərə, qiyamət gününə, yaxşı və pis qədərə iman kimi sütünlara təməl kimidir. Bütün bunlar, Allaha imandan əmələ gələrək, bu "*iman*" sütuna söykənirlər və onun üzərində qurulurlar.

Əzəmətli və Qüdrətli Allaha imanın əsası, qəlbin aşağıda göstələnlərə mütləq inamından ibarətdir:

- Tək, yeganə ilah, yalnız Allahdır;
- İbadətə layiq olan, yalnız Allahdır;
- İlahi ad və sifətlərə malik olan, yalnız Allahdır.

Bu üç əsasın cəmi, qəlbin imanını təşkil edir, hansılar ki, birlikdə Tək-illahlığın bünövrəsini təşkil edirlər — *"tövhidin"*, və bu həmin bünövrədir ki, onun üzərində din qurulur.

İslam — pak, təmiz (şəkksiz) tövhid dinidir, çünki bu, Allahın hər şeyi idarə etməsi və əməllərini təkbaşına, heç bir şəriki və köməkçisi olmadan yerinə yetirməsinə əsaslanır. Və yalnız Onun ilahi sifətlərə, ilahi adlara və xüsusiyyətlərə malik olmasına və Özünün tayı-bərabəri olmadığına əsaslanır. Həmçinin yalnız Onun ilahiləşdirilməyə və Ona ibadət etməyə layiq olduğuna əsaslanır.

Yuxarıda deyilənlərin hamsından belə məlum olur ki, tövhid — Allahın peyğəmbərləri və elçilərinin gəldiyi tövhid üç hissədən ibarətdir:

1. Rəbblikdə Tövhid (Tək-ilahlıq) *(tövhid ər-rububiyyə)* — hər şeyin Rəbbi, hökmdarı, yaradıcısı və idarəçisi olduğuna, dirildən və öldürən, fayda və zərər verən, duaları çətin anlarda qəbul edən yeganə Allahu Təalənin olduğuna qəlb ilə inanmaqdır, O hər şey üzərində mütləq qüdrət sahibidir, yaxşılığı tamamilə idarə edir və bütün işlər Ondan asılıdır və heç kəs bu gücü Onunla paylaşmır.

2. İlahiliydə Tövhid (Tək-ilahlıq) *(uluhiyyə tövhidi)* — qəlbin yalnız Allahın haqq İlah olduğuna inanmaqdır, ona görə də bütün ibadət növləri yalnız Ona həsr edilməlidir.

3. İlahi ad və sifətlərə malik olan Tövhid (Tək-ilahlıq) *(tövhidul-əsmə vəs-sifət)* — bu qəlbin ilə Uca Allahın Quranda və ya səhih hədislərdə Peyğəmbərin ﷺ kəlamlarında Özünü vəsf etdiyi bütün ad və sifətlərinə inanmaqdır, və hər hansısa çatışmazlıqları, naqisllikləri və yalnız Ona xas olan şeylərin hər hansısa yaradılmiş ilə oxşarlığını inkar etməkdir. Allahın hər şeydən xəbərdar olduğunu, hər şeyə qadir olduğunu, Onun diri (əbədi yaşayan) və həyat verən olduğunu, nə mürgü, nə də yuxunun Onu tutmadığını etiraf etməkdir. Onun iradəsi sorğu sualsız yerinə yetirilir və hikməti sonsuzdur. O — Eşidəndir, Görəndir, Mərhəmətlidir, Rəhmlidir. O, kürsüyə çıxdıb və Öz səltənətinə sahibdir. O — Rəbbdir, Müqəddəsdir, Pakdır, Qoruyandır, Qüdrətlidir, Qürurludur. Allah pakdır və Ona şərik qoşulanlardan uzaqdır. Bunlar da Onun gözəl adlarından və uca sifətlərindən yalnız bir neçəsidir.

Bunların üçündən hər biri Quran və Sünnədən çoxsaylı dəlillərlə təsdiq olunur.

Quran tamamilə Tövhidə (Tək-ilahlığa) həsr olunub və onun tələblərindən bəhs edir və onun üçün vəd edilən mükafatdan, həmçinin şirkdən, onun tərəfdarlarlarından və onlar üçün hazırlanmış mükafat və əzab haqqında bəhs edir.

Müsəlman ilahiyyatçıları tövhidin bu üç qismini Quran və Sünnə mətnlərindən götürmüşlər. Şəriət mətnlərinin diqqətli və çoxşaxəli təhlili, dini həqiqəti mənimsəməyə imkan verdi, hansınınki mahiyyəti qullardan tələb olunan tövhid — Allahın yeganə Rəbb, yeganə ibadətə layiq olduğuna inanmaqdan ibarətdir, və O ilahi ad və xüsusiyyətlərə malik olan yeganə varlıqdır. Buna tam inanmayan, tanımayan şəxs mömin sayılmır.

Rəbblikdə Tək-ilahlıq (Tövhid ər-rububiyyə)

İlahi əməlləri, yalnız Allahın yaratdığına qəlbdən əmin olmaqdır. Bunlara aiddir yaratmaq, ruzinin bölünməsi, idarə etmək, mərhəmət göstərmək, hökmranlıq etmək, formalaşdırmaq, vermək və məhrum etmək, fayda vermək, zərər vermək, diriltmək, öldürmək, hökmranlıqla idarə etmək, təqdir və Allahdan başqa heç kimin görmədiyi bir çox əməllər.

Ərəbcə *"rububiyyə"* sözü "tərbiyə etmək" mənasını verən *"rabba"* felindən törəmişdir. Onun törəməsi də *"rabb", "Rəbb",* mənasını verən adıdır. Hökmranlıq Uca və Qüdrətli Allahın bir sifətidir. Belə ki, *"rubbubiya"* sözü ərəblərin dilində bir sıra mənalar daşıyan *"rəbb"* adından əmələ gəlmişdir, o cümlədən: "Hakim", "İtaət olunan ağa", "işin vəziyyətini islah edən islahatçı".

Dünyanın qitələri və səması, kainatda qurulmuş dünya, ulduzlar, planetlər, günəş və ay, yer üzündəki dağlar, ağaclar, dənizlər və çaylar haqqında düşünən hər hansı bir ağıl sahibi, onları bürüyən gecə və gündüz və kainatda qurulan qəti və hər şeyi əhatə edən,

hər bir varlığı tabe edən nizam haqqında düşünən hər hansı bir ağıl sahibi, birmənalı olaraq, kainatın yaradanı və ona hakim olan Uca və Qüdrətli Xaliqinin olduğunu anlayacaqdır. Ağıllı insan bütün bu canlılar haqqında nə qədər dərindən düşünsə, ağlı bu heyrətamiz yaradılışlarla məşğul olarsa, bütün bunların həqiqət naminə və haqq ilə yaradıldığını, kainatın yazılı lövhələr olduğunu və özündə ayələrin və kitabların toplandığı, Allahu Təalənin Özü haqqında xəbər verdiyi hər şeyin doğruluğunu təsdiq edən və Onun birliyini, təkliyini təsdiq edən dəlil və sübutların verildiyini bir o qədər aydın anlayır.

Hər hansı dini icma nümayəndələrinin bu növ tövhidi inkar etmələri, eləcə də keyfiyyətcə bir-birinə oxşar və eyni əməllərə qadir olan iki xaliq tərəfindən dünyanın yaradıldığına dair heç bir iddia bizə məlum deyil, çünki bu qeyri mümkündür, buna daha sonra qayıdacayıq.

İnsanlardan heç birindən, Allahla birlikdə hər şeyin yaradılmasında iştirak etdən və ya Allahla eyni xüsusiyyətlərə malik olan birinin olduğunu iddia etdiyinə dair heç bir məlumat yoxdur. Müşriklərin bəyanatlarının mahiyyəti, onların əminliklərini əks etdirir ki, Allahın hər hansısa şəriki, (istər mələk, istər peyğəmbər, istər planet, və ya hər hansısa bir büt), Allaha tabedir.

Muslimin "Səhih"ində verilmiş və İbn Abbasın (Allah ondan razı olsun) sözlərindən nəql olunan hədislərdən birində bildirilir ki, ərəblərdən olan müşriklər təlbiyə sözlərini söyləyərək deyirlər: *"Budur, mən Sənin qarşındayam, Sənin şərikin yoxdur, Sənə tabe olandan başqa, necə ki, onun sahib olduğu şeylərində sənə tabe olduqları kimi."*

Rəsulullaha ﷺ gəlincə isə o, təmiz tövhidə dəlalət edən şeyi söyləməyə başladı və dedi: ***"Sənin qarşındayam, Allahım, Sənin qarşındayam, Sənin qarşındayam, Sənin şərikin yoxdur, Sənin***

qarşındayam, həqiqətən, həmd, rəhmət və qüdrət — hər şey Sənə məxsusdur və Sənin heç bir şərikin yoxdur!"

Uca Allah bizə bildirib ki, ərəblərdən olan müşriklər, kimlərə ki, Rəsulullah ﷺ göndərilmişdir, ümumilikdə, Allahı yeganə Yaradan kimi tanıyırdılar, qəbul edirdilər və bu haqda Quranın bir çox ayələrində qeyd edilib. Məsələn, Uca Allah buyurmuşdur:

— Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?" — deyə soruşsan, onlar hökmən: "Allah!" — deyəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların çoxu (bunu) **bilmir.** "Loğman" surəsi, 25-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Əgər sən onlardan: "Göyləri və yeri yaradan, günəşi və ayı ram edən kimdir?" — deyə soruşsan, onlar mütləq: "Allahdır!" — deyəcəklər. Onlar necə də (haqdan) **döndərilirlər!** "Ənkəbut (Hörümçək)" surəsi, 61-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Əgər sən onlardan: "Göydən yağış nazil edib onunla yeri quruduqdan sonra canlandıran kimdir?" — deyə soruşsan, onlar mütləq: "Allahdır!" — deyəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların çoxu (bunu) **başa düşmür.** "Ənkəbut (Hörümçək)" surəsi, 63-ci ayə.

Uca Allah həmçinin buyurur:

— De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" "Yunus" surəsi, 31-ci ayə.

Uca Allah həmçinin buyurur:

— De: "Əgər bilirsinizsə, (deyin görüm) **yer və onun üstündə olanlar kimindir? Onlar: "Allahındır!" — deyəcəklər. De: "Bəs düşünüb ibrət almayacaqsınız?" De: "Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?" Onlar: "Allahdır!"— deyəcək-**

lər. De: "Bəs qorxmursunuz?" De: "Əgər bilirsinizsə, (deyin görüm) hər şeyin hökmü əlində olan, himayə edən, Özünün isə himayəyə ehtiyacı olmayan kimdir?" Onlar: "Allahdır!"— deyəcəklər. De: "Bəs necə olur ki, aldanırsınız?" "Muminun (Möminlər)" surəsi, 84-89-cu ayələr.

Ancaq bəzi insanlar Allahın yaratmadığı şeylərin mövcud olduğuna inanırlar. Məsələn, dualis-atəşpərəstlər, qaranlığı yaradanın Allah olmadığına, Qədərilər isə heyvanların əməllərinin yaradıcısının Allah olmadığına, ərəblərdən və digər xalqlardan bəzi müşriklər isə öz tanrılarının onlara (müşriklərə) fayda və ya zərər verməsini, Allahın bunu etmədən baş verdiyini hesab edirlər.

Bu tip şirkin mövcudluğu ilə əlaqədar olaraq, onun uyğunsuzluğu, batil olması Quranda göstərilmişdir. Uca Allah buyurur:

— Allah Özünə heç bir övlad götürməmişdir. Onunla yanaşı heç bir ilah yoxdur. Əks təqdirdə hər ilah öz yaratdıqlarını özü idarə etmək istəyər və onların bir qismi digərinə üstün gəlməyə can atardı. "Muminun (Möminlər)" surəsi, 91-ci ayə.

Uca Allahın bu halda dediyi sözlərininin mahiyyəti, iki yaradanın mövcudluğunu inkar etməkdən ibarət olan əqli bir dəlildən başqa bir şey deyil və izah etməkdir ki, Həqiqi Allah, mütləq hərəkət və qüdrətə malik olan Yaradandır. Və əgər Onunla bərabər eyni gücə malik olan başqa bir tanrı olsaydı, o zaman o ayrı bir məxluqun hökmdarı olardı və həm də bacarığı və qüdrəti ilə seçilərdi. Halbuki birgə sahiblik başqa bir tanrını məmnun etməzdi, hansı ki, şərikini özünə tabe etməyə və hər şeyi tək başına edarə etməyə calışardı, bunu bacarsaydı edərdi, amma bacarmasaydı öz yaratdıqları ilə ayrılaraq, hər hansısa uzaq bir yerə uzaqlaşardı.

Beləliklə, iki yaradıcının mövcud olduğu halda, bu iki şeydən biri qaçılmaz olardı:

- Ya hər bir tanrı öz yaratdığını aparardı.

• Ya da bir tanrı digərindən yuxarı qalxardı.

Amma, şahidi olduğumuz hər şey bir neçə yaradıcının mövcud olma ehtimalı düşüncəsinə belə ziddir, çünki yaradılışların bütün tərkib hissələrinin — göy və yerin, yuxarıda və aşağıda olanların nizamlılığı və bir-biri ilə ahəngdar əlaqəsi onu göstərir ki, yeganə Allah, Əzəmətli və Qüdrətli olan, dünyada hər şeyə nəzarət edəndir.

Rəbblikdə, tövhiddən uzaqlaşmanın təzahürü nədir

Baxmayaraq ki, Rəbbin təkliyinin tanınması insanda şüuraltı olaraq qoyulub, və bu, insan fitrətində var və çoxsaylı dəlillərlə təsdiqlənir, amma bu məsələdə hələ də həqiqətdən uzaqlaşan insanlar var. Allahın Rəbbliyini tanımaq mövzusundakı, insanların təhrif olunmuş inanclarını qısaca sıralamaq və belə izah etmək olar:

Birinci yayınma: Allahın Rəbbliyinə-hökmranlığına tamamilə küfr və Onun varlığını inkar etmək.

Bu inanclar allahsız-ateistlərə xasdır, hansılar inanırlar ki, mövcud olan hər şey təbiət, zaman tərəfindən yaradılıb və ya öz-özünə, təbii fəlakətdən yaranıb və sair.

Uca Allah buyurur:

— Onlar dedilər: (Həyat) **ancaq bizim dünya həyatımızdır.** (Kimimiz) **ölür,** (kimimiz də) **doğulur. Bizi öldürən ancaq zamandır.** "Casiyə (Diz çökənlər)" surəsi, 24-cü ayə.

İkinci yayınma: Pak və nöqsansız Rəbbin bəzi xüsusiyyətlərini tanımamaq və Onun hökmranlığının bəzi təcəllilərini inkar etmək. Bu, məsələn, Allahın öldürdüyünü və ölümdən sonra diriltdiyini, fayda və ya zərər verdiyini və sair şeyləri inkar edən insanların baxışlarında özünü göstərir.

Üçüncü yayınma: Rəbbin bəzi xüsusiyyətlərini Pak Nöqsansız Allahdan başqasına aid etmək. Əgər insan inanaraq etiqad edərsə ki,

Ən Əzəmətli və Ən Qüdrətli Allahdan başqa bir kimsə ümumbəşəri hadisələri idarə edə bilər, (yaratmaq, məhv etmək, diriltmək, öldürmək, rəhm etmək, şərdən qorumaq və digər Rəbblik-hökmranlıq təzahürləri ilə əlaqəli əməllər), o zaman Uca Allaha şərik qoşmuş olur.

İlahi ad və sifətlərə (keyfiyyətlərə) sahib, malik olmaqda Tövhid-Tək-ilahlıq (tövhidul-əsmə və əs-sıfat)

İlahi adlara və sifətlərə (keyfiyyətlərə) etiqadın, müsəlmanın qəlbinə və Rəbbinə ibadətinə təsiri çox böyükdür. Bu imanda bəndə-qul öz qəlbində Rəbbinə ibadət etməyin mənasını tapır. Bu iman sayəsində Allahu Təaləya təvəkkül etməyə, yalnız Ona güvənməyə və yalnız Allahu Təalənin razı qaldığı şeyləri düşünmək üçün bədənini, ruhunu, hətta düşüncələrini qorumağa başlayır. O insan başlayır, Allahın sevdiyini sevməyə, Onun üçün (Onun rizası üçün) dinləməyə və Onun üçün (Onun rizası üçün) baxmağa. Və eyni zamanda, bununla Rəbbinə böyük ümidlər bəsləyir və Onun haqqında yalnız yaxşı şeylər düşünür.

Uca Allahın adları, qula (bəndəyə) bütün canı ilə Rəbbini sevməsinə kömək edirlər və bu sevgi müsəlmanın dünya və axirət səadətinin əsası, rifahının açarı olur, bu sevgi onu Rəbbinə ən gözəl şəkildə ibadət etməyə ruhlandırır. Və bu xüsusda demək yerinə düşər ki, bədən ilə edilən ibadətlər, insanın qəlbində Allahu Təaləni nə qədər sevməsindən asılı olaraq asan və ya çətin olur.

İbadətlərin, Allahın razı qaldığı kamil surətdə yerinə yetirilməsi, qəlblərdə Allaha olan sevgidən asılıdır, bu sevgi isə Allahın gözəl ad və sifətləri ilə dərk edilməsindən asılıdır. Buna görə də, Onu hamıdan yaxşı tanıyan, Allahın elçiləri hamıdan çox Ona ibadət edirdilər, və buna görə də Uca Allaha ən güclü məhəbbəti ilə seçilirdilər.

İlahi ad və sifətlərə malik olmaqda Tövhid (Tək-ilahlıq) *(tövhidul-əsmə vəs-sifət)* bu — Uca Allahın Özünü vəsf etdiyi və Rəsulullahın ﷺ vəsf etdiyi ad və sifətlərə qəlb ilə inanmaqdır, və Allahın Özündən rədd etdiyi və Rəsulunun ﷺ Ondan rədd etdiyi bütün ad və sifətlərin inkar etmək, eləcə də Onların həqiqi mənalarını tanınımaq və məxluqlar arasında, Onların izlərinin və nəticələrinin müəyyən etməkdir.

Allahın ad və sifətləri ilə bağlı, Onun yeganəliyini, təkliyini tanımağın əsasında nə dayanır?

BİRİNCİ: Allahın ən gözəl adlara malik olması, yəni elə adlar ki, onlardan daha gözəl heç bir şey ola bilməz, çünki Allahu Təalə buyurmuşdur:

— **Ən gözəl adlar Allahındır.** "Əraf (Səddl)" surəsi, 180-ci ayə.

Bundan başqa, Allah ən yüksək, uca və müəkəmməl, hər hansısa qüsurdan uzaq xüsusiyyətlərə malikdir.

Uca Allah buyurur:

— **Ən Uca sifət isə Allaha məxsusdur…** "Nəml (Bal arısı)" surəsi, 60-cı ayə.

Burada söhbət ən yüksək, uca, ən mükəmməl və ən gözəl keyfiyyətlərdən gedir.

İKİNCİ: Allahın adları və sifətləri haqqında elmin səmadan alınması, çünki onlar haqqında biliklərimizin qaynağı Quran və Sünnədir, bu da o deməkdir ki, biz yalnız onlara əsaslanmalıyıq, onların buyurduğuna (işarə etdiyinə) heçnə əlavə etmədən və ya azaltmadan.

ÜÇÜNCÜ: Allahı vəsf edərkən həm təsdiq, həm də inkardan istifadə edilir və təsdiqin bənzətmə ilə heç bir əlaqəsi olmamalıdır, inkarın isə məhrumiyyətlə əlaqəsi olmamalıdır, Uca Allahın işarə etdiyi kimi.

Uca Allah buyurur:

— Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir. "Şura" surəsi, 11-ci ayə.

DÖRDÜNCÜ: Biz Allahın ad və sifətlərini bilirik, lakin bunlarla nəyin nəzərdə tutulduğu yalnız Allaha məlumdur, hansıki O belə buyurur:

— Onların elmi isə Onu ehtiva edə bilməz! "Ta ha" surəsi, 110-cu ayə.

Hər iki "Səhih"də Əbu Hüreyrənin (Allah ondan razı olsun) sözlərindən rəvayət olunan bir hədis var ki, o da Rəsulullahın ﷺ belə dediyini rəvayət edir: ***"Allahın doxsan doqquz adı vardır ki, bu da yüzdən bir ədəd əskikdir və kim onları sadalayarsa (zikr edərsə), Cənnətə daxil olar."***

Bu yuxarıdakı halda, sadalamaq yəni bu adların yad edilməsi, zikr edirləsi və mənasına uyğun olaraq Allaha ibadət edilməsi nəzərdə tutulur. Lakin Allahın adlarının sayı doxsan doqquzla məhdudlaşmır, çünki Onun Quran və Sünnədə qeyd olunmayan adları vardır. İmam Əhməd, İbn Həbban və başqa mühəddislər Abdullah ibn Məsudun (radıyallahu anhu) sözlərindən nəql olunan bir hədisi sitat gətirirlər. Bu hədisdə Rəsulullahın ﷺ belə dediyi deyilir: ***"...Allahım, Özünü adlandırdığın hər bir adla, yada Kitabında nazil etdiyin, yada məxluqatından hər hansı birinə nazil etdiyin və ya yalnız Sənə məlum olan hər bir adla Sənə and verirəm (yalvarıram)..."***

Beləliklə, Uca və Ən Əzəmətli Allahın həm adları, həm də xüsusiyyətlərini ehtiva edən bir çox adları vardır. Eyni zamanda, ad-

lar — Uca Yaradanın kimlinə, sifətlər isə — Onun kamillik xüsusiyyətlərinə işarə edir.

Allahın ad və sifətlərindən bəziləri göstərək.

Allahın adlarına bunlar aitdirlər:

Allah, Rəbb (İlah), Rəhman (Lütfkar), Rəhim

Uca Allah buyurur:

— Həmd olsun aləmlərin Rəbbi Allaha, Mərhəmətli və Rəhmliyə… "Fatihə (Kitabı açan)" surəsi, 2-3 cü ayələr.

Allah — o Kəsdir ki, İlah hesab edilir və kimə ki, ibadət edilir.

Rəbb — bu Yaradandır, yaşam üçün Ruzi Verəndir, Hakimdir, tam Hökm Verən, tam Nəzarət Edəndir, bütün yaradılmışları Öz lütfü ilə Bəsləyən, Tərbiyyə Edəndir.

Mərhəmətli, Rəhmli. Bu adların hər ikisi rəhmət ilə bağlıdır, lakin əgər Mərhəmətli adı Ona xas, məxsus olan bir keyfiyyətə işarə edirsə, Rəhmli isə Onun rəhmətinin əhatə etdiyi hər şeylə əlaqəsinə işarə dəlalət edir. Allahın rəhməti iki yerə bölünür: Ümumi, hansını ki, O hər kəsə münasibətdə göstərir və xüsusi, hansını ki, O möminlərə münasibətdə göstərir.

Uca Allah hər kəsə göstərdiyi rəhməti haqqında belə buyurmuşdur:

— Həqiqətən, Allah insanlara Şəfqətlidir, Mərhəmətlidir. "Həcc" surəsi, 65-ci ayə.

Xüsusi rəhmətə gəlincə, Uca Allah bu haqda belə buyurmuşdur:

— …(Allah) möminlərə qarşı Rəhmlidir. "Əhzab (Müttəfiqlər)" surəsi, 43-cü ayə.

Əhəd (Tək), Saməd (Əbədi)

Mənası baxımından Quranın üçdə birinə bərabər olan "İxlas" surəsində Uca Allah buyurur:

— De: "O Allah Təkdir! Allah Möhtac deyildir." "İxlas (Səmimi etiqad)" surəsi, 1-2-ci ayələr.

Tək, yəni kamillik baxımından Yeganə və Onun kimisi və kamillik xüsusiyyətlərini Onunla bölüşən heç bir şey və heç kim yoxdur.

Əbədi, yəni sifətləri-keyfiyyətləri ilə kamil-mükəmməl olan, və bütün varlıqlar ehtiyacları ilə, Ona doğru tələsirlər.

Canlı (Yaşayan), Mövcud olan, Yüksək-Uca, Ən Əzəmətli

Bütün bu adlar, Uca Allah tərəfindən, Onun ən böyük ayələrindən olan, Ərş ayəsində zikr edilmişdir. Rəsulullah ﷺ deyirdi ki, gecə bu ayəni oxuyan hər kəsi səhərə qədər Allahın ona göndərdiyi bir vəli, qoruyucu qoruyar və şeytan ona yaxınlaşmaz."

Uca Allah buyurur:

— Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, məxluqatın gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, — Ucadır, Uludur. "Bəqərə (İnək)" surəsi, 255-ci ayə – Ayətul-Kursi.

Canlı. Bu o deməkdir ki, Onun həyatı hər cəhətdən əbədi və kamildir və Özü də yuxuya, yuxuya və ölümə tabe deyildir.

Uca Allah buyurur:

— Ölməz, əbədi Yaşayana təvəkkül et… "Furqan (Haqqı batildən ayırd edən)" surəsi, 58-ci ayə.

Mövcud (var olar). Bu, o deməkdir ki, O, özü-özünə mövcuddur, var olandır, başqaları isə yalnız Ona görə, onun sayəsində mövcuddurlar, çünki O, heç bir şeyə ehtiyac duymur.

Uca. Burda, mütləq yüksəklik nəzərdə tutulur, misal üçün qüdrətin ucalığı, tabeçiliyin yüksəkliyi və varlığın, mövcudluğun ucalığı kimi. Qüdrətin yüksəkliyinə gəlincə, bu Onun kamillik və ucalıq, böyüklük sifətlərinə malik olması deməkdir. Tabeçiliyin yüksəkliyinə gəlincə, bu o deməkdir ki, O bütün yaradılmışları özünə tabe edir və onları tamamilə idarə etməyə gücü çatır. Mövcudluğun, val olmanın yüksəkliyinə gəlincə isə, bununla Onun yüksəlməsi nəzərdə tutulur Onun taxtı bütün yaratdıqlarından üstündür.

Uca Allah buyurur:

— Ən Uca Rəbbinin adına təriflər de! "Ə'la (Ən uca)" surəsi, 1-ci ayə.

Uca Allah həmçinin buyurur:

— O vaxt Allah dedi: "Ey İsa! Mən sənin həyatına son qoyub Özümə tərəf qaldıracağam…" "Ali Imran (İmranın ailəsi)" surəsi, 55-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Göydə olanın sizi yerə batırmayacağına əminsinizmi? O zaman yer hərəkətə gəlib titrəyəcəkdir. Ya da ki, göydə Olanın üstünüzə daşlar yağdırmayacağına əminsinizmi? Siz, Mənim xəbərdarlığımın necə nəticələr verdiyini biləcəksiniz. "Mulk (Mülk)" surəsi, 16-17-ci ayələr.

"Göydən" dedikdə, burda yüksəklik nəsəzrdə tutulur, başqa sözlə desək, yəni göylərdən yüksəkdə olan şey.

Ən Əzəmətli. Bu ad, əzəmətlə bağlı olan hər şeyə sahib olmaqdan xəbər verir.

Birinci, Sonuncu, Görünən, Gizli olan, Bilən

Uca Allah buyurur:

— Əvvəl də, Axır da, Zahir də, Batin də Odur. O, hər şeyi bilir. "Hədid" surəsi, 3-cü ayə.

Rəsulullah ﷺ bu dörd adın üçün öz təfsirində belə buyurdu: ***"Allahım, — Sən ilksən, Səndən əvvəl heç bir şey yox idi, Sən — Axırıncısan, Səndən sonra da heçnə olmayacaq, Sən — Qalibsən və Səndən yuxarıda heç bir şey yoxdur, Sən — Gizlisən və Sənin altında heç bir şey yoxdur."*** Bu hədisi Muslim rəvayət etmişdir.

Bilən: Yəni o kəs ki, kimin biliyi hər şeyi əhatə edir.

Uca Allah buyurur:

— Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) **olmasın.** "Ənam (Mal-qara)" surəsi, 59-cu ayə.

Eşidən, Görən

Uca Allah buyurur:

— O, Eşidəndir, Görəndir. "Şura" surəsi, 11-ci ayə.

O, Eşidəndir, yəni eşitmək Onun sifətlərindəndir. O, Görəndir, yəni görmə Onun sifətlərindəndir. Beləliklə, O hər şeyi görür, hər şeyi eşidir və Ondan heç bir şey gizlənə bilməz.

Müdrikdir, Xəbərdardır

Uca Allah buyurur:

— …O, Müdrikdir, Xəbərdardır. "Səba" surəsi, 1-ci ayə.

Müdrik: bu o deməkdir ki, O, həm dünyada, həm də axirətdə yaratdıqlarını qoyduğu həyat qanunları və dini qanunlar vasitəsilə idarə edir və O istədiyi kimi hökm edir. Heç kəs Onun qərarlarını döndərə bilməz və Onun hikməti var və bu səbəbdən Onun bütün hökmləri və yaratdıqları mükəmməl dəqiqliyi və gözəlliyi ilə seçilir.

Xəbərdar: yəni O gizlində və aşkarda olan hər şeyi bilir. Allahın sifətlərinə aiddir:

Üzü (Zatı)

Uca Allah buyurur:

— Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir. "ər-Rahmən (Mərhəmətli)" surəsi, 27-ci ayə.

Əlləri

Uca Allah buyurur:

— …Onun əlləri açıqdır… "Maidə (Süfrə)" surəsi, 64-cü ayə.

Gözləri

Uca Allah buyurur:

— Sən öz Rəbbinin hökmünə səbr et! Həqiqətən, sən Bizim Gözlərimiz önündəsən. (Yuxudan) **qalxdıqda Rəbbini həmd ilə zikr et!** "Tur (Dağ surəsi)" surəsi, 48-ci ayə.

Həmçinin Uca Allah buyurur:

— …Gözlərim önündə boya-başa çatdırılasan deyə… "Ta ha" surəsi, 39-cu ayə.

Burada iki göz nəzərdə tutulur və buna görə də Allah Rəsulu ﷺ buyurur: ***"…Həqiqətən, sizin Rəbbiniz tək gözlü deyildir."***

Yuxarıda qeyd olunan üç sifət Allahın zatına aiddir.

Ərşə ucalış

Uca Allah buyurur:

— Ər-Rəhman Ərşə ucaldı. "Ta ha" surəsi, 5-ci ayə.

Uca Allah həmçinin buyurur:

— …sonra da Ərşə ucalan Allahdır. "Əraf (Sədd)" surəsi, 54-cü ayə.

Sözü gedən ifadə, hündürlüyü (ən yüksək həddi), hər şeydən üstün olmağı, yüksəkliyi, ucalığı və sabitliyi göstərir. Belə bir ifadə hərəkətin keyfiyyətlərindən biridir.

Birgə yaşayış

Uca Allah buyurur:

— Göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Odur. O, yerə girəni də, oradan çıxanı da, göydən enəni də, oraya qalxanı da bilir. Siz harada olsanız belə, O sizinlədir. Allah sizin nə etdiklərinizi görür. "Hədid (Dəmir)" surəsi, 4-cü ayə.

Uca Allah həmçinin buyurur:

— Məgər Allahın göylərdə və yerdə olan hər şeyi bildiyini görmürsən? Üç nəfərin arasında gedən elə bir xəlvəti söhbət yoxdur ki, (onların) **dördüncüsü, beş nəfərin də altıncısı O olmasın. İstər bundan az, istərsə də çox olsunlar — harada olursa olsunlar,** (Allah) **onların yanındadır. Sonra Qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi bilir.** "Mucadilə (Mübahisə edən qadın)" surəsi, 7-ci ayə.

Uca Allah həmçinin buyurur:

— …öz yoldaşına (Əbu Bəkrə) **dedi: "Qəm yemə, Allah bizimlədir!"** "Tovbə" surəsi, 40-cı ayə.

Uca Allah həmçinin buyurur:

— Həqiqətən də, Allah (Ondan) **qorxanlar və yaxşı işlər görənlərlədir.** "Nəhl (Bal arısı)" surəsi, 128-ci ayə.

Müştərək qalma iki növdür: "Hədid (Dəmir)" və "Mücadələ (Mübahisə edən qadın)" surələrində yuxarıda zikr olunan ayələrin işarə etdiyi kimi, hamı ilə birgə olmağı bildirilir. Və bu, Yaradanın yaratdığı bütün varlıqlar haqqında hərtərəfli elmə malik olması ilə bağlıdır.

İkinci: Yuxarıda “Tövbə” və “Bal arısı” surələrində zikr edilən ayələrin də işarə etdiyi kimi, Onun yaratdığı məxluqların bir hissəsi ilə birgə qalmağı bildirilir.

Burada söhbət Ona yaxın olanlardan gedir, çünki bu ayələrin mənasına görə, O, onlara daim kömək və dəstək verir, onları qoruyur.

Gəlişi

Uca Allah buyurur:

— Yoxsa onlar ancaq onu gözləyirlər ki, Allah bulud kölgəsində mələklərlə birlikdə gəlsin və iş bitmiş olsun? “Bəqərə (İnək)” surəsi, 210-cu ayə.

Uca Allah həmçinin buyurur:

— Sənin Rəbbin və səf-səf (düzülmüş) mələklər gələcək…

“Fəcr (Dan yeri)” surəsi, 22-ci ayə.

Bu, Uca Allahın Qiyamət günü qulları haqqında son qərarını vermək üçün gəlməsinə aiddir. Bu sifətlər hərəkətin xüsusiyyətləridir.

Aşağıdakı səmaya enmə

Hər iki “Səhih” də Əbu Hüreyrənin (Allah ondan razı olsun) sözlərindən rəvayət olunan bir hədis var ki, o da Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: ***“Hər gecə, gecənin üçdə ikisi keçdikdə Uca Allah dünya səmasına enir və belə deyir: “İstəyən varmı ona verim. Bağışlanma diləyən varmı onu bağışlayım. Tövbə edən varmı onun tövbəsini qəbul edim. Dua edən varmı onun duasını qəbul edim.”***

Beləliklə, bu hədis təsdiq edir ki, Uca Allah, həmd olsun Ona, hər gecə aşağı səmaya enir, bu da əməlin xüsusiyyətləri, sifətləri ilə bağlıdır.

Xitab (Kəlam)

Uca Allah buyurur:

— Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı. "Əraf (Sədd)" surəsi, 143-cü ayə.

Uca Allah həmçinin buyurur:

— Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa!" "Maidə (Süfrə)" surəsi, 116-cı ayə.

Uca Allah həmçinin buyurur:

— Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. "Tovbə" surəsi, 6-cı ayə.

Allahın kəlamları və sözləri Onun xüsusiyyətlərinə aiddirlər. Uca Allah danışır əyər istəsə, O istədiyi zaman və istədiyi kimi danışır. Onun səsi eşidilir və Allahın kəlamları bir tərəfdən Onun zatının keyfiyyəti, digər tərəfdən isə — əməl keyfiyyətidir.

Quranda Allahın nazil olan və yaradılmamış kəlamları vardır.

Uca Allah buyurur:

— Bu, Bizim nazil etdiyimiz mübarək bir Kitabdır. Ona tabe olun… "Ənam (Mal-qara)" surəsi, 155-ci ayə.

Artıq qeyd edildiyi kimi, Allahın kəlamları Onun sifətlərindəndir və Onun sifətləri yaradılmayıb.

Sevgi

Uca Allah buyurur:

— …Həqiqətən, Allah yaxşılıq edənləri sevir. "Bəqərə (İnək)" surəsi, 195-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Həqiqətən, Allah müttəqiləri sevir. "Tovbə" surəsi, 4-cü ayə.

Məmnunluq

Uca Allah buyurur:

— Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. "Maidə (Süfrə)" surəsi, 119-cu ayə.

Qəzəb

Uca Allah buyurur:

— …Allahın onlara qəzəbi tutmuşdur. "Fəth (Zəfər)" surəsi, 6-cı ayə.

Biz dəqiq bilirik ki, bu adlar və sifətlər Allaha məxsusdur, çünki O, Özünü belə adlandırmış, Rəsulu ﷺ da Onu belə çağırmışdır. Bunda Quran və Sünnədən heç bir *sapma, kənarlaşma* yoxdur, çünki onların açıq-aydın mənasından kənara çıxmaq yolverilməzdir, necə ki, bunun arxasında nəyin dayandığını öyrənməyə çalışmaq və ya Onun sifətlərini insanlara xas olan sifətlərlə müqayisə etmək yolverilməz olduğu kimi.

Uca Allah buyurur:

— Onun heç bir bənzəri yoxdur. "Şura" surəsi, 11-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Ona oxşarını tanıyırsanmı?! "Məryəm" surəsi, 65-ci ayə.

Uca Allah həmçinin buyurur:

— …Onun bənzəri də yoxdur. "İxlas (Səmimi etiqad)" surəsi, 4-cü ayə.

İlahi ad və sifətlərə sahib, malik olma Tövhidini (Tək-ilahlığı) necə düzgün anlamaq olar.

Uca Allahın ad və sifətlərinin düzgün başa düşülməsi, Allahın Özünü vəsf etdiyi və Allah Rəsulunun ﷺ Allahı vəsf etdiyi bütün ad və sifətlərə möhkəm iman və mütləq əminliyə əsaslanır, dəyişiklik (*təhrif)* etmədən və inkar etmədən *(tə'til)*, eləcə də onları təsəvvür etmədən *(təqyif)* və onları yaradılmışların xüsusiyyətlərinə bənzətmədən (*təmsil)*.

Dəyişiklik *(Təhrif)* Allahın ad və sifətlərininin əsl mahiyyətinin dəyişdirilməsini nəzərdə tutur. Təhrif iki növ olur:

1. Sözə əlavə hərflər əlavə etməklə, yaxud bu sözdən bir və ya bir neçə hərfi çıxarmaqla, yaxud oradakı saitləri (hərəkətləri) dəyişdirməklə adı təhrif etmək. Belə ki, azmış cərəyanların nümayəndələri Uca Allahın bəyanında *"isteva"* kəlməsini dəyişdirmişlər:

— Ər-Rəhman Ərşə ucaldı. "Ta ha" surəsi, ayə 5.

Bu sözün mənası: "yüksəldi", "qalxdı", "ucaldı", "bərqarar oldu", lakin onlar bunu *"istila"* kimi şərh etdilər, bu da artıq kökündən fərqli bir məna verir — "mənimsəmə, zəbt etmə".

2. Allahın və Rəsulunun qoyduğu sözün ilkin mənasına zidd təfsir edərək mənasını təhrif etmək. Məsələn, Uca Allahın "Allahın əli" ifadəsindəki *"yəd"* sözünün "Allahın qüdrəti" və ya "rəhməti" kimi şərhi. Bu təfsir səhvdir və nə Quran və Sünnə mətnlərində, nə də ərəb dilinin ümumi qəbul edilmiş qaydalarında heç bir əsası yoxdur.

İnkar *(ta'til)* Allahın sifətlərini tamamilə rədd etmək deməkdir. Allahu Təalənin heç bir sifətinin olmadığına inanalar bu cür (inkar) edirlər.

Təsəvvür *(təqiif)* ilahi sifətlərin xüsusiyyətlərinin və ya surətinin təsəvvürü (təsviri) deməkdir. Allahın sifətlərinin mənalarını təhrif edən azmış cərəyanların bəzi nümayəndələri belə edirlər, onlara müəyyən forma verirlər və məsələn, Onun əlinin necə olduğunu və ya Ərşə necə yüksəldiyini təsvir edirlər. Bu cür təsvirlər batildir, çünki bunu Allahdan başqa heç kəs bilmir. Məxluqlar bunu bilmirlər və bunu dərk etməyə qadir deyillər.

Bənzətmə *(təmsil)* Allahın sifətlərini, məxluqların xüsusiyyətlərinə bənzətmək deməkdir. Məsələn, bir adam deyir ki: "Allahın bizim eşitdiyimiz kimi eşitmə qabiliyyəti var" və ya deyir ki: "Allahın da bizim üzümüz-sifətimiz kimi üzü-sifəti var."

Allah bütün bunlardan ucadır!

Allahın ad və sifətlərinə düzgün yanaşma, üç əsasa əsaslanır və onları anlayıb qəbul edən hər kəs bu məsələdə əsla səhvə yol verməz. Bu prinsiplər aşağıdakılardır:

1. Əzəmətli və Uca Allahın sifətlərindən heç biri Onun yaratdıqlarının sifətlərinə bənzəmirlər.

Uca Allah buyurmuşdur:

— Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir. "Şura" surəsi, ayə 11.

Bu gözəl ayə, Yaradanla məxluqlar arasında heç bir oxşarlığın olmamasına dəlalət edir və açıq-aydın bildirir ki, Uca Yaradan məxluqların eşitməsi və görməsi kimi olmayan eşitmə və görmə qabiliyyətinə malikdir, baxmayaraq ki, bu iki xüsusiyyət Allahın bir çox məxluqlarına xasdır. Həmçinin bu, Allahın aşağıdaki sözləri ilə sübut olunur:

— Heç kəsi Allaha oxşatmayın… "Nəhl (Bal arısı)" surəsi, 74-cü ayə.

və Allahın bu sözləri ilə: **"…Onun bənzəri də yoxdur."** "İxlas (Səmimi etiqad)" surəsi, 4-cü ayə.

2. Allahın özünü vəsf etdiyi və Peyğəmbərin ﷺ Onu vəsf etdiyi ad və sifətlər, Onun ucalğına uyğundurlar.

3. Allahu Təalənın sifətlərinin mahiyyətini dərk etməyə çalışmaq olmaz, çünki məxluqlar buna qadir deyillər. Bunu Uca Allahın bu kəlamı sübut edir:

— Allah onların gələcəyini də, keçmişini də bilir. Onların elmi isə Onu ehtiva edə bilməz! "Ta ha" surəsi, 110-cu ayə.

Sağlam düşüncəli insan başa düşməlidir ki, onun şüurunun həddi var, hansınıki aşa bilməz, və bu da onun eşitmə və görmə imkanları kimidir, onlarda hüdudsuz deyillər. O kəs ki, əldə etmək mümkün olmayanı ağlı ilə əldə etməyə çalışır, və məsələn, Allahın sifətlərinin mahiyyəti haqqında dərindən düşünür, o kəs divarın

arxasında nə olduğunu görmək istəyənə bənzəyir və ya ondan cox uzaqda olan səsi eşitməyə ümid edən kimidir.

Quran və sünnədə Uca Allahın çoxlu gözəl adları və kamil sifətləri zikr edilir və bütün onları saymaq qeyri-mümkündür. Verdiyimiz adlar və keyfiyyətlər onlardan bir neçəsidir. Hər bir müsəlman, Allahın ad və sifətlərini tanımağa (təsdiq etməyə) borcludur, Allahın əzəmətinə və kamilliyinə yaraşan kimi. O hər şeyi Allahın Quranda Özünü vəsf etdiyi kimi qəbul etməlidir, çünki O, Özünü ən yaxşı tanıyandır, yaratdıqlarından daha yaxşı. Həmçinin hər bir müsəlman Allahın Rəsulunun ﷺ sünnədə Allahı vəsf etdiyi kimi qəbul etməlidir, Rəbbini bütün insanlardan daha yaxşı tanıdığı üçün, çünkü O onların arasında ən səmimi, ən bəlağətli, ən dürüst, ən təqvalı və ən çox Allahdan qorxan idi. Və heç kimin, Uca Allahın heç bir xüsusiyyətini inkar etməyə və ya onları yaradılmışların xüsusiyyətlərinə bənzətməyə haqqı yoxdur, çünki **“Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir.”** “Şura” surəsi, 11-ci ayə.

Uluhiyyət Tövhidi (Tək-ilahlığı) (tövhid əl-uluhiyyə)

Ərəbcə *“uluhiyyə”* sözü *“ilah”* sözündəndir, hansı ki, “ilahi, tanrı” deməkdir. “İlahi, tanrı” — sevgi və ucalıq əsasında itaət edilən bir varlıqdır. Ona təslim olub Onun qarşısında zəlil olmaq, Ondan qormaq və Onu arzulamaq, və Ona müraciət etmək lazımdır bədbəxtçilikdə, kədərdə və həmçinin həyatın mühüm anlarında dualar Ona yönəlməlidirlər, xeyir gözləyərək Ona arxalanmaq və Ona sığınmaq lazımdır. Və bütün bunlar, insanın qəlbində, ilaha qarşı münasibət-

də yaranır, çünki, ilahın kamillik və böyüklük xüsusiyyətləri vardır, hansılarki, insan və yaradılmışlar üçün əlçatmazdırlar. İlahiliydə Tövhid (Tək-ilahlıq) *(tövhid əl-uluhiyyə)* — bu, yalnız Allahın həqiqi ilah olduğuna və yalnız Onun ibadət olunmağa haqqı olduğuna qəlb ilə inanmaq, əmin olmaqdır. Həqiqətən, əgər Uca Allah tək Rəbbdirsə və yalnız Onun kamil ad və sifətləri varsa, demək ki, həqiqi ilah yalnız Odur.

Uca Allah buyurur:

— Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun" — (deyə)**, elçi göndərdik.** "Nəhl (Bal arısı)" surəsi, 36-cı ayə.

Uca Allah buyurur:

— Bu belədir. Çünki Allah Haqdır. (Kafirlərin) **Ondan başqa yalvardıqları isə batildir. Həqiqətən, Allah Ucadır, Böyükdür.** "Həcc" surəsi, 62-ci ayə.

Və Uca Allah, Quranda, insanların məbud tutduqları, ibadət obyektlərinin hamısının yalan olduğunu bildirmişdir. Yəni onlara təslim olmaqla, ibadət etməklə, dua ilə müraciət etməklə, ümidlə, qorxu ilə, köməyə müraciət etməklə, ümid etməklə, insan onlardan heç bir şey almaz. Necə ki, Uca Allah buyurur:

— Onlar heç bir şey yaratmayan, özləri xəlq edilmiş olan şeyləri (Allaha) **şərik qoşurlar?** (Bütlər) **nə onlara yardım edə bilər, nə də özlərinə kömək edə bilərlər.** "Əraf" surəsi, 191-192-ci ayələr.

— Ondan savayı çağırdıqlarınız nə sizə yardım edə bilər, nə də özlərinə köməkçi ola bilərlər. "Əraf (Sədd)" surəsi, 197-ci ayə.

— O, gecəni gündüzə, gündüzü də gecəyə qatır. O, günəşi və ayı ram etmişdir. Onların hər biri müəyyən olunmuş vaxtadək hərəkət edir. Bu sizin Rəbbiniz olan Allahdır. Mülk Onundur. Sizin Ondan başqa yalvardıqlarınız xurma çəyirdəyinin pərdəsinə belə sahib deyillər. Əgər siz onları çağırsanız, onlar sizin duanızı eşitməzlər, eşitsələr də cavab verə bilməzlər. Özlə-

ri də Qiyamət günü sizin (onlara) **ibadət etdiyinizi danacaqlar. Heç kəs** (hər şeydən) **Xəbərdar olan** (Allah) **kimi sənə xəbər verə bilməz.** "Fatir (yaradan)" surəsi, 13-14-cü ayələr.

Insanların çoxsu Allahı Rəbb, Yaradan, Ruzi verən, Hökmdar kimi tanıyırlar — və bütün bunlar Hökmranlıqda, **Rəbblikdə** tövhidə (Tək-ilahlığa) aiddir — və eyni zamanda insanların çoxsu hər cür bütləri, ölü salehləri və mələklər, ulduzları və ağacları, kimi heç kimə zərər və ya fayda verə bilməyən, nə bir şey verə bilən, nə də ki, götürə bilən şeyləri Ona şərik qoşurlar.

Necə ki, Uca Allah buyurur:

— Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir. "Yusuf" surəsi, 106-cı ayə.

Peyğəmbərin ﷺ dövrünün müşrikləri, Allahı Rəbb, Yaradan, Ruzi verən və Hökmdar olaraq tanıyırdılar, amma onların şirkləri, Allah ilə yanaşı kiməsə və nəyəsə ibadət etməkdə ifadə olunurdu. Onlar, Allaha bənzərlər və şəriklər qoşurdular, onları dualar ilə çağıraraq, onlardan nicat, kömək diləyərək, ehtiyacları üçün dualar edərdilər.

Uca Allah Öz Müqəddəs Yazılarının bir çox yerində bizə işarə edir ki, müşrik ərəblər Allahın hökmranlığını tanıyırdılar, yəni tövhid ər-rububiyyəni, lakin eyni zamanda ibadətdə Ona şəriklər qoşdular. Beləliklə, Uca Allah buyurur:

— Əgər sən onlardan: "Göyləri və yeri yaradan, günəşi və ayı ram edən kimdir?" — deyə soruşsan, onlar mütləq: "Allahdır!" — deyəcəklər. Onlar necə də (haqdan) **döndərilirlər!** "Ənkəbut (Hörümçək)" surəsi, 61-ci ayə.

Pak və Əzəmətli Allah buyurur:

— Həqiqətən, əgər sən (Məkkə müşriklərindən)**: "Göydən yağmur endirib quruduqdan sonra onunla yerə təzədən can verən kimdir?" — deyə soruşsan, onlar mütləq: "Allahdır!" —**

deyə cavab verəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların əksəriyyəti dərindən düşünməz! "Ənkəbut (Hörümçək)" surəsi, ayə 63.

O həmçinin buyurur:

— Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə: "Allah!" — deyərlər. (Gör) **necə də** (haqdan) **döndərilirlər!** "Zuxruf (Zi'nət)" surəsi, ayə 87.

O həmçinin buyurur:

— (Ya Rəsulum! Bu müşriklərə) **de: "Əgər bilirsinizsə,** (bir deyin görək) **bu yer və yer üzündə olanlar** (bütün məxluqat) **kimindir?" Onlar mütləq: "Allahındır!" — deyə cavab verəcəklər. Sən də de: "Bəs elə isə** (məxluqatı yaratmağa qadir olan kəsin öləndən sonra onları yenidən dirildə biləcəyini) **düşünmürsünüz?" De: "Yeddi** (qat) **göyün Rəbbi, o** (böyük) **əzəmətli ərşin Rəbbi** (sahibi) **kimdir?"** (Müşriklər) **mütləq: "**(Bunlar) **Allahındır!" —deyə cavab verəcəklər. Onda sən də de: "Bəs elə isə (Allahın əzabından) qorxmursunuz?" De: "Əgər bilirsinizsə,** (bir deyin görək) **hər şeyin hökmü əlində olan,** (istədiyini) **himayə edən, amma Özünün himayəyə ehtiyacı olmayan kimdir?" Onlar mütləq: "**(Bu qüdrət, bu vəsflər yalnız) **Allahındır!" — deyə cavab verəcəklər. Sən də de: "Bəs elə isə** (Şeytana aldanıb haqqa boyun qoymaqdan, Allahın ayələrinə inanmaqdan və yalnız Ona ibadət etməkdən) **nə cür** (aldanılıb) **döndərilirsiniz?"** "Muminun (Möminlər)" surəsi, 84-89-cu ayələr.

Peyğəmbər ﷺ dövrünün müşrik ərəbləri inanmırdılar ki, bütlər özləri yağış yağdırır, dünyanı ruzi ilə təmin edir və onun işlərini idarə edirlər. Əksinə, bütün bunlara yalnız pak Rəbbin qadir olduğuna əmin idilər və Allahı qoyub dua edərək üz tutduqları bütlərin özlərinin məxluq olduqlarını və özlərinə və onlara ibadət edənlərə nə fayda, nə də zərər verə bilmədiklərini anlayırdılar. Onlar bilirdilər ki, bu bütlər nə öldürmək, nə diriltmək, nə də diriltmək iqtida-

rında deyillər, necə ki, eşitmirlər və görmürlər. Onlar inanırdılar ki, bunu yalnız Uca Allahın edə bilər və heç kəs bu gücü Onunla bölüşmür, nə özləri, nə də bütləri buna qadir deyillər. Onlar anlayırdılar ki, ən pak Allah tək Yaradandır, bütün digər varlıqlar isə — Onun məxluqlarıdırlar, O — Tək Rəbbdir, qalanları isə tamamilə Ona tabe olan qullarıdır. Amma eyni zamanda, yaratdıqları arasından Ona şəriklər və vasitəçilər qoşaraq, onlardan Allaha şəfaətçi olmalarını diləyir və bununla da Ona yaxınlaşmağa çalışırdılar.

Uca Allah onlar haqqında belə buyurmuşdur:

— Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik" — (deyirlər.) **Əlbəttə ki, Allah ziddiyyətə düşdükləri şeylər barəsində onların arasında Öz hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz.** "Zumər (Zümrələr)" surəsi, 3-cü ayə.

Yəni, Allah yanında, onlardan şəfaət istəyidilər ki, onlara kömək olunsun, ruzi verilsin və digər dünya işləri doğru-düzgün qaydasına salınsın.

Göründüyü kimi, müşriklər əsasən Allahın, hər şeyin Rəbbi olduğunu qəbul edirdilər, lakin buna baxmayaraq, Uca Allah onları müsəlman adlandırmadı. Əksinə, Müqəddəs və Əzəmətli olan Allah onların müşrik və kafir olduqlarını bildirdi, onları əbədi cəhənnəm əzabı ilə qorxutdu, canlarını və mallarını Öz Elçisinə ﷺ halal etmişdir, çünki onlar **Rəbblikdə** tövhidin (tək-ilahlığın) vacib şərtinə əməl etmirdillər, yəni yalnız Allaha ibadət etmirdilər.

Bütün deyilənlərdən açıqaydın belə çıxır ki, yalnız tək Allaha ibadət etmədən, Allahı tək Rəbb kimi tanımaq, müsəlman olmaq üçün kifayət etmir və Allahın əzabından xilas etmir. Üstəlik də əksinə, Uca Allahu Təalənın Rəbbliyini, hökümranlığını, Onu ibadətdə təkləşdirmədən (tək ibadət olunan kimi tanımadan) qəbul etmək,

insanın özünə qarşı təkzibedilməz dəlildir, çünki bu onu şərik qoşmadan, ixlasla, yalnız Allaha qulluq etməyə məcbur edir və yalnız Ona ibadət etmək məcbur eddir.

(Tək-ilahlığın) Tövhidin sözləri — Lə iləhə İllallah şəhadəti

Bu təsnifat, sinifləndirmə, tövhidin (tək-ilahlığın) müstəqil və bir-biri ilə əlaqəsi olmayan üç növünün olması demək deyil, və bu üç növündən hər hansı bir növünə etiqad edib, qalanlarına isə laqeyd qalmağın kifayət olduğu demək deyil, və onların arasında daha vacib və daha az əhəmiyyətli olanların mövcud olduğu demək deyil. İnsan yalnız o halda tövhidi etiqad etmiş sayılır ki, hər üç növə etiqad, iman etsə. Kim bu növlərdən biri ilə Allaha şərik qoşarsa, o zaman sanki bütün növlərdə Allaha şərik qoşmuş kimi olar, çünki onların arasında yaxın əlaqə vardır. Buna misal olaraq yalnız Allahın qadir olduğu bir şey üçün dua edərək Allaha üz tutmayan insanı göstərmək olar.

Bu insan hər üç növ tövhiddə Allaha şərik qoşur. Bu insan ibadətdə Allaha şəriklər qoşur, çünki ibadətdə olan dualar ilə Allahdan qeyrisinə müraciət edir, bununla da Allahın təkliyini sual altına qoyur. Əgər Allahın Rəbblikdə təkliyindən danışılarsa, o zaman bu cür insan, xeyir almaq və ya zərəri özündən uzaq etmək üçün Allahdan başqasını çağırır, cünki əmindir ki, müraciət etdiyi varlığın, Allahın mülkünü paylaşdırmağa və insanın ehtiyacını ödəməyə gücü çatar.

Əgər, Allahın ad və sifətlərində onun təkliyi haqqında danışsaq, o zaman bu cür insanın hərəkətlərindən belə çıxır ki, onun müra-

ciət etdiyi varlıq — eşidəndir, yaxındır, ona dua edənlərin hamısını eşidir, onların istək və arzularını yerinə yetirə bilər, və istədiklərini verə bilər.

Və haqq məbudun yalnız Allahın olması öz təsdiqini şəhadətdə tapır: *"Lə iləhə illəllah"* — Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Bu böyük şəhadətin mahiyyəti ondan ibarətdir ki, Allahdan başqa heç kəsin, məxluqlar tərəfindən ibadət olunmağa haqqı yoxdur, çünki Allahdan başqa heç kəsdə ilahi xüsusiyyətlər yoxdur: kamillik və əzəmət xüsusiyyətləri, yalnız O, hər şeyin Əzəmətli Rəbbi və Yaradanıdır.

Kainatdakı bütün prosesləri yalnız O idarə edir, yalnız O, bütün mükəmməl sifətlərə sahibdir və hər cür nöqsanlardan uzaqdır və buna görə də insan ancaq Onun qarşısında zəlil olmalıdır və ancaq ona itaət etməlidir. Tək Uca Allah məxluqları yoxdan var edir və yenidən onları yaradır və bu prosesdə Onunla bərabər heç kim iştirak etmir. Bu isə o deməkdir ki, yalnız O ibadətə layiqdir və heç kimin bu işdə Onun şəriki olmağa haqqı yoxdur.

Lə iləhə illəllah şəhadətinin şərtləri

Bu əhəmiyyətli sözləri, insan dilə gətirdikdə islam dininə qoşulmasını elan edir. Bunları dilə gətirən zaman, qəlbdən gəlməsi üçün və onu söyləyənə xeyir gətirməsi üçün yeddi şərti yerinə yetirməlidir. Quran və Sünnədə onlara işarələr var, bununla belə, söhbət müvafiq şərtləri əzbərləməkdən getmir, onların mənasına əməl etməkdən gedir, çünki ola bilər ki, bütün bu şərtlərə bir nəfər riayət edər, ama sadalaya bilməz, digər bir kimsə isə əzbərləyər hər şeyi, amma şərtlərin əksinə hərəkət edər.

BİRİNCİ: elm — cəhalətin əksi

Burada nəzərdə tutulan, bu sözlərin mənasını bilməkdir, özlüyündə həm inkarı, həm də təsdiqi ehtiva edən.

Uca Allah buyurur:

— Bil ki, Allahdan başqa (ibadətə layiq olan) **heç bir məbud yoxdur.** "Muhəmməd" surəsi, 19-cu ayə.

Uca Allah həmçinin buyurur:

— "(Mənasını) **bilərək haqqa şəhadət verənlər isə istisnadır."** "Zuxruf (Zi'nət)" surəsi, 86-cı ayə.

Allahdan başqa ibadətə layiq haqq İlah olmadığına şəhadət verənlər nəzərdə tutulur, dilləri ilə dediklərinin mənasını qəlbləri ilə təsdiqləyirlər.

Uca Allah həmçinin buyurur:

— Allah Özündən başqa tanrının olmadığına şahidlik etdi, mələklər və elm sahibləri də (şahidlik etdilər)**.** (Allah əbədi olaraq) **ədalətli olmaqdadır. Ondan başqa ilah yoxdur, Qüdrətlidir, Müdrikdir.** "Ali İmran (Imranın ailəsi)" surəsi, 18-ci ayə.

İKİNCİ: əminlik — şübhənin əksi

Məsələ ondadır ki, bu sözləri söyləyən şəxs, dediklərinə tam əmin olmalıdır və heç bir şübhə hiss etmədən.

Uca Allah buyurur:

— Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! (İmanlarında) **sadiq olanlar da məhz onlardır.** "Hucurat (Otaqlar)" surəsi, 15-ci ayə.

Beləliklə, Uca Allah bildirdi ki, onların Allaha və Elçisinə iman gətirməyinin şərti — şübhələrin olmamasıdır.

"Əs-Səhih"də Əbudan rəvayət olunan bir hədisdə Abu-Hüreyra (radıyallahu anhu) rəvayət edir ki, Peyğəmbər ﷺ buyurur: ***"Şəha-***

dət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur və mən Allahın Rəsuluyam, və həqiqətən, bunda heç bir şübhəsi olmayan Allahın qulu Allahla görüşdükdən sonra, şübhəsiz ki, Cənnətə daxil olacaqdır!"

ÜÇÜNCÜ: təsdiq — inkarın əksi

Qəlbin bu şəhadət ilə razılığı nəzərdə tutulur, sözlər ilə ifadə olunaraq və əməllər ilə təsdiqlənərək. Və bütün başqa hər bir şeyin rədd edilməsi nəzərdə tutulur, əgər bu şəhadətin mənasına zidd olarlarsa. Elçilərin sözlərini yalan hesab edənlər belə etmirdilər, buna riayət etmirdilər. Onlar haqqında Uca Allah buyurur:

— Biz səndən əvvəl hansı bir şəhərə xəbərdarlıq edən (bir peyğəmbər) **göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri: "Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik! — dedilər.** "Zuxruf (Zi'nət)" surəsi, 23-cü ayə.

Kafirlərə gəldikdə isə, Uca Allah onlar haqqında belə buyurur:

— Çünki onlara: "Allahdan başqa (ibadətə layiq olan) **məbud yoxdur!" — deyildikdə təkəbbür göstərir və deyirdilər: "Məgər bir məcnun şairə görə məbudlarımızı tərk edəcəyik?** "Saffat (Səf-səf duranlar)" surəsi, 35-36-ci ayələr.

"Səhih"də Əbu Musa əl-Aşaridən rəvayət edir ki, Peyğəmbər — ona və ailəsinə Allahın salavatı və salamı olsun — belə demişdir: ***"Allahın mənim vasitəmlə göndərdiyi doğru yol göstəricisi (hidayət) və elm, torpağa düşən bol yağmura bənzəyir. Bu torpağın bir qismi münbit olduğundan, suyu canına çəkib növbənöv bitkilər və çoxlu otlar yetişdirir; bir qismi də quru olduğundan, suyu üstündə saxlayır və Allah da onunla insanları faydalandırır. Onlar bu sudan içir, üstəlik heyvanlarını və əkin sahələrini də sulayırlar; bu yağışın düşdüyü elə bir yer də vardır ki, ora hamar olduğundan, nə suyu üstündə saxlayır, nə də bir bitki ye-***

tişdirir. Bu, Allahın dinini dərk edən, Allahın mənim vasitəmlə göndərdiyindən faydalanan, elm öyrənən və bunu başqalarına öyrədən kimsə ilə buna tərəf başını belə qaldırmayan və Allahın mənim vasitəmlə göndərdiyi doğru yol göstəricisini qəbul etməyən kimsənin məsəlidir." (əl-Buxari, 79).

DÖRDÜNCÜ: tabeçilik — imtinanın əksi

Burda nəzərdə tutulanlar, birincisi yalnız Allaha səmimi ibadətin tələbinə tabeçilikdir, hansına ki, şəhadət kəlimələri işarə edirlər, və ikincisi başqa hər bir şeyə ibadət etməkdən imtina nəzərdə tutulur.

Qüdrətli və Əzəmətli Allah buyurur:

— Əzab sizə gəlməmişdən öncə Rəbbinizə üz tutun və Ona itaət edin… "Zumər (Zümrələr)" surəsi, 54 ayə.

Uca Allah həmçinin buyurur:

— Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən şəxs ən möhkəm dəstəkdən yapışmış olar… "Loğman" surəsi, 22-ci ayə.

Burada *"Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur"* kəlməsi nəzərdə tutulur, o ki qaldı **"**özünü təslim**"** dedikdə isə **"**itaət edərək, yaxşılıq edir**"** mənasına gəlir.

BEŞİNCİ: dürüstlük — yalanın əksi

Məsələ ondadır ki, insan bu sözləri söyləyəndə onun ürəyi dili ilə razı olmalıdır.

Uca Allah buyurur:

— Əlif. Ləm. Mim. İnsanlar elə güman edirlər ki, təkcə: "İman gətirdik!" — demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər? Biz onlardan öncəkiləri də sınaqdan keçirmişdik. Sözsüz ki, Allah doğru danışanları da, yalançıları da aşkara çıxardacaqdır. "Ənkəbut (Hörümçək)" surəsi, 1-3-cü ayələr.

Kafirlərə gəldikdə isə, Uca Allah onlar haqqında buyurub:

— İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və Axirət gününə inanırıq" — deyirlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar Halbuki yalnız özlərini aldadır və bunu anlamırlar. Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır Yalan söylədiklərinə görə də ağrılı-acılı bir əzab çəkəcəklər. "Bəqərə (inək)" surəsi, 8-10-cu ayələr.

Hər iki "Səhih"də Muaz ibn Cəbəlin (Allah ondan razı olsun) sözlərindən nəql olunan bir hədis var ki, o, Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: ***"Allahdan başqa ibadətə layiq məbud olmadığına və Muhəmmədin Onun qulu və Rəsulu olduğuna şəhadət verənlərin hər hansı birinə Allah atəşin toxunmasını haram edər."***

ALTINCI: ixlas — şirkin əksi

Bu, ibadəti yalnız Allahın rizası üçün etmək niyyəti ilə şirk çirkinliyindən, qalıqlarından təmizlənməyə aiddir.

Uca Allah buyurur:

— Halbuki onlara, dini məhz Allaha məxsus edərək, hənif-lər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur! "Beyyinə (Açıq-aydın dəlil)" surəsi, 5-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Biz Kitabı sənə bir həqiqət kimi nazil etmişik. Sən də, dinin yalnız Allaha məxsus olduğuna iman gətirərək, Ona ibadət et! Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik" — deyirlər. "Zümər (Zümrələr)" surəsi, 2-3-cü ayələr.

"Səhih əl-Buxari" də Əbu Hüreyrənin (Allah ondan razı olsun) sözlərindən rəvayət olunan bir hədis varid olub ki, o, Peyğəmbə-

rin ﷺ belə dediyini rəvayət edir: ***"Qəlbində ixlaslı olaraq, Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur kəlməsini tələffüz edən şəxs, mənim şəfaətim sayəsində ən böyük uğur əldə edəcək."***

YEDDİNCİ: sevgi — nifrətin əksi

Burda nəzərdə tutulan, şəhadətin sözlərinə, həm də onların tələb etdiyi və işarə etdiyi şeylərə sevgidir, həm də bütün lazımi şərtlərə riayət edərək mənasına uyğun hərəkət edənlərə məhəbbətə aiddir. Bu həm də bu sözlərin mənası ilə bir araya sığmayan şirkə və müşriklərə nifrət deməkdir.

Uca Allah buyurur:

— İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini (Ona) **tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər.** "Bəqərə (İnək)" surəsi, 165-ci ayə.

Hər iki "Səhih"də Əbu Hüreyrənin (Allah ondan razı olsun) sözlərindən rəvayət olunan bir hədis var ki, o, Rəsulullahın ﷺ belə dediyini rəvayət edir: ***"Sizlərdən heç biriniz məni övladlarından, atalarınızdan və bütün digər insanlardan daha çox sevmədikcə iman gətirməz."***

İbadətin sütünları

Hər iki "Səhih"də Ənəsdən rəvayət olunan, Rəsulullahın ﷺ belə dediyini xəbər verən bir hədis var: ***"İmanın şirinliyini ancaq üç xis-***

ləti ilə seçilən şəxs hiss edər: Allahı və Rəsulunu hər şeydən çox sevən, hər hansı bir şəxsi yalnız Allah rizası üçün sevən və Allahın onu xilas etdiyi küfrə qayıtmağı istəməyən, necəki oda, alova atılmağı istəmədiyi kimi."

Dediyimiz kimi "İləh" ("İlah") — sevgi və ucalıq əsasında itaət ediləndir. Bu, sevgi və tərifə əsaslanan tabeçilik isə ibadətdir, ərəbcə *"ibədə"* sözü ilə bildirilir. Ərəblər, yol haqqında deyirlər ki, o, *"muabbad"*dır (*"ibadət"* sözündən əmələ gəlib). Nəzərdə tutulur ki, yol salınıb, ayaqla tapdalanıb — yəni bu yol tabedir. Deməli, *"ibədə"* sözü də buradan gəlir — Allah qarşısında təslim olmaq, itaətkar olmaq.

Allaha itaət etmək, Allahın adını uca tutaraq və Ona məhəbbət bəsləyərək, Onun əmr etdiyi əməlləri yerinə yetirərkən Ona təslim olmaq və qadağan etdiyi əməlləri yerinə yetirməkdən imtina etməkdir. Bəndənin ürəyində Allaha qarşı sevgi və tərif onun öz Rəbbini dərk edəndə yaranır, Allahın tək Hökmdar olduğunu, Allahın ad və sifətlərində tək olduğunu biləndə.

Allaha qarşı sevgi ibadətin əsas şərtidir. Əgər insan kiməsə itaətkarlıqla, fağır qul kimi tabe olursa və ona köləlik edirsə və eyni zamanda ona nifrət edirsə, ona ibadət etdiyini söyləmək olarmı? Yox! Uca Allah möminlərin Ona olan sevgisi haqqında belə buyurmuşdur:

— İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini (Ona) **tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür.** "Bəqərə (İnək)" surəsi 165-ci ayə.

Hər iki "Səhih"də Ənəsədən rəvayət olunan, Rəsulullahın ﷺ belə dediyini xəbər verən bir hədis var: ***"İmanın şirinliyini ancaq üç xisləti ilə seçilən şəxs hiss edər: Allahı və Rəsulunu hər şeydən çox sevən, hər hansı bir şəxsi yalnız Allah rizası üçün sevən və***

Allahın onu xilas etdiyi küfrə qayıtmağı istəməyən, necəki oda, alova atılmağı istəmədiyi kimi."

Allaha ibadətdə, sevgidən başqa, mütləq qorxu və ümid də olmalıdır.

Allah qorxusu. İnsan həm də Allah qorxusundan Onun əmr və qadağalarını yerinə yetirərkən itaət etməlidir. Həqiqətən, Allah bizi itaətsizliyə görə Özünün əzabı ilə qorxudur. İnsanın qəlbindəki bu Allah qorxusu, Allahın əmr və qadağalarının pozulması ilə əlaqələndirilir və vacib sayılır.

Allah insanlara ondan qorxmağı əmr etdi:

— Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun! "Ali İmran (İmranın ailəsi)" surəsi, 175-ci ayə.

— Təkcə Məndən qorxun! "Bəqərə (İnək)" surəsi, 40-cı ayə.

Həmçinin Allah qorxusu, insanın ibadətinin Allah tərəfindən qəbul olunmayacağı ilə bağlı ola bilər.

Uca Allahın dediyi kimi:

— Həqiqətən, Rəbbinin qorxusundan əsim-əsim əsənlər, Rəbbinin ayələrinə iman gətirənlər, Rəbbinə şərik qoşmayanlar, Rəbbinə qayıdacaqlar deyə yerinə yetirməli olduqlarını qəlbi qorxa-qorxa yerinə yetirənlər — Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər. "Muminun (Möminlər)" surəsi, 57-61-ci ayə.

Tirmizi və İmam Əhməd, Aişənin (Allah ondan razı olsun) belə dediyini rəvayət edirlər: *"Bir dəfə mən soruşdum: "Ey Allahın Rəsulu ﷺ, Allahın bu sözləri* **"...Ürəkləri Rəbbinin hüzuruna qayıdacaqlarından qorxuya düşüb verməli olduqlarını (zəkatı, sədəqəni) verənlər..."** *zina edənlərə, şərab içənlərə və oğurluq edənlərə işarə edilirmi?" O cavab verdi:* ***"Xeyr, ey Siddiqin qızı, burada söhbət oruc tutan, namaz qılan, kasıblara yardım edən və bunun ondan qəbul olunmayacağından qorxanlardan gedir."***

Allaha ümid etmək. Uca Allah bizə Ona təvəkkül etməyi əmr edir. İbadət edərkən insanın qəlbində ümid olması şərtdir. Uca Allahın buyurduğu kimi:

— Allahın mərhəmətindən ümidinizi üzməyin. Çünki Allahın mərhəmətindən ancaq kafir adamlar ümidlərini kəsər. "Yusuf" surəsi, 87-ci ayə.

İnsanın ümidi, onun etdiyi itaətsizliklərə görə Allahdan bağışlanma gözləməsi ilə əlaqəli ola bilər. İnsan günahlarından tövbə edib və Allahın bağışlamasına ümid bəsləyərkən. Necə ki, Uca Allah buyurur:

— (Ya Peyğəmbər! Mənim adımdan qullarıma) **de: "Ey Mənim** (günah törətməklə) **özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah** (tövbə etdikdə) **bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!"** "Zümər (Zümrələr)" surəsi, 53-cü ayə.

— O müttəqilər ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb (tövbə edərək) **günahlarının bağışlanmasını istəyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Və onlar etdiklərini** (gördükləri işin pis olduğunu) **bildikdə** (tövbədən sonra) **bir daha ona qayıtmazlar.** "Ali İmran (İmranın ailəsi)" surəsi, 135-ci ayə.

— Nə üçün yaxşılıqdan qabaq pisliyə tələsirsiniz? Nə üçün Allahdan bağışlanmağınızı diləmirsiniz? Ola bilsin ki, sizə rəhm oluna. "Nəml (Qarışqa)" surəsi, 87-ci ayə.

İnsanın ümidi, Allahın tərəfindən həmin insanın etdiyi ibadətlərin qəbul olunması və Allahın öz vədinə uyğun olaraq mükafatlandırması ilə bağlı ola bilər.

— Məgər axirətdən qorxan, Rəbbinə (Allahın mərhəmətinə) **ümid bəsləyən, gah səcdəyə qapanıb, gah da ayaq üstə durub gecə saatlarını ibadət içində keçirən** (müti bəndə kafirlə birdir-

mi)**?! De: "Heç bilənlərlə bilməyənlər** (alimlə cahil) **eyni ola bilərmi?!** (Allahın ayələrindən, dəlillərindən) **yalnız ağıl sahibləri ibrət alar!** "Zümər (Zümrələr)" surəsi, 9-cu ayə.

— Həqiqətən də, iman gətirənlər, hicrət edənlər və Allah yolunda cihad edənlər, Allahın mərhəmətinə ümid edirlər. Allah Bağışlayandır, Rəhmlidir. "Bəqərə (İnək)" surəsi, 218-ci ayə.

Alimlər bu üç növ qəlb əməlini ibadətin sütunları adlandırmışlar, çünki onlar mütləq ibadət edənin qəlbində olmalıdırlar.

Şirk, küfr, münafiqlik

Allah Ona iman gətirməyi və yalnız Ona ibadət etməyi əmr etmişdir. Bu əmrə əməl edilməməsi üç formada özünü göstərə bilər: şirk, küfr, münafiqlik (nifaq).

Şirk

Ərəb dilində şirk sözü, — *"şərikə"* (işdə) şərik olmaq" felindən düzəlmiş *"şirk"* sözü ilə ifadə olunur. *"Şirk"* sözünün özü isə "şəriklik, ortaqlıq" deməkdir.

Ümumi mənada şirk, yalnız Allaha xas olan şeylərdə Allaha şərik qoşmaq deməkdir. Belə şirkin üç növü vardır:

Birinci növ — Rəbblikdə (hökmranlıqda-idarəçilikdə) Allaha, Ondan başqasını şərik qoşmaq, yəni yaradılmışları, məxluqları, Rəbblik sifətlərində Allah ilə bərabər tutmaq və ya bu sifətlərdən hər hansı birini, məsələn, yaradılışı, ruzi nazil etməyi, öldürməyi, kainatı idarə etməyi və s. Müqəddəs və Əzəmətli Allah buyurur:

— Ey insanlar! Allahın sizə verdiyi lütfünü bir xatırlayın. Allahdan başqa sizə göylərdən və yerdən ruzi verən bir xaliq

varmı? Ondan başqa heç bir məbud yoxdur. Necə də haqdan döndərilirsiniz! "Fatir" (Yaradan) surəsi, 3-cü ayə.

İkinci növ, ilahi ad və sifətlərə malik olaraq Allaha şərik qoşmaq, yəni bu ad və sifətlərdən hər hansı birində yaradılmışların Allaha bərabər tutulmasıdır.

Uca Allah buyurur:

— Ona bənzər heç bir şey yoxdur. O, (hər şeyi) **eşidəndir,** (hər şeyi) **görəndir!** "Şura" surəsi, ayə 11.

Üçüncü növ — ibadətdə Allaha şərik qoşmaq, yəni ibadətə layiq olan, tək Allahla yanaşı, məxluqlara ibadəti həsr etməkdir, ibadət isə yalnız Allahın haqqıdır. Bu, namaz, oruc, dua, nicat tapmaq üçün yalvarış, qurban kəsmək, nəzir və bütün digər ibadət növlərinə, istər böyük, istərsə də kiçik, istər vacib, istərsə də müstəhəb, istər gizli, istərsə də aşkar ibadətlərə aiddir.

Uca Allah buyurur:

— İnsanların içərisində Allahdan qeyrilərini (Allaha) **şərik qoşub, onları Allahı sevən kimi sevənlər də vardır…** "Bəqərə (İnək)" surəsi, 165-ci ayə.

Böyük şirk — Allahla yanaşı başqa bir tanrı qəbul edib ona Allaha ibadət etdiyi kimi ibadət etməkdir. Bu cür şirk, onu edən şəxsi İslamdan çıxarır və bütün digər əməllərini puç edir. Və əgər insan belə şirkdən tövbə etmədən vəfat edərsə, cəhənnəmdə əbədi əzaba məhkum olar. Orada o ölməyəcək və əzabları zərrə qədər azalmayacaq.

Kiçik şirk — böyük şirkə səbəb ola biləcək bütün əməllər, eləcə də Quran və Sünnə mətnlərində şirk deyilən, lakin böyük şirk dərəcəsinə çatmayan əməllər və sözlərdir. Uca Allah istəsə, Qiyamət günü belə bir günahkara rəhm edər, istəsə, onu ağrılı-acılı bir əzaba düçar edər.

Böyük və kiçik şirk arasında bir neçə fərq var, lakin onların arasında ən mühümləri aşağıdakılardır:

1. Böyük şirk yalnız tövbədən sonra Uca Allah tərəfindən bağışlanar, kiçik şirk isə tövbə etmədən Allah tərəfindən bağışlana bilər və Onun iradəsinə uyğun olaraq cəzalandırıla bilər.

2. Böyük şirk onu edənin bütün digər əməllərini puça çıxarır, kiçik şirk isə yalnız edənin etdiyi əməli batil edir.

3. Böyük şirk onu edəni kafir edir, onu dindən çıxarır, kiçik şirk isə onu İslamdan çıxarmaz.

4. Böyük şirk üzərində ölən şəxs əbədi olaraq Cəhənnəmə gedir və Cənnətə getmək imkanından məhrum olur, halbuki bu məsələdə kiçik şirk başqa günahlara bənzəyir.

Şirk necə yaranıb?

Şirkin əsası və bu rəzilliyin bəşər övladı arasında zühur etməsinin səbəbi, ehtiramlı saleh əcdadların hədsiz dərəcədə ucaldılması, övüllməsi və tərifləmələrində gizlənir. Uca Allah buyurur:

— Və (tabeçiliyində olanlara) **dedilər: "Öz tanrılarınızı tərk etməyin,** (xüsusilə) **Vəddi, Suvaı, Yəğusu, Yəuqu və Nəsri atmayın! Onlar çoxlarını yoldan çıxartdılar. Sən də** (ey Rəbbim!) **ancaq onların zəlalətini artır!"** "Nuh" surəsi, 23-24-cü ayələr.

Vədd, Suva', Yəqus, Yauq və Nəsr — Nuh qövmündə yaşamış salehlərin adlarıdır. Onlar öldükdən sonra insanlar onlara heykəllər düzəltmiş və onları bu adlarla çağırmışlar. Bunu, onlar öz saleh əcdadlarını ucaltmaq, xatirələrini əbədiləşdirmək, fəzilət və üstünlüklərini xatırlamaq üçün edirdilər.

Lakin sonradan, bu salehlərin bütləri, Uca Allahdan başqa tanrılar hesab edib, onlara ibadət etməyə başlamalarına gətirib çixardı. Nuh qövmünün sitayiş etdikləri bütlərin, sonralar ərəblər arasında da meydana çıxdığı bildirilir. Vədd bütünə Daumat əl-Cəndəl ərazi-

sində Kilab qəbiləsi, Suva bütünə isə Xuzeyl tayfası tərəfindən sitayiş olunurdu. Yaqus bütünə, əvvəlcə Murad tayfası, sonra isə Səba yaxınlığındakı Cauf qəsəbəsində, Bənu Qatif tayfası sitayiş edirdi. Yauk bütü, Həmdan qəbiləsi tərəfindən sitayiş olunurdu, Nəsr isə Himyarlılarla, Zül-Kil ailəsində idi. Nuh qövmünün saleh adamları bu bütlərin adını daşıyırdı. Onlar öləndə, şeytan onların qəbilə yoldaşlarına, tez-tez oturduqları yerlərdə bütlər ucaltmağa və bu bütləri onların adları ilə adlandırmağa ilham verdi. Onlar bunu etdilər, lakin o zaman heç kim onlara ibadət etmədi. Bu nəsil ölüb və elm yoxa çıxandan sonra, həmin bütlərə tapınmağa başladılar.

Həmçinin onların Adəm nəslindən saleh olduqları və onların ardıcıllarının da onlardan nümunə götürdüyü xəbər verilir. Onlar vəfat etdikdə onlardan nümunə götürən yoldaşları dedilər: "Əgər biz onların surətlərini yaratsaq, onların xatirəsi, bizdə Allaha ibadət etmək istəyini daha da artırar." Beləliklə, insanlar, salehlərin surətlərini yaratdılar; Bu nəsil ölüb, onların yerinə başqaları gələndə isə, İblis onları təhrik etməyə başladı: "Onlar (yəni sizin əcdadlarınız) onlara dua edirdilər və onların sayəsində yağış yağırdı." Beləliklə, insanlar onlara sitayiş etməyə başladılar."

Diqqət yetirin ki, onların hərəkətlərində iki yoldan çıxaran şey eyni anda birləşdi. Birincisi — onlar öz salehlərinin qəbirləri başına toplaşmağa başladılar; ikincisi — heykəllərini düzəltdilər, məclislərini keçirdikləri yerlərdə quraşdırdılar və onların yanında oturmağa başladılar.

Bu, bəşər tarixində ilk dəfə olaraq, Allaha şərik qoşmanın meydana çıxmasına səbəb oldu. Ona görə də, bu iki əməl hər zaman və hər bir diyarda, şirkin yaranmasına aparan ən böyük, ilkin şərtlər və ən təhlükəli yollardırlar.

Bəzi şirk növləri

Namaz kimi ibadət növündə, Allaha şərik qoşmaq. Namaz bir ibadət olduğu üçün, Allahdan başqasına dua ilə çağırmaq şirkdir. Nəticədə, Peyğəmbərə, mələyə, övliyaya, qəbrə, daşa və ya hər hansı bir məxluqa dua ilə müraciət edən şəxs müşrik və kafirdir.

Müqəddəs və Əzəmətli Allah buyurur:

— Kim Allahla yanaşı, haqqında özünün heç bir dəlili olmadığı başqa bir məbuda ibadət edərsə, onun cəzasını Rəbbi Özü verəcəkdir. Şübhəsiz ki, kafirlər nicat tapmazlar! "Muminun (Möminlər)" surəsi, 117-ci ayə.

Həmçinin Uca Allah buyurur:

— Onlar gəmiyə mindikləri zaman, dini yalnız Allaha məxsus edərək, Ona yalvarırlar. Allah onları xilas edib quruya çıxaran kimi, yenə də Ona şərik qoşurlar. "Ənkəbut (Hörümçək)" surəsi, 65-ci ayə.

Niyyət kimi bir ibadət növündə, Allaha şərik qoşmaq.

Bu, Allahın rizasını qazanmaq və Onun cənnətinə layiq olmaq üçün səy göstərmədən, amma yalnız bəzi dünyəvi məqsədlərə çatmaq, yaxud özünü göstərmək və ya izzət qazanmaq üçün saleh əməllər edən insanların hərəkətləridir. Belə insanlar Uca Allahın bildirdiyi böyük şirki edirlər, onlar haqqında Uca Allah buyurur:

— Kim (axirətdən vaz keçib) **dünyanı və onun bərbəzəyini istəyirsə, Biz ona əməllərinin əvəzini** (sağlamlıq, sərvət, övlad, gözəl yaşayış) **elə orada** (dünyada) **verərik. Onların dünyadakı mükafatları əsla azaldılmaz.** (Dünyada yaxşı işlər görüb etiqadı olmayan şəxsə axirətdə dünyəvi əməlləri heç bir fayda verməz. Çünki Allah ona dünyadakı yaxşı əməllərinin əvəzini elə dünyanın özündə verər)**. Belələrinin axirətdə atəşdən** (cəhənnəm odundan) **başqa heç bir payı yoxdur. Onların dünyada gördükləri işlər puç olar və bütün əməlləri boşa çıxar!** "Hud" surəsi, 15-16-cı ayələr.

Bu cür şirk gizlidir, lakin çox təhlükəlidir.

İtaətdə Allaha şərik qoşmaq. Allahın qadağan, haram buyurduqlarına icazə verən və ya halal buyurduqlarına qadağa qoyan məxluqlara, itaət edən şəxs, onların halal və haram deməyə haqqı olduğunu və insanların bu işdə onlara itaət edə bildiklərini hesab edən şəxs, Allahın şəriətinə zidd olduğunu bilə-bilə edərsə, o zaman o Allahdan başqa ilahlar tutmuş olar və böyük şirk edər.

Uca Allah bu haqqda buyurur:

— Onlar Allahı qoyub baş keşişlərini və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər. Halbuki onlara ancaq tək olan İlaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa tanrı yoxdur. O, bunların şərik qoşduqları şeylərdən uzaqdır. "Tovbə (Tövbə)" surəsi, 129-cu ayə.

Mənası, heç bir ziddiyyətə səbəb olmayan bu ayə, dua ilə ilahiyyatçılara və ya din xadimlərinə müraciət etməyi nəzərdə tutmur, onların Allaha asi olmağa, yəni Allahın qanununu dəyişdirməyə çağırışında onlara itaət etməyi nəzərdə tutur. Peyğəmbər ﷺ səhabə Ədi bin Hatimə bu ayəni belə izah etdi, o zaman o Ondan soruşdu: *"Axı biz onlara ibadət etmirik!"* Allah Rəsulu ﷺ ona izah etdi ki, günah işlətməyi və Allahın qanununu dəyişdirməyi əmr etdikdə onlara itaət etmək onlara ibadətdir. O, Ədi bin Hatimdən soruşdu: ***"Məgər onlar Allahın icazə verdiyini haram saymırlarmı, siz də onu haram hesab edirsiz, əgər onlar Allahın haram buyurduğuna icazə verirlərsə, siz də özünüzə icazə verirsiz?"*** Ədi bin Hatim, Allah ondan razı olsun, cavab verdi: *"Bəli, bu belədir."* O zaman Peyğəmbər ﷺ dedi: ***"Bu, onlara ibadətdir."*** ət-Tirmizi "Sünən" (3095), onu yaxşı adlandırdı, ət-Təbərani "əl-Mucəm əl-Kəbir" (17/92).

Sevgidə Allaha şərik qoşmaq. Burada sevgi ibadəti nəzərdə tutulur ki, bu da sevgi obyektini ucaltmaq, ehtiram göstərmək, eləcə də onun qarşısında zillət və itaətkarlıq deməkdir. Belə bir sevgi ilə yalnız şəriki olmayan Allahı sevmək olar. Və əgər qul belə bir sev-

gini Allahdan başqasına yönəldərsə, böyük şirk etmiş olar. Bunun dəlili Uca Allahın kəlamıdır:

— İnsanların içərisində Allahdan qeyrilərini (Allaha) **şərik qoşub, onları Allahı sevən kimi sevənlər də vardır. Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir. Əgər** (özlərinə) **zülm edənlərin vaxtında görəcəkləri əzabdan xəbərləri olsaydı, onlar bütün** (qüvvət və) **qüdrətin Allaha məxsus olduğunu və Allahın əzabının şiddətli olacağını bilərdilər.** "Bəqərə (İnək)" surəsi, 165-ci ayə.

İmansızlıq (Küfr) nədir?

Ərəb dilində *"Küfür"* sözü lüğətdə "örtmək", "gizləmək" kimi mənaları ifadə edir. Bu sözün şəriət mənası imanın tam əksini nəzərdə tutur, Allaha və Onun Elçisinə küfr deməkdir. Kafir o kəs olur ki, kim həqiqətən haqqı yalan hesab edir və ya bunu tam etməsə də, amma haqqa şübhə edir və ya paxıllıqdan ondan üz döndərir, qüruruna və ya nəfsinə uyub, Quran və Sünnəyə əməl etmir.

Küfrün hansı növləri var?

Küfr də, şirk kimi böyük və kiçiyə bölünür. Böyük küfr insanı cəhənnəmdə əbədi qalmağa məhkum edər, ama kiçik küfr üçün insan cəzaya layiqdir, lakin əbədi əzaba layiq deyil.

Böyük küfr beş cür olur:

Birinci növ — *(küfr ət-təkzib)* imansızlıqdır, insan həqiqəti yalan hesab edir. Bu cür küfr, Allahın peyğəmbərlərinin və elçilərinin yalançı olduqlarına etiqad etməkdir. Onları sözdə və ya qəlbdə yalançı hesab edən şəxs isə kafirdir. Bunun dəlili Uca Allahın kəlamıdır:

— Allaha qarşı yalan uyduran və yaxud özünə haqq gəldikdə onu yalan sayan kəsdən daha zalım kim ola bilər? Cəhənnəmdə kafirlər üçün yermi yoxdur? "Ənkəbut (Hörümçək)" surəsi, 68-ci ayə.

Böyük küfrün ikinci növü — *(küfr əl-ibə vəl-isti-kbər)* haqqı inkar və təkəbbürlük etmək səbəbiylə küfrdür. Belə bir şəxs Peyğəmbərin ﷺ doğruluğundan xəbərdardır, haqqı Allahdan gətirdiyini bilir, lakin təkəbbür və inadkarlıq üzündən onun əmrlərinə tabe olmur, əmrlərinə əməl etmir.

Uca Allah buyurur:

— Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!" — dedikdə, İblisdən başqa hamısı səcdə etdi O imtina edib təkəbbür göstərdi və kafir oldu. "Bəqərə (İnək)" surəsi, 34-cü ayə.

Böyük küfrün üçüncü növü — *(küfr əş-şəkk)* şübhə üzündən küfrdür. Bu, insanın tərəddüd etdiyi və elçilərin doğruluğuna inamı olmadığı zamandır. Küfrün bu forması zənndə olmaq adlanır, çünki zənn və şübhə yəqinlik və əminliyin əksidir. Bunun sübütu kimi olan dəlil Uca Allahın kəlamıdır:

— O özünə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm. O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!" Onunla söhbət edən yoldaşı isə dedi: "Səni torpaqdan, sonra nütfədən yaratmış, daha sonra səni kişi qiyafəsinə salmış Rəbbini inkarmı edirsən? Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram! Bağına girdiyin zaman: "Maşallah (Allahın istədiyidir)**! Qüvvət yalnız Allaha məxsusdur!"– deməli deyildinmi? Əgər var-dövlətcə və övladca məni özündən kasıb sayırsansa, ola bilsin ki, Rəbbim mənə sənin bağından daha yaxşısını versin, sənin bağına isə göydən bir bəla göndərsin və o, hamar bir yerə dönsün.** "Kəhf (Mağara)" surəsi, 35 və 38-ci ayələr.

Dördüncü növ — *(küfrül-i'rad)* haqqa nifrət etməklə edilən küfrdür. Burada nifrət, İslamdan tamamilə dönmək, yəni Rəsulullahın ﷺ gətirdiklərindən qulağı, qəlbi və elmi ilə döndərilmək deməkdir. Bunun dəlili Uca Allahın bu kəlamıdır:

— …Kafirlər isə xəbərdar edildikləri şeylərdən üz döndərdilər… "Əhqaf (Qumsal təpələr)" surəsi, 35-ci ayə.

Böyük küfrün beşinci növü — *(küfrün-nifak)* riyakarlıq (ikiüzlülük) göstərməklə edilən küfrdür. Bu, insanın öz əqidəsində münafiq olması, yəni küfrünü gizlətməsi və özünü mömin kimi göstərməsidir. Buna Uca Allahın bu kəlamı dəlildir:

— Bunun səbəbi odur ki, onlar (dildə) **iman gətirdilər, sonra isə** (ürəklərində gizli) **kafir oldular. Buna görə də onların ürəklərinə möhür vurulmuş, özləri isə anlamaz kimsələr olmuşlar.** "Münafiqun (Münafiqlər)" surəsi, 3-cü ayə.

Kiçik küfr elə bir küfrdür ki, insanı kafir etmir, amma onu şiddətli əzaba məhkum edir, lakin əbədi cəhənnəm əzabına yox. Kiçik küfr nemətə qarşı edilən nankorluqdur və Quran və Sünnə mətnlərində küfr deyilən, lakin böyük küfr dərəcəsinə çatmayan bütün əməlləri ehtiva edir. Aşağıda kiçik küfrün bəzi nümunələrini göstərəcəyik.

Peyğəmbər ﷺ demişdir: ***"İnsanlarda iki xislət vardır ki, bunların onlarda olması küfrdür: əsil-nəcabətə tənə vurmaq və ölülərin üzərində vay-şivən salıb ağlamaq."*** Muslim "Səhih", 67.

O, ﷺ həmçinin demişdir: ***"Məndən sonra bir-birinizin boynunu vuraraq kafir olmayın."*** əl-Buxari "Səhih" 121, Muslim "Səhih" 65.

Bu və digər misallar insanı İslamdan çıxarmayan kiçik küfrdən bəhs edir.

İki növ nifaq (münafiqlik, ikiüzlülük)

Böyük münafiqlik

Bu, etiqadı nifaq, başqa sözlə İslama bağlılığı göstərmək və küfrü gizlətməkdir. Belə bir günaha düçar olanlar cəhənnəmin lap dibində, Uca Allah buyurduğu kimi, digər kafirlərdən daha aşağı olacaqlar:

— (Ya Rəsulum!) **Əlbəttə, münafiqlərin yeri Cəhənnəmin ən aşağı təbəqəsindədir. Sən heç vaxt onlara yardım edən tapmazsan!** "Nisa (Qadınlar)" surəsi,145-ci ayə.

Kiçik münafiqlik

Buna "əməli nifaq" da deyirlər, bu da onun təzahürlərinin müxtəlifolduğunu bildirir. Belə ki, məsələn, Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: ***"Münafiq üç əlamətlə fərqlənir: ona əmanət verildiyi ʁaman xəyanət edər, danışdığı ʁaman yalan danışar, əhd bağladığı ʁaman əhdini poʁar."*** Bu hədisi Buxari və Muslim Əbu Hüreyrənin (Allah ondan razı olsun) sözlərindən nəql etmişdir. Həmçinin rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurub: ***"Dörd xislət var ki, bunlar kimdə olarsa, əsil münafiq sayılar və hər kimdə bunlardan biri olarsa, onu tərk edincəyə qədər öʁündə münafiqlik xisləti daşımış olar: ona əmanət verildiyi ʁaman xəyanət edər, danışdığı ʁaman yalan danışar, əhd bağladığı ʁaman əhdini poʁar və mübahisə etdiyi ʁaman haqsıʁlıq edər."***

Bu hədisi əl-Buxari və Muslim Abdullah ibn Amrın sözlərindən nəql etmişdir.

MƏLƏKLƏRƏ İMAN

Belə bir iman, Allahın nurdan yaratdığı mələklərin olduğuna, Onun onlara müəyyən vəzifələr təyin etdiyinə, (hansıki onlar daima öz vəzifələrini yerinə yetirməklə məşğuldurlar), həmçinin onlara Allahın əmrlərinə tam itaət etmək qabiliyyətini bəxş etdiyinə, və onlara verilən əmirlərin həyata keçirilməsi üçün lazım olan gücün verilməsinə, möhkəm iman etməyi bildirir.

Onlara iman, ümumi olaraq imanı və həmçinin də müəyyən hallara, xüsusiyyətlərə imanı ehtiva edir.

Müəyyən hallara, xüsusiyyətlərə iman məsələsinə gəlincə, burda Allahın və Onun Rəsulunun adlarını çəkdiyi mələklərə imanla yanaşı, onların sifətləri və əməlləri ilə bağlı xəbərlərin doğruluğuna iman nəzərdə tutulur.

Muslim öz "Səhih"ində həmçinin İmam Əhməd öz "Musnad"ında, Aişədən (Allah ondan razı olsun) rəvayət edirlər ki, Peyğəmbər ﷺ dedi: ***"Mələklər nurdan yaradılmışdırlar, Cinlər — tüstüsüz alovdan, Adəm isə — sizə bildiriləndən (gildən)."***

Mələklərə xas olan sifətlərdən biri də qanadlardır.

Uca Allah buyurur:

— Göyləri və yeri yoxdan yaradan, ikiqanadlı, üçqanadlı və dördqanadlı mələkləri (peyğəmbərlərə) **elçi edən Allaha həmd olsun!** (Allah) **məxluqatda istədiyini artırar. Həqiqətən, Allah hər şeyə qadirdir!** "Fatir (Yaradan)" surəsi, 1-ci ayə.

Rəsulullaha ﷺ gəlincə o, Cəbraili (əleyhissələm) Allahın onu yaratdığı surətdə gördüyünü və onun altı yüz qanadı olduğunu söyləmişdir.

Uca Allahın əmri ilə mələk, insan şəklini ala bilər, çünki Cəbrail (əleyhissələm) Məryəmin qarşısına, xoş görünüşlü bir insan surətində gəlmişdir. Rəsulullaha ﷺ, gəlincə isə, onun qarşısına göz qamaşdıran ağ paltarlı, saçları göyümtül-qara olan bir adam şəklində gəlmişdir. Allahın, İbrahimə və Luta (aleyhimussələm) göndərdiyi mələklər də insan surətini almışdılar.

Uca Allah onların tam itaətkarlıqla və təslimiyyətlə ibadətləri haqqında belə buyurmuşdur:

— **Rəbbinin yanında olanlar** (Allaha yaxın olan mələklər) **Ona ibadət etməyi özlərinə ar bilməzlər. Onu pak, müqəddəs tutub şəninə təriflər deyər və ancaq Ona səcdəyə qapanarlar!** "Əraf (Sədd)" surəsi, 206-cı ayə.

Uca Allah həmçinin buyurur:

— **Ona ibadət etməyə təkəbbür göstərməz və** (bu ibadətdən) **yorulmaq bilməzlər. Onlar gecə-gündüz, yorulub-usanmadan** (Rəbbini) **təqdis edib şəninə təriflər deyərlər.** "Ənbiyə (Nəbilər)" surəsi, 19 və 20-ci ayələr.

Uca Allah həmçinin buyurur:

— (Kafirlər:) **"Rəhman** (mələklərdən Özünə) **övlad götürdü!" — dedilər. O, pakdır, müqəddəsdir!** (Belə şeylərdən tamamilə uzaqdır!) **Xeyr,** (mələklər Onun övladı deyil, xəlq etdiyi) **möhtərəm qullardır.** (Mələklər) **Ondan qabaq söz danışmaz, Yalnız Onun əmri ilə iş görərlər.** (Allah) **onların önlərindəkilərini də, arxalarındakını da (nə etdiklərini və nə edəcəklərini) bilir. Onlar yalnız** (Allahın) **razı olduğu** (izin verdiyi) **kəslərdən ötrü şəfaət edə bilər və Onun heybətindən qorxarlar.** "Ənbiyə (Nəbilər)" surəsi, 26-28-ci ayələr.

Uca Allah həmçinin buyurur:

— …Allahın onlara verdiyi əmrlərə (heç vaxt) **asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və güclü mələklər vardır.** "Təhrim (Qadağan)" surəsi, 6-cı ayə.

Quranın müxtəlif ayələrində, həmçinin hədislərdə, Mələklərin adları, onların növləri və onlara tapşırılmış işlər haqqında məlumatlar vardır.

Hədislərdə, misal üçün, Cəbrailə tapşırılmışdır ki, o Peyğəmbərlərə Allahın vəhylərini çatdırsın.

Uca Allah həmçinin buyurur:

— De: "Cəbrailə düşmən olan kəs (bilsin ki,) **Allahın izni ilə (Quranı) özündən əvvəlkiləri təsdiqləyən, möminlərə doğru yol göstərən və müjdə verən** (bir kitab) **kimi sənin qəlbinə o nazil etmişdir."** "Bəqərə (İnək)" surəsi, 97-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Heç şübhəsiz, bunu (Quranı) **aləmlərin Rəbbi nazil etmişdir. Onu Ruhül-əmin** (Cəbrail) **endirdi. Sənin qəlbinə endirdi ki, xəbərdar edənlərdən olasan.** "əş-Şuəra" surəsi, 192-194-cü ayələr.

Bəzi hədislərdə işarələr var ki, Mikailə yağışlara və bitkilərin böyüməsinə nəzarət etmək, İsrafilə isə Qiyamət günü sura üfürmək tapşırılıb. Rəsulullah ﷺ gecə namazından əvvəl bir duanın sözlərini deyərkən bu üç mələyin adını çəkdi: ***"Ey Cəbrailin, Mikailin və İsrafilin Rəbbi! Ey göyləri və yeri yaradan! Gizlini və aşkarı, hər şeyi Bilən, qulların bir-birindən ixtilaf etdikləri şeylərdə həqiqi hökmü verən Sənsən. Allahım! Məni daima hidayətə yönəlt. Sən dilədiyinə doğru yolu göstərənsən."*** Bu hədisi Muslim rəvayət etmişdir.

Quranda cəhənnəm mühafizəçisi olan Malik adlı mələkdən bəhs edilir.

Uca Allah buyurur:

— Onlar (Cəhənnəm gözətçisini) **çağırıb deyəcəklər: "Ey Malik! Qoy Rəbbin canımızı alıb qurtarsın!" O isə: "Siz** (burada) **əbədi qalacaqsınız!" — deyəcək.** "Zuxruf (Zi'nət)" surəsi, 77-ci ayə.

Mələklərin növləri haqqında

1. Onların arasında elələri var ki, Allahın Ərşini daşıyacaqlar.

Uca Allah buyurur:

— Ərşi daşıyanlar və onun ətrafındakılar öz Rəbbinə həmd edərək onu tərifləyir, Ona iman gətirir və möminlər üçün də bağışlanma diləyirlər: "Ey Rəbbimiz! Sən mərhəmətin və elminlə hər şeyi əhatə edirsən. Tövbə edib Sənin yolunla gedənləri bağışla, onları Cəhənnəm əzabından xilas et!" "Ğafir (Bağışlayan)" surəsi, 7-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Mələklər isə onun ətrafında olacaqlar. O gün sənin Rəbbinin Ərşini səkkiz (mələk) **daşıyacaqdır.** "Haqqə (Haqq olan)" surəsi, 17-ci ayə.

2. Onların arasında insanları qorumaq vəzifəsi həvalə edilmiş qoruyucular da vardır.

Uca Allah buyurur:

— Onun (insanın) önündə və arxasında Allahın əmri ilə onu təqib edib qoruyan mələklər vardır. "Rad (Göy gurultusu)" surəsi, 11-ci ayə.

3. Onların arasında insanların əməllərini yazmaq vəzifəsi daşıyan katiblər də var.

Uca Allah buyurur:

— Həqiqətən, sizə nəzarət edən mələklər vardır, Əməllərinizi yazan möhtərəm (mələklər)**! Onlar sizin etdiklərinizi bilirlər.** "İnfitar (Parçalanma)" surəsi, 10 və 12-ci ayələr.

Uca Allah həmçinin buyurur:

— Sağında və solunda iki (mələk) **oturub** (onun əməllərini qeydə alır.) **Dediyi elə bir söz yoxdur ki,** (onu yazmaq üçün) **yanında hazır durmuş gözətçi olmasın.** "Qaf" surəsi, 17 və 18-ci ayələr.

Burada hər bir insanın sağında və solunda olan iki mələk nəzərdə tutulur. Sağdakı yaxşı əməlləri, soldakı isə pis əməlləri yazır.

4. Ana bətnində olan döllərə görünmək üçün təyin olunmuş mələklər.

Bu haqqda, İbn Məsuddan (Allah ondan razı olsun) rəvayət edilən bir hədisdə deyilir: "Doğru danışan və etibara layiq olan Rəsulullah ﷺ bizə xəbər verdi ki, ***"Sizlərdən hər kəs ana bətnində formalaşır (xəlq edilir), orada ilk qırx gün nütfə halında qalır, növbəti qırx gün ərzində qan laxtası şəklində, daha sonrakı qırx gündə isə ət parçası şəklində qalır, bundan sonra Allah bir mələk göndərir, hansı ki, ruh üfürür və (bu mələyə) dörd şeyi: (bu uşağın) əməlini, ruzisini, əcəlini, həmçinin xoşbəxt və ya bədbəxt olacağını yazmaq əmr edilir."*** Bu hədisi Buxari nəql etmişdir.

5. İnsanın ölüm anında onun ruhunu almaq, qəbul etmək üçün vəzifələnmiş mələklər.

Söhbət ölüm mələyi və onun köməkçilərindən gedir. Uca Allah buyurur:

— De: "Sizin üçün təyin edilən ölüm mələyi canınızı alacaq, sonra siz Rəbbinizə qaytarılacaqsınız. "Səcdə" surəsi, 11-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Nəhayət, birinizin ölümü çatdığı zaman mələklərimiz onun canını alar. Onlar (öz işlərində) **heç bir nöqsana yol verməzlər.** "Ənam (Mal-qara)" surəsi, 61-ci ayə.

Bunlardan əlavə, mələklərin başqa növləri də mövcuddurlar.

MÜQƏDDƏS YAZILARA İMAN

Söhbət Uca Allahın, Öz elçilərinə (aleyhimussələm) nazil etdiyi, həqiqət sözləri ilə ehtiva edilən, dolu olan və insanlar üçün hidayət bələdçisi olan kitablardan gedir.

Biz Quranda qeyd olunan o Müqəddəs kitablara inanırıq.

Onlar bunlardırlar:

• Peyğəmbərimiz Muhəmmədə ﷺ nazil olan Əzəmətli Quran *(əl-Quran)*.

• Musaya (aleyhissələm) nazil olan Tövrat *(ət-Tövrat)*.

Uca Allah buyurur:

— Şübhəsiz ki, içində haqq yol və nur olan Tövratı Biz nazil etdik. "Maidə (Süfrə)" surəsi, 44-cü ayə.

• İsaya (aleyhissələm) nazil olan İncil *(əl-İncil)*.

Uca Allah buyurur:

— Onların ardınca, özündən əvvəlki Tövratı təsdiqləyən Məryəm oğlu İsanı göndərdik. Ona, müttəqilər üçün doğru yol və nəsihət olaraq özündən əvvəlki Tövratı təsdiqləyən və içində haqq yol və nur olan İncili verdik. "Maidə (Süfrə)" surəsi, 46-cı ayə.

• Davuda (aleyhissələm) verilmiş Zəbur *(əz-Zəbur)*.

Uca Allah buyurur:

— Davuda da Zəburu verdik. "İsra (Gecə səyahəti)" surəsi, 55-ci ayə.

• Allahın İbrahimə və Musaya (aleyhissələm) nazil etdiyi səhifələr *(əs-Suhuf)*.

Uca Allah buyurur:

— Yoxsa Musanın səhifələrində olanlar ona xəbər verilmədimi?! Bəs əhdə vəfalı olan İbrahimin (səhifələrində olanlar ona xəbər verilmədimi)**?!** "Nəcm" surəsi, 36-37-ci ayələr.

Uca Allah həmçinin buyurur:

— Həqiqətən, bunlar əvvəlki kitablarda da mövcuddur İbrahimin və Musanın səhifələrində. "Əla" surəsi, 18 və 19-cu ayələr.

Bundan əlavə olaraq, biz inanırıq ki, Uca Allah öz elçilərinə (aleyhimussələm) başqa yazılar (kitablar) nazil edib, endirib.

Qurana iman etməyə gəlincə isə, başqa kitablara iman etmək ilə Onun arasında fərq budur ki, Ona riayət etmək lazımdır və Allah Ona elə xüsusiyyətlər verib ki, hansı ki, əvvəlki yazılar (kitablar) bu cür xüsusiyyətlər ilə seçilməyiblər.

ELÇİLƏRƏ İMAN

Belə bir iman, Allahu Təalənın, hər bir ümmətə, yalnız şəriki olmayan Allaha ibadət etməyə çağıran, bir elçi göndərdiyinə, qəti əminlik deməkdir.

Uca Allah buyurur:

— Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun" — deyə, elçi göndərdik. Onlardan kimisini Allah doğru yola yönəltmiş, kimisinə də azmaq nəsib etmişdir. Yer üzündə gəzib dolaşın və görün haqqı yalan sayanların aqibəti necə oldu! "Nəhl (Bal arısı)" surəsi, 36-cı ayə.

Uca Allah həmçinin buyurur:

— …Həqiqətən, Biz səni haqla müjdə verən və qorxudub xəbərdar edən olaraq göndərdik. Elə bir ümmət yoxdur ki, ona xəbərdar edən bir peyğəmbər gəlmiş olmasın. "Fatir (Yaradan)" surəsi, 24-cü ayə.

Allah Öz Kitabında adlarını çəkdiyi hər kəsə iman gətirməliyik. Onların sayı iyirmi beşdir: Adəm, Nuh, İdris, Hud, Saleh, İbrahim, İsmayıl, İshaq, Yəqub, Yusif, Lut, Şüeyb, Yunus, Musa, Harun, İlyas, Zəkəriyya, Yəhya, əl-Yəsa, Zül-Kifl, Davud, Süleyman, Əyyub, İsa və Muhəmməd, onların hamısına salavat və salam olsun.

Biz onlardan başqa elçilərin də olduğuna inanırıq, və Allahu Təalə bu haqda belə buyurur:

— Daha öncə bir qisim elçilər barəsində sənə söylədik, digər elçilər barəsində isə sənə heç nə söyləmədik… "Nisa (Qadınlar)" surəsi, 164-cü ayə.

Uca Allah həmçinin buyurur:

— Biz səndən əvvəl də elçilər göndərmişdik. Onlardan bəziləri haqqında sənə danışmış, bəziləri haqqında isə danışmamışıq… "Ğafir (Bağışlayan)" surəsi, 78-ci ayə.

Biz həmçinin inanırıq ki, onların hamısı dindar, dürüst, doğru danışan, və təqvalı (Allahdan lazım olduğu kimi qorxan) olublar və Allahın onlara göndərdiyi hər şeyi, Onun əmr etdiyi kimi insanlara çatdırdıqlarına və tam şəkildə izah etdiklərinə inanırıq.

Uca Allah buyurur:

— …Məgər elçilərin vəzifəsi ancaq aydın təbliğat aparmaq deyilmi? "Nəhl (Bal arısı)" surəsi, 35-ci ayə.

Uca Allah həmçinin buyurur:

— …Peyğəmbərin öhdəsinə düşən isə ancaq açıq-aşkar təbliğat aparmaqdır. "Nur (Nur)" surəsi, 54-cü ayə.

Elçilərin hər birinə iman etmək, digər bütün peyğəmbərlərə ayrılmaz imanla bağlıdır və buna görə də hər kim onlardan hətta birinə iman gətirməzsə, deməli bütün digər elçilərə və beləcə Allahu Təaləya da iman gətirmir.

Uca Allah buyurur:

— Deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!" Əgər onlar da siz iman gətirdiyinizə iman gətirsələr, doğru yola yönəlmiş olarlar. Yox, əgər üz döndərsələr, mütləq ixtilafa düşmüş olarlar. Onlardan qorunmaq üçün Allah sənə kifayət edər. O, Eşidəndir, Biləndir! "Bəqərə (Inək)" surəsi, 136-137-ci ayələr.

Uca Allah həmçinin buyurur:

— Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də iman gətirdilər. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər. Onlar dedilər: "Biz Onun elçiləri arasında fərq qoymuruq! "Bəqərə (Inək)" surəsi, 285-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Allahı və Onun elçilərini inkar edənlər, Allahı Onun elçilərindən ayırmaq istəyib: "Biz o elçilərin bəzisinə inanır, bəzilərinə isə inanmırıq!"– deyənlər və bunun arasında bir yol tutmaq istəyənlər — məhz onlar əsl kafirlərdir. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq. "Nisə" surəsi, 150-151-ci ayələr.

Muhəmmədə ﷺ iman gətirməyə gəlincə, biz onun özü ilə gətirdiyi hər şeyə tam və bütünlüklə iman gətirməli və ona möhkəm əməl etməliyik.

Möhkəm iradə sahibləri (Ulul-azm)

Bu cür, bu adla, Nuhu, İbrahimi, Musanı, İsanı və Muhəmmədi, (onların hamısına salavat və salam olsun) adlandırırlar.

Allahu Təalə bu elçilər haqqında belə buyurmuşdur:

— Bir zaman Biz peyğəmbərlərdən əhd almışıq; səndən də, Nuhdan da, İbrahimdən də, Musadan da, Məryəm oğlu İsadan da! Biz onlardan möhkəm bir əhd almışıq. "Əhzab (Müttəfiqlər)" surəsi, 7-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Allah Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın! "Şura (Şura)" surəsi, 13-cü ayə.

Muhəmməd peyğəmbərimizin ﷺ risalətinin ümmubəşərliyi

Peyğəmbərimiz Muhəmməd ﷺ bütün cinlərə və insanlara göndərilmişdir. Onun bütün cinlərə göndərilməsi, Uca Allahın bu sözü ilə təsdiqlənir:

— Bir zaman bir dəstə cini Quranı dinləmək üçün sənin yanına yolladıq. Onlar onu dinləməyə gəldikdə bir-birinə: "Susun, qulaq asaq!"– dedilər. Quran oxunub qurtardıqdan sonra isə xəbərdar etmək məqsədilə öz tayfalarının yanına qayıtdılar. Onlar dedilər: "Ey qövmümüz! Biz, həqiqətən də, Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri təsdiqləyən, haqqa və düz yola yönəldən bir Kitab dinlədik! Ey qövmümüz! Allahın təbliğatçısını qəbul edin və ona iman gətirin ki, Allah günahlarınızı bağışlasın və sizi ağrılı-acılı əzabdan qurtarsın! "Əhqaf (Qumsal təpələr)" surəsi, 29-31-ci ayələr.

Uca Allah həmçinin buyurur:

— De: "Mənə vəhy olundu ki, cinlərdən bir dəstə Quranı dinlədikdən sonra öz tayfalarına qayıdıb dedilər: "Həqiqətən, biz heyrətamiz bir Quran dinlədik! O, doğru yola yönəldir. Biz ona inandıq və bundan sonra əsla kimsəni Rəbbimizə şərik qoşmayacağıq. "Cinn (Cinlər)" surəsi, 1-2-ci ayələr.

Cinlərin onun yanına gəldiyinə dair, onlarla danışdığına və onlara Quran oxuduğuna dair dəlillər var. Onun bütün insanlara göndərilməsinə gəlincə, buna bir çox Quran ayələri və hədislər dəlalət edir.

Uca Allah buyurur:

— Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən bir peyğəmbər kimi göndərdik. "Səba" surəsi, 54-cü ayə.

Uca Allah həmçinin buyurur:

— De: "Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm." "Əraf (Sədd)" surəsi, 158-ci ayə.

Uca Allah həmçinin buyurur:

— De: "Bu Quran mənə vəhy olundu ki, onunla sizi və onun çatacağı hər kəsi xəbərdar edim." "Ənam (Mal-qara)" surəsi, 19-cu ayə.

Uca Allah həmçinin buyurur:

— …Biz səni insanlara elçi göndərdik. Şahid olaraq Allah kifayət edər. "Nisa (Qadınlar)" surəsi, 79-cu ayə.

Uca Allah həmçinin buyurur:

— Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı (Quranı) **nazil edən Allah necə də xeyirxahdır!** "Furqan (Haqqı Batildən ayıran)" surəsi, 1-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik. "Ənbiya (Peyğəmbərlər) surəsi, 107-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Əgər onlar səninlə mübahisə edərlərsə, de: "Mən özümü ardımca gələnlərlə birlikdə Allaha təslim etmişəm!" Kitab verilənlərə və savadsızlara isə de: "Siz də təslim oldunuzmu?" Əgər təslim olsalar, doğru yola yönəlmiş olarlar. Üz döndərsələr, bil ki, sənin öhdənə düşən ancaq haqqı təbliğ etməkdir… "Ali İmran (İmranın ailəsi)" surəsi, 20-ci ayə.

Cabir ibn Abdullah (Allah ondan razı olsun) rəvayət etmişdir ki, Peyğəmbər ﷺ dedi: ***"Beş şey mənə əta edilmişdir ki, məndən əvvəlki peyğəmbərlərin heç birinə verilməmişdir: Əvəllər hər bir elçi müəyyən bir ümmət, millət üçün göndərilirdi, mən isə bütün aləmlər üçün, ağlar və qaralar üçün göndərilmişəm; (Döyüş) qə-***

nimətlər mənim üçün halal hesab olunmuşdur, halbuki, məndən əvvəl heç kəsə halal deyildi; Bütün torpaq mənim üçün pak və səcdəgah qərar verilmişdir, ona görə də insan ibadət vaxtı gəldikdə istənilən yerdə namaz qıla bilər; Mən, qorxu ilə yardım edilmişəm (məndən bir aylıq uzaq məsafədə olan düşmənlərin qəlbinə qorxu salınaraq); Və sonuncu, mənə Allah tərəfindən şəfaətçilik etmək icazəsi verilmişdir." Bu hədis Muslimin və Buxarinin kitablarında qeyd olumuşdur.

Əbu Hüreyrə (Allah ondan razı olsun) rəvayət edir ki, Rəsulullah ﷺ dedi: ***"Muhəmmədin canı əlində Olana and olsun ki, bu ümmətdən hər hansı bir yəhudi və ya xaçpərəst mənim haqqımda eşidib, mənimlə göndərilənə iman gətirmədən vəfat etsə, o mütləq Cəhənnəmə düşəcək!"***

Bu hədisi Muslim nəql etmişdir.

Məlumdur ki, Allah Rəsulu ﷺ müxtəlif ölkələrə məktub göndərmişdi, onları Fars padşahına, Roma imperatoruna, Misir kralına, Efiopiya imperatoruna və digər hökmdarlara göndərmişdi ki, onları İslama dəvət etsin. O ki, qaldı yəhudi və xaçpərəstlərə, hansılar ki, Muhəmmədin ﷺ risalətinin həqiqət olduğunu qəbul edirdilər, amma dedilər ki: "O, ərəblərə göndərilmiş bir elçidir", onların bu sözləri əsassız idi, çünki əgər kimsə bu xəbərin doğruluğunu tanıyırsa, mütləq onu tam şəkildə tanımalıdır, çünki Allah Rəsulu ﷺ onun bütün insanlara göndərildiyini söyləmişdi. Muhəmmədin ﷺ risalətini batil, yalan sayanlar da var idi, halbuki onun peyğəmbərliyinin həqiqət olmasının əlamətləri onlar üçün aşkar idi və belə əlamətlər çox idi.

Muhəmməd ﷺ — sonuncu peyğəmbərdir

Elçimiz Muhəmməd ﷺ sonuncu peyğəmbərdir, Uca Allah buyurur:

— Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Rəsulu və peyğəmbərlərin sonuncusudur… "Əhzab (Müttəfiqlər)" surəsi, 40-cı ayə.

Bu ayənin mənası Muhəmmədin ﷺ son peyğəmbər olduğuna işarədir, və ondan sonra daha peyğəmbər olmayacaq.

Alimlər, peyğəmbərlər ilə elçilərin fərqi barədə ixtilaf etdilər. Onlardan bəziləri deyirlər: "Onlar arasında heç bir fərq yoxdur və buna görə də hər peyğəmbər bir elçidir və hər bir elçi bir peyğəmbərdir." Digərləri isə peyğəmbərlə elçi arasında fərq olduğunu söyləyərək, elçinin missiyasının peyğəmbərin missiyasından daha vacib olması rəyinə gəliblər, və buda o deməkdir ki, Muhəmməddən ﷺ sonra peyğəmbərlər yoxdursa, sözsüz ki, elçilər də olmayacaqdır.

Bir çox hədislər buna işarə edir. Beləliklə, misal üçün hər iki "Səhih"də Əbu Hüreyrənin (Allah ondan razı olsun) sözlərindən nəql olunan bir hədis var ki, Rəsulullahın ﷺ belə dediyini rəvayət edir: ***"Məndən əvvəl yaşayan peyğəmbərlər arasında mənim hansı yeri tutduğumu izah etmək üçün, belə bir rəvayət haqqında danışa bilərsiniz ki, bir insan, gözəl bir ev tikir və təməl (güşə) daşını qoymadığından başqa hər şeyi edir, bundan sonra insanlar o evin ətrafında gəzməyə başladılar, və təəccüblə ona deyirlər: "Bu daşı bura niyə qoymadın?" Mən də o daş kimi oldum, necə ki sonuncu peyğəmbər olduğum kimi."***

Hər iki "Səhih"də Cübeyr ibn Mutimin (Allah ondan razı olsun) sözlərindən nəql olunan başqa bir hədis də var ki, o, Rəsululla-

hın ﷺ belə dediyini rəvayət edir: ***"Həqiqətən, mənim müxtəlif adlarım var: Mən Muhəmmədəm, mən Əhmədəm, və mən silənəm, hansı ki, Allah mənim vasitəmlə küfrü siləcək, mən cəmləyici-toplayanam, hansı ki, camaat mənim ətrafımda cəmlənəcək və mən davamçıyam, hansı ki, məndən sonra başqa peyğəmbərlər olmayacaq."***

Əl-Buxari və Muslim, Səd ibn Əbu Vəqqasın (Allah ondan razı olsun) sözlərindən rəvayət edilən bir hədisə belə deyilir ki, bir dəfə Rəsulullah ﷺ Əli ibn Əbu Talibə (Allah ondan razı olsun) belə dedi: ***"Məgər istəmərsənmi ki, Harun Musanın yanında tutduğu məqam kimi, sən də mənim yanımda o cür məqam tutasan? Bircə fərq odur ki, məndən sonra peyğəmbərlər olmayacaq!"***

Peyğəmbərimiz Muhəmmədin ﷺ sonuncu peyğəmbər olduğunu açıq şəkildə göstərən bir çox başqa səhih hədislər də vardır.

İbn Kəsir (Allah ona rəhm etsin) "Təfsir"ində belə yazmışdır: *"Uca Allah öz kitabında və Rəsulullah ﷺ bir çox hədislərində, ondan sonra peyğəmbərlərin olmayacağını bildirmişdir ki, insanlar ondan sonra özünü peyğəmbər elan edən hər kəsin yalançı, böhtançı, dəccal, azmış və başqalarını azdıran olduğunu bilsinlər."*

AXİRƏT GÜNÜNƏ İMAN

Axır gün Qiyamət günüdür, nə zaman ki, Allah Öz bəndələrini hesab və cəza və mükafat üçün qəbirlərindən dirildəcək və onlara hökm verəcək, ondan sonra bir hissəsi Cənnətə, digər hissəsi isə Cəhənnəmə gedəcək. Həmin gün, dünyanın son günü olacağı üçün axırıncı adlandırılır. Uca Allah insanlara bu əzəmətli gündən, bu gündə baş verəcəklərdən, eləcə də onun yaxınlaşmasına sübut olan əlamətlərdən xəbər verib və Quranda da bu haqda bəhs edən surələrin sayı az deyildir.

Məsələn, Uca Allah bu günə and içir.

Uca Allah buyurur:

— And içirəm qiyamət gününə! "Qiyamə (Qiyamət)" surəsi, 1-ci ayə.

Və Uca Allah öz peyğəmbərinə ﷺ insanların diriləcəyinə and içməyi əmr etdi.

Uca Allah buyurur:

— İnkar edənlər əsla dirildilməyəcəklərini iddia etdilər. De: "Bəli! Rəbbimə and olsun ki, siz dirildiləcəksiniz! Sonra etdiyiniz əməllər mütləq sizə xəbər veriləcəkdir. Bu, Allah üçün asandır." "Təğabun (Qarşılıqlı aldanma)" surəsi, 7-ci ayə.

Və Uca Allah bu günə iman gətirənləri tərifləyir.

Uca Allah buyurur:

— O kəslər ki, sənə göndərilənə (Qurana) **və səndən əvvəl göndərilənlərə iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar. Onlar Rəbbi tərəfindən göstərilən doğru yoldadırlar.**

(Cəhənnəm əzabından) **xilas olanlar da məhz onlardır.** "Bəqərə (İnək)" surəsi, 4-5-ci ayələr.

Və Uca Allah, axirət gününə inanmayanları pisləyir, məzəmmət edir.

Uca Allah buyurur:

— Allahla qarşılaşacaqlarını yalan sayanlar mütləq ziyana uğrayacaqlar. Onlar doğru yola yönələn deyillər. "Yunus (Yunus)" surəsi, 45-ci ayə.

Və Uca Allah bildirib ki, həmin gün artıq yaxınlaşıb.

Uca Allah buyurur:

— O Saat yaxınlaşdı və ay bölündü. "Qamər (Ay)" surəsi, 1-ci ayə.

Allahu Təalə, bariz-sadə misallar ilə və əqli dəlillərlə sübut edir ki, bu günün gəlməsi mümkündür

Bariz misallara gəlincə, Allahu Təalə insanlara, bu dünyada öldürdüyü sonra isə yenidən diriltdiyi şəxslərdən xəbər verərək bu cür altı halı qeyd etmişdir:

Birinci: Uca Allah buyurur:

— O zaman siz: "Ey Musa! Biz Allahı açıq-aşkar görməyincə sənə iman gətirməyəcəyik!" — dediniz və gözünüz görə-görə sizi ildırım vurdu. Ölümünüzdən sonra Biz sizi diriltdik ki, bəlkə şükür edəsiniz. "Bəqərə (İnək)" surəsi, 55-56-cı ayələr.

Burada söhbət Musanın qəbilə yoldaşlarından gedir, kimlər ki, bunu dedikdən sonra Allah onları öldürüb, sonra diriltdi.

İkinci: Uca Allah buyurur:

— O zaman siz bir nəfəri öldürmüşdünüz və onun (qatili) barəsində mübahisə edirdiniz. Allah isə sizin gizlətdiklərinizi aşkara çıxarar. Biz dedik: "(İnəyin) **bir parçasını ona** (ölüyə) **vurun!" Allah ölüləri bu cür dirildir və Öz ayələrini sizə göstərir ki, bəlkə anlayasınız.** "Bəqərə (İnək) " surəsi, 72-73-cü ayələr.

Burada söhbət Musanın, İsrail oğullarından olan qəbilə yoldaşlarından gedir, hansılar ki, bir qatilin kim olduğu haqqında mübahisə edirdilər, sonra onlara əmr olunur ki, bir buzov qurban kəssinlər, və həmin heyvanın ətindən bir hissəsini ölmüş insana vursunlar, və bunu etdikdən sonra, ölü adam oyanır və öz qatilini göstərib yenidən ölür.

Üçüncü: Uca Allah buyurur:

— Minlərlə (adam) **olduqları halda ölüm qorxusundan yurdlarından didərgin düşüb gedənləri görmədinmi? Allah onlara: "Ölün!" — dedi. Sonra isə onları diriltdi. Doğrudan da, Allah insanlara qarşı lütfkardır, lakin insanların çoxu** (buna) **şükür etmir.** "Bəqərə (İnək) " surəsi, 243-cü ayə.

Burada söhbət İsrail oğullarından olan insanlardan gedir ki, onların arasında vəba baş verdikdə qaçıb getmək ilə xilas olmağa çalışırdılar və Allahu Təalə də onları əvvəlcə öldürdü, sonra isə diriltdi.

Dördüncüsü: Uca Allah buyurur:

— Və ya damları uçulub xarabalığa çevrilmiş bir kəndin yanından keçən kimsənin hekayətini bilmirsənmi? O demişdi: "Allah bu kəndi ölümündən sonra necə dirildəcək?" Allah onu öldürüb yüz il saxladı, sonra da dirildib dedi: "Nə qədər qaldın?" O dedi: "Bir gün yaxud bir gündən də az qaldım!" Allah dedi: "Əksinə, sən yüz il qaldın. Öz yeməyinə və içdiyin suya bax, hələ də xarab olmayıb. Uzunqulağına da bax! Biz səni insanlar üçün bir dəlil etdik. Sümüklərə bax, gör Biz onları necə

bir-birinə birləşdirir, sonra da onların üstünü ətlə örtürük." Ona həqiqət bəlli olduqda: "Mən artıq bilirəm ki, Allah hər şeyə qadirdir!" — dedi. "Bəqərə (İnək)" surəsi, 259-cu ayə.

Deməli, xarabalığa dönmüş kəndin yanından keçən bu adam ağlına belə gətirə bilməzdi ki, Allahu Təalə ordaki hər şeyi həyata qaytara bilər, və elə o zaman, Allah onu yüz illik öldürdü, sonra isə diriltdi.

Beşinci: Uca Allah buyurur:

— Bir zaman İbrahim: "Ey Rəbbim, ölüləri necə diriltdiyini mənə göstər!" — dedi. (Rəbbi ona)**: "Məgər sən inanmırsan?" — dedi.** (İbrahim) **dedi: "Əlbəttə** (inanıram!) **Amma** (istəyirəm ki,) **qəlbim rahat olsun."** (Allah) **buyurur: "Quşlardan dördünü tut və onları özünə tərəf çəkib tikə-tikə et. Sonra hər dağın başına onlardan bir parça qoy, sonra da onları çağır, tez sənin yanına gələcəklər. Bil ki, Allah Qüdrətlidir, Müdrikdir!** "Bəqərə (İnək)" surəsi, 260-cı ayə.

Burada, İbrahimin Rəbbindən ona ölüləri necə diriltdiyini göstərməsi haqqında və sonra Allahu Təalə ona dörd quşu kəsməyi və onların bədən hissələrini ətrafdakı dağlara səpməyi əmr etməsi və sonra onları çağıraraq, onun yanına uçub gəlmələri haqqında danışılır.

Altıncısı: uzun illər mağarada qalanlara aiddir.

Uca Allah buyurur:

— Onlar mağarada üç yüz il, üstəlik doqquz (il də) **qaldılar.**

"Kəhf (Mağara)" surəsi, 25-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Beləcə onları oyatdıq ki, (nə baş verdiyini) **bir-birindən soruşub öyrənsinlər.** "Kəhf (Mağara)" surəsi, 19-cu ayə.

Uca Allah həmçinin buyurur:

— Beləcə, (insanları) **onların halından xəbərdar etdik ki, Allahın vədinin həqiqət olduğunu və o Saatın gələcəyinə şübhə olmadığını bilsinlər.** "Kəhf (Mağara)" surəsi, 21-ci ayə.

Ölülərin, dirilmə ehtimalının lehinə olan əqli dəlillərə, sübutlara gəlincə, onlar çox fərqli ola bilərlər.

Birinci: İlk yaradılış haqqında biliyə əsaslanaraq, ikinci dəfə yaranma mümkünlüyü haqqında nəticə çıxartmaq, çünki hər bir şeyi ilk dəfə Yaradan, şübhə yoxdur ki, bunu ikinci dəfə də rahat edə bilər.

Uca Allah buyurur:

— O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: "Çürümüş sümükləri kim dirildə bilər?" De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir. "Ya sin" surəsi, 78-79-cu ayələr.

İkinci: Bu dəlil, bir şeyin öz əksindən əmələ gəlmə mümkünlüyünə əsaslanır, məsələn yaşıl, soyuq və rütubətli ağacdan isti və quru alov çıxarmaq mümkünlüyü haqqında biliklərə əsaslanır.

Uca Allah buyurur:

— O sizin üçün yaşıl ağacdan od əmələ gətirdi. Budur, siz indi ondan od yandırırsınız. "Ya sin" surəsi, 80-ci ayə.

Üçüncü: Bu dəlil ona əsaslanır ki, bir şeyin ən böyüyünü Yaratmağa gücü çatanın, balaca bir şeyi də yaratmağa gücü çatar.

Uca Allah buyurur:

— Göyləri və yeri yaradan onların eynisini yenidən xəlq etmək qüdrətinə malik olmazmı?! "Ya sin" surəsi, 81-ci ayə.

Dördüncüsü: Yerin, torpağın ölümündən sonra dirilməsinin mümkünlüyünə əsaslanaraq, ölülərin də dirilməsinin mümkünlüyünün lehinə olan dəlil.

Uca Allah buyurur:

— Yer üzünü qupquru görməyin də Onun dəlillərindəndir. Biz yerin üzərinə su endirdikdə o, hərəkətə gəlib qabarır. Şübhəsiz ki, onu dirildən, ölüləri də hökmən dirildəcəkdir. Həqiqətən, O, hər şeyə qadirdir. "Fussilət (Müfəssəl izah edilmiş)" surəsi, 54-cü ayə.

Beşincisi: Yuxudan sonra oyanışın gəlməsi haqqında bildiyinə əsaslanan dəlildir, çünki yuxu ölümün qardaşıdır, yuxudan oyanış isə ölümdən sonrakı həyat kimidir.

Uca Allah buyurur:

— Gecələr sizi yatızdıran, gündüzlər isə nələr etdiyinizi bilən Odur. Sonra O, sizi səhərlər oyadır ki, müəyyən olunmuş əcəliniz gəlib çatsın. Sonra isə dönüşünüz Ona olacaq. O, nə etdiklərinizi barədə sizə xəbər verəcəkdir. "Ənam (Mal-qara)" surəsi, 60-cı ayə.

Altıncısı: Allahın hikməti və ədaləti haqqında elmə, biliyə əsaslanaraq, qiyamətin mümkünlüyünün lehinə olan bir dəlildir ki, hansı ki, ona görə həm qiyamət, həm də əvəz alma günü qaçılmazdır.

Uca Allah buyurur:

— Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz heç vaxt Bizə qaytarılmayacaqsınız? "Muminun (Möminlər)" surəsi, 115-ci ayə.

O saatın gəlməsi haqqında

Bu haqqda ancaq tək Allah bilir, və o günün gözlənilmədən gələcəyini deyə bilərik.

Uca Allah buyurur:

— Səndən o Saat barəsində soruşurlar ki, nə vaxt qopacaq? De: "Bu haqda bilgi ancaq Rəbbimə aiddir. Qopacağı vaxtı yalnız O, aşkara çıxara bilər. Bu bilgi göylərə və yerə də ağır gəlir. O sizə qəflətən gələcəkdir." Sanki onu bilirmişsən kimi səndən

soruşurlar. De: "Bu haqda bilgi ancaq Allaha aiddir. Lakin insanların çoxu bunu bilmir. "Əraf (Səddl)" surəsi, 187-ci ayə.

Rəvayət edilir ki, Rəsulullah ﷺ buyurur: ***"Qiyamət günü ilə mən belə göndərildim" deyərək şəhadət barmağı ilə orta barmağını göstərmişdir."*** Bu hədisi Buxari və Muslim rəvayət etmişdir.

Həmçinin rəvayət olunur ki, Allah Rəsulu ﷺ qiyamətin vaxtı ilə bağlı sualları cavablandırarkən həmişə bundan xəbəri olmadığını söyləyir, bu cür sualları verənlərə daha münasib bir iş görməyi, yəni, bu günə necə daha yaxşı hazırlaşmaq barədə düşünməyi, bəzən də o, kiçik qiyamət günündən, başqa sözlə, ölümdən danışırdı.

Məsələn, Cəbrail əleyhissalam Peyğəmbərə ﷺ dedi: "Mənə o Saatdan danış" Oda ona belə cavab verdi: ***"Soruşulan soruşandan çox bilmir.***" Bu hədisi Buxari və Muslim rəvayət etmişdir.

Hər iki "Səhih"də başqa bir hədis də var ki, bir dəfə bir bədəvi Peyğəmbərdən ﷺ soruşdu: *"Bu Saat nə vaxt gələcək?"* O, ona belə cavab verdi: ***"Həqiqətən, bu Saat yaxındır, nə haxırlamısan onun üçün?"***

Hər iki "Səhih"də başqa bir hədis Aişənin (Allah ondan razı olsun) dediyi sözlərdən nəql edilmişdir: "Bədəvilər tez-tez Peyğəmbərin ﷺ yanına gəlir və ondan soruşurdular: *"Bu saat nə vaxt gələcək?"*, — Rəsulullaha gəlincə, o, nəzərlərini onların ən kiçiyinə çevirib dedi: ***"Həqiqətən, bu Saat sixin üçün o qocalıb əldən düşməmiş gələcək"*** deyərək onların ölüm saatını nəzərdə tuturdu.

Halbuki Quran və Sünnədə bu saatın gəlməsinə dair bir sıra əlamətlər vardır. Beləliklə, məsələn, Uca Allah bunun böyük əlamətlərindən bəhs edir ki, bunlara Duman, İsa əleyhissalamın ikinci dəfə gəlişi (yerə enməsi), Yəcuc və Məcucun zühuru, günəşin qərbdən çıxması və heyvan zühuru daxildir.

Rəsulullaha ﷺ gəldikdə isə o, bununla bağlı bəzi təfərrüatları qeyd edir, onlara daxildir Dəccalın gəlişi, üç ay tutulması — şərq-

də, qərbdə və Ərəbistan üzərində, bir də Yəməndən alovun çıxıb insanları toplantı yerinə qovması. Bundan əlavə, Rəsulullah ﷺ deyib ki, eyni şeyə, eyni fikirə çağıracaq iki böyük ordu, böyük bir döyüşdə üz-üzə gəlməyincə, həmçinin peyğəmbərlik iddiasında olan otuz nəfərə yaxın yalançı gəlməyincəyə qədər, dünyadan elm qaldırılıb götürülməyincə, zəlzələlər tez-tez baş verməyə başlamayınca, zaman sıxılıb-gödəlməyincə, fitnələr yaranmayınca, insanlar bir-birini öldürməyə başlayınca və nəhayət Hicazdan Busrada dəvələrin boyunlarını işıqlandıracaq qədər bir alov çıxmayınca, o saat gəlməyəcək.

Bütün bunlar, eləcə də bəzi digər əlamətlər, böyük və kiçik əlamətlərə bölünürlər. Kiçiklər, öz növbəsində, artıq həyata keçirilmiş və başa çatmış, baş verən və davam edən, həmçinin hələ baş verməyənlərə bölünür. Böyüklərə gəlincə, onların vaxtı hələ gəlməyib, lakin bunlardan hər hansı biri reallaşdıqda, başladıqda hər şey ardınca gələcək, bütün alamətlər ard-arda gələcəklər.

Ölüm və qəbirdə baş verənlər

Qiyamət gününə iman — Quran və Sünnənin bu mövzuda göstərdiyi hər bir şeyə, yəni ölümlə bağlı olan hər şeyə və ondan sonra baş verənlərə imanı nəzərdə tutur.

Ölümlə bağlı iman aşağıdakıları ehtiva edir:

1. İman etmək ki, bu dünyada bütün canlılar üçün ölüm qaçılmazdır.

Uca Allah buyurur:

— Hər kəs ölümü dadacaqdır. Sonra da Bizə qaytarılacaqsınız. "Ənkəbut (Hörümçək)" surəsi, 57-ci ayə.

Uca Allah həmçinin buyurur:

— …Onun Üzündən başqa hər şey məhv olacaqdır. Hökm Onundur və siz Ona qaytarılacaqsınız. "Qasas (əhvalat)" surəsi, 88 ayə.

2. İman etmək ki, hər kəsin əcəli dəqiq müəyyən edilib, və heç kəs əcəlini nə yubada bilər, nədə ki qabağlaya bilər. Bu, ömrün müddəti yalnız Allaha məlumdur, və O, nəinki bu müddəti müəyyən edəndir, Allah həm də hər kəsin ölüm səbəbini müəyyən edəndir.

Uca Allah buyurur:

— Allahın izni olmayınca heç kəsə ölüm yoxdur. (Ölüm,) **vaxtı müəyyən edilmiş bir yazıdır.** "Ali İmran (İmranın ailəsi)" surəsi 145-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Hər bir ümmətin bir əcəli (müddəti) **vardır. Onların əcəli gəlib çatdığı zaman nə bir an geri qalar, nə də irəli keçə bilərlər.** "Əraf (Sədd)" surəsi, 34-cü ayə.

3. İman etmək ki, əcəlin vaxtını yalnız Allah bilir.

Uca Allah buyurur:

— Heç kim sabah nə qazanacağını bilə bilməz. Heç kim harada öləcəyini də bilə bilməz. Şübhəsiz ki, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır. "Loğman" surəsi, 34-cü ayə.

4. İman etmək ki, ölümdən əvvəl, Uca Allahın dedikləri baş verir:

— "Nəhayət, birinizin ölümü çatdığı zaman mələklərimiz onun canını alar. Onlar (öz işlərində) **heç bir nöqsana yol verməzlər."** "Ənam (Mal-qara)" surəsi, 61-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Can boğaza çatdığı zaman, O an siz (can verən adama) **baxıb qalırsınız. Biz ona sizdən daha yaxınıq, lakin siz görmürsünüz.** "Vaqiə" surəsi, 83-85-ci ayələr.

Burada söhbət ondan gedir ki, ölüm ayağında olan insanın ruhu, onun boğazına yaxınlaşanda əzab-əziyyət yaranır. Bu zaman yaxın-

da olanlar ölənə sadəcə baxırlar, Uca Allaha gəlincə isə O, ölənlər haqqında, insanlardan daha çox bilir, və həmçinin mələklərdə ölən insana, ətrafdakilardan daha yaxındırlar, lakin onlar bunu görmürlər. Günahkar və ədalətsiz insan öləndə, etdiyi hər şeydən peşman olur və dünyaya qayıtmaq istəyir.

Uca Allah buyurur:

— Nəhayət, onlardan (müşriklərdən) **birinə ölüm gəlib çatdığı zaman belə deyər: "Ey Rəbbim! Məni** (dünyaya) **geri qaytar! Ola bilsin ki, tərk etdiyim o yerdə yaxşı bir iş görüm." Xeyr, onun dediyi boş bir sözdür. Onların arxasında diriləcəkləri günə qədər davam edən bərzəx aləmi** (qəbir həyatı) **vardır.** "Muminun (Möminlər)" surəsi, 99-100-cü ayələr.

İmansız, kafir ruhun bədəndən çıxarılmasına gəlincə isə, Uca Allah bu haqda buyurur:

— O zalımlar ölümün (boğucu) **dalğaları içində ikən mələklər də əllərini uzadıb** (onlara)**: "Çıxarın canlarınızı! Allaha qarşı yalan sözlər danışdığınıza və Onun ayələrinə qarşı təkəbbür göstərdiyinizə görə siz bu gün alçaldıcı bir əzabla cəzalandırılacaqsınız!" — deyərkən onların halını bir görəydin.** "Ənam (Mal-qara)" surəsi, 93-cü ayə.

Bu o deməkdir ki, mələklər əllərini günahkara tərəf uzadaraq, onu vururlar və ona işgəncə, əzab verirlər.

İmam Əhmədin "Müsnəd"ində və digər məcmuələrdə (toplanmış hədislərdə) əl-Bəra ibn Azibin (Allah ondan razı olsun) sözlərindən nəql olunan bir hədis var ki, Rəsulullahın ﷺ belə dediyi rəvayət edilir: ***"Mömin qul bu dünyanı tərk edərək başqa bir dünyaya gedəndə onun yanına göydən üzləri günəş kimi parlayan mələklər enir. Özləri ilə birlikdə cənnətdən kəfən və buxur gətirirlər və onun ətrafında, gözün görə biləcəyi qədər məsafədə aralıdə otururlar, sonra ölüm mələyi ona görünür və başının yanında***

oturub deyir: "Ey mehriban, gözəl nəfs (Ruh), Allahdan bağışlanma və razılıq qazanmaq üçün üzə çıx! (Allahın bağışlanmasına və lütfünə get)!" Və nəfs (ruh) onun bədənindən, dəri su tuluqdan axan su kimi axmağa başlayır və ölüm mələyi ruhu qəbul edir, digər mələklər isə bu ruhu bir an belə onun əlində qoymur, onu götürüb cənnətdən kəfənə sarırlar, onu cənnət ətiri ilə məsh edib, bundan sonra ondan ən yaxşı müşk ətri kimi bir ətir qoxmağa başlayır və mələklər onunla birlikdə yuxarı, səmaya qalxırlar."

Daha sonra Peyğəmbər ﷺ buyurur: ***"Kafir bəndəyə gəlincə isə o bu dünyadan köçəndə göydən onun yanına qara sifətli mələklər enir, onlar özləri ilə cəhənnəmdən parça gətirirlər, gözün son görmə həddi qədər ölmüş adamdan aralı otururlar və bundan sonra ölüm mələyi gəlib onun başı uzərində otururaq deyir: "Ey xəbis nəfs (ruh)! Allahın qəzəb və nifrətini qazanmaq üçün üzə çıx!" Kafirin nəfsi (ruhu) bədənindən əyri uclu dəmir əsa yaş yundan çıxdığı kimi çıxar, o biri mələklər onu dərhal götürürlər, cəhənnəmdən gətirdikləri pis qoxulu kəfənə bürüyürlər, və ondan yalnız yer üzündə olan ən iyrənc üfunət qoxusu yayılmağa başlayır, sonra da onunla birlikdə yuxarı, səmaya yüksəlirlər."***

Deməli, ölümdən sonra böyük və mühüm hadisələr baş verir, bunların bir qismi qəbirdə, bir qismi isə ölülər dirildikdən sonra baş verəcək.

Qəbirdə insanın başına gələnlər bunlardır:

1. Qəbirdəki sınaq

Mərhum qəbrə qoyulduqdan sonra, iki mələk onun yanına gələrək soruşur: *"Rəbbin kimdir? Dinin nədir? Sizə göndərilən o şəxs kimdir?"*

Möminə gəldikdə o: "Rəbbim Allah, dinim İslamdır", üçüncü suala isə "O, Allahın qulu və Rəsuludur" deyə cavab verəcək. Kafir

birinə gəlincə isə o, bütün suallara: “Ha! Ha! Bilmirəm” deyə cavab verəcək. Münafiq və ya şəkk, şübhə edən isə: “Bilmirəm, sadəcə insanların bir şeylər dediyini eşidirdim və eyni şeyi təkrarlayırdım” deyəcək.

2. Qəbirdəki səadət və əzab

Mərhum qəbirdə keçdiyi imtahanlardan sonra, Qiyamət gününə qədər orada qalacaq, orada həm bədən, həm də ruh, və ya ancaq ruh ilə səadət hiss edəcək və ya əzab çəkəcəkdir. Hər kəsi qəbirdə gözləyən hadisələrdən və iki mələyin sualları ilə bağlı olan imtahandan bir çox ayə və hədislərdə bəhs edilir, bunlar da səadət və ya əzabdan xəbər verir ki, bunlara ümumi və xüsusi olaraq inanmaq lazımdır, lakin bunun tam olaraq necə olacağı haqqında biz danışmayacağıq.

Bunları sübüt edən işarələr, dəlillər:

Uca Allah buyurur:

— Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar. Allah zalımları sapdırar. Allah istədiyini edər. “İbrahim (İbrahim) surəsi, 27-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Onları səhər və axşamüstü oda salırlar. O Saat gələcəyi gün isə, Firon nəslini ən şiddətli əzaba salın! O zaman onlar odda bir-birilə höcətləşəcəklər. Zəiflər təkəbbür göstərənlərə: “Biz sizin ardınızca gedirdik. İndi siz odun bir hissəsindən bizi qurtara bilərsinizmi?” — deyəcəklər. “Ğafir (Bağışlayan)” surəsi, 45-46-cı ayələr.

Uca Allah həmçinin buyurur:

— Sur üfürüləcəyi gün Allahın istədiklərindən başqa, göylərdə və yerdə olanlar dəhşətə düşəcək və hamısı Onun hüzuruna baş əyərək gələcəkdir. “Nəml (Qarışqa)” surəsi, 87-ci ayə.

Hər iki “Səhih”də əl-Bəra ibn Azibin (Allah ondan razı olsun) sözlərindən rəvayət olunan bir hədis var ki, o, Peyğəmbərin ﷺ belə

dediyini rəvayət edir: ***"Mömini qəbrində əyləşdirdikdən sonra, onun yanına gələcəklər və o mömin, Allahdan başqa ibadətə layiq heç bir haqq məbudun olmadığına və Muhəmmədin ﷺ Allahın Rəsulu olduğuna şəhadət verəcək.*** Və Uca Allahın kəlamı da buna işarə edir:

— Allah iman gətirənləri möhkəm bir sözlə (kəlmeyi-tövhidlə) dünya həyatında da, axirətdə də möhkəmləndirər.

"İbrahim" surəsi, 27-ci ayə.

Yuxarıda bizim tərəfimizdən başlanğıcını verdiyimiz, İmam Əhmədin "Müsnəd"ində qeyd olunan hədisdə, əl-Bəra bin Azibəyə (radıyallahu anhu) sözlərinə görə, əvvəlcə mələklərin mərhumun ruhu ilə səmaya yüksəldikləri və sonra onu yer üzünə qaytardıqları bildirilir. Rəsulullah ﷺ dedi: ***"Onun ruhu bədənə qaytarılacaq, bundan sonra iki mələk onun yanına gəlib onu əyləşdirib ona deyəcəklər: "Rəbbin kimdir? O cavab verəcək: "Rəbbim Allahdır." Sonra soruşacaqlar: "Dinin nədir?" O cavab verəcək: "Mənim dinim İslamdır." Sonra ondan soruşacaqlar: "Sizə göndərilən o şəxs kimdir?" Cavab verəcək: "O, Allahın Rəsuludur." Sonra ondan soruşacaqlar: "Bunu hardan bilirsən?" O: "Mən Allahın kitabını oxudum və ona iman gətirdim" deyə cavab verəcək. Sonra səmadan bir səs eşidiləcək: "Bəndəm haqqı dedi, ona cənnətdən bir çarpayı düzəldin və cənnətin qapısını onun üzünə açın!" Bundan sonra o, sevincdən tutular və cənnət səadətini yaşamağa başlayar, və onun qəbri gözün son görmə həddi qədər geniş olar."***

Kafirə gəlincə, Allah Rəsulu ﷺ onun haqqında belə buyurmuşdur: ***"Onun ruhu bədənə qaytarılacaq, bundan sonra iki mələk onun yanına gələcək, onu əyləşdirib soruşacaq: "Rəbbin kimdir?" O cavab verəcək: "Ha! Ha! Bilmirəm." Sonra onlar soruşacaqlar: "Sizə göndərilən O şəxs kimdir?" O, yenə cavab verəcək:***

“Ha! Ha! Bilmirəm” və sonra səmadan bir səs eşidiləcək: “Yalan danışdı, onun üçün oddan bir çarpayı düzəldin və önündə cəhənnəmin qapılarını açın!” Bundan sonra cəhənnəmin hərarəti onu yaxalayacaq. Qəbri daralacaq və qabırğaları bir-birinə qarışacaq.”

Hər iki “Səhih”də, Ənəs ibn Malik (radıyallahu anhu) rəvayət etdiyi bir hədisdə Rəsulullah ﷺ buyurur: ***“Allahın bəndəsini qəbirə qoyduqdan sonra, yaxınları getdikləri zaman mərhum onların ayaq səslərini eşidəcək, sonra iki mələk onun yanına gəlib onu əyləşdirib soruşacaqlar: “Bu şəxs haqqında nə deyirsən?” Mömin isə cavab verəcək: “Şəhadət edirəm ki, o, Allahın qulu və Rəsuludur” və onlar ona deyəcəklər: “Cəhənnəmdəki yerinə bax, Allah onu sənin üçün cənnətdə bir yerlə əvəz etmişdir!” O, hər ikisini də görəcək. Münafiqə gəlincə, ondan: “Sən bu adam haqqında nə deyirsən?” deyə soruşduqda, o: “Bilmirəm, mən də başqa insanlar nə deyirdisə məndə onlar kimi demişəm” deyə cavab verəcək. Sonra: “Sən bilmirdin və oxumurdun” deyəcəklər və onu dəmir çəkiclərlə vuracaqlar və o elə bir fəryad qoparacaq ki, bu fəryadı insanlar və cinlərdən başqa, onun ətrafında olan hamı eşidəcək.”***

Hər iki “Səhih”də, İbn Abbasın (Allah onlardan razı olsun) sözlərindən nəql olunan bir hədis var ki, bir dəfə Peyğəmbərin ﷺ iki qəbrin yanından keçərkən belə dediyini rəvayət edir: ***“Həqiqətən, onlar əzaba düçar olurlar, amma böyük bir günaha görə deyil” və sonra dedi: “Bəli, onlardan biri böhtan atırdı (qeybət edirdi), digəri öz sidiyindən qorunmurdu” və bundan sonra Peyğəmbər ﷺ təzə bir xurma budağını ikiyə böldü, və hərəsini qəbirlərin hər birinin üzərinə basdırdı və dedi: “Bəlkə bu budaqlar quruyana qədər, bu qəbirdəkilərin əzabları yüngülləşdirilər.”***

Həmçinin, Peyğəmbərin ﷺ özünü qəbir əzabından qorumaq üçün dualarla Allaha üz tutduğu və başqalarına da bunu əmr etdiyi bir çox hədislərin dəlil olduqları bildirilir.

Qəbir əzabı iki cürdür:

1. Elə əzablar vardır ki, insanlar davamlı olaraq onlara məruz qalırlar, Allahu Təalə bu haqda buyurur:

— Onları səhər və axşamüstü oda salırlar. "Ğafir (Bağışlayan)" surəsi, 45-ci ayə.

2. Digər əzablar isə bir müddət davam edirlər, sonra bitirlər. Bu cür əzablara, günah etmiş müsəlmanların bəziləri məruz qalırlar, və onların əzablarının şiddəti günahlarının şiddətindən, böyüklüyündən, çoxluğundan asılıdır. Sonra onların aqibəti yüngülləşə bilər, buna da səbəb, onlar üçün edilən dualar və ya onlar üçün verilən sədəqələrin paylanması və ya digər oxşar əməllərin onlar üçün bu dünyada insanlar tərəfindən edilməsi ola bilər.

Xata edənlərdən, azmışların bəziləri, insanların qəbirlərdə əzab çəkəcəyini və ya səadətə qovuşacağını inkar edirdilər. Onların şübhələri, bununla bağlıdır ki, onlar heç vaxt ölülərin nələrsə haqqında sorğu sual olunacaqlarını, və ya səadətdə olduqlarını və ya əzab çəkəcəklərini görməyiblər və bunu təcrübi olaraq (empirik) dərk edə bilməmələri ilə əlaqədar idi.

Buna aşağıdakı kimi cavab vermək olar:

1. Bu barədə bizim bütün biliklərimizin qaynağı Quran və Sünnə olduğu üçün müsəlman bütün bu məlumatları tanımalı və təsdiq etməlidir, bu da qeybə inanan və Peyğəmbərin ﷺ rəhbərlik etdiyi, yönəltdiyi doğru yol ilə gedən müsəlmanları, bütün digər insanlardan fərqləndirir.

2. O biri dünyanın öz tənzimləmələri, qaydaları var, onlar haqqında bu dünyada bizə adi görünən, tanış olan şeylər ilə mühakimə etmək olmaz. Bu o deməkdir ki, biz mərhumun başına gələn-

ləri tam olaraq hiss edə bilmirik. Yalnız bunu zənn etmək olar ki, Allahın qüdrəti böyük olduğu üçün O, insanların o biri dünyada baş verənləri görmələrinə və eşitmələrinə dözə bilməyəcəklərinə və qorxudan bir-birlərini dəfn etməyəcəklərinə görə, həmçinin mömin-ləri başqalarından ayırmaq üçün bu cür hökm vermişdir.

3. İnsan hər şeyi dərk etməyə qadir deyil. Məsələn, Cəbrail (əleyhissalam) Peyğəmbərin ﷺ hüzuruna enib onunla söhbət etdik-də, onların yanında olanlardan heç biri onu görmürdü və eşitmir-di. Bundan əlavə məlumdur ki, mövcud olan hər bir şey, hər bir varlıq Allahı təsbih etdir, lakin bunun necə baş verdiyini dərk edə bilmərik.

4. Allahu Təalə, bu dünyada buna bənzər şeylər görməyi bizim üçün icazəli etmişdir, insan yuxuda ikən bəzən xoş və şən, bəzən isə bunun tam əksi olan yuxular görə bilər, baxmayaraq ki, əslində yatağında yuxuda gördüyü şeydən uzaqdadır, və həmçinin onun gö-rürdüyü xəyalları, başqalarının qavrayışı üçün əlçatmazdır.

Müasir ixtiralar haqqında da oxşar şeylər söyləmək olar. Məsə-lən, biz enerji verilən, ötürülən açıq naqillərə toxunmayana qədər, elektrik naqillərində baş verən prosesləri hiss edə bilmərik, həm-çinin həmin naqillərə toxunan dəmir və taxta əşyalar arasında da fərq var.

Qiyamətdən sonrakı hadisələr

Qəbirlərdən çıxış

İsrafil (əleyhissalam) sura üfürəcəyi zaman insanlar qəbirlərindən qalxacaqlar. Quranda bildirilib ki, o bunu üç dəfə edəcək.

1. İlk sur səsindən sonra hər kəsi qorxu bürüyəcək. İlk sur səsi qurulmuş dünya nizamını pozacaq və onu bərbad vəziyyətə salacaq.

Uca Allah buyurur:

— Sur üfürüləcəyi gün Allahın istədiklərindən başqa, göylərdə və yerdə olanlar dəhşətə düşəcək və hamısı Onun hüzuruna baş əyərək gələcəkdir. "Nəml (Qarışqa)" surəsi, 87-ci ayə.

2. Surun ikinci səsindən sonra dünyada nə varsa hər şey öləcək, məhv olacaq.

Uca Allah buyurur:

— Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcəkdir. "Zumər (Zümrələr)" surəsi, 68-ci ayə.

3. Surun üçüncü səsindən sonra insanlar dirilib qəbirlərdən qalxacaqlar.

Uca Allah buyurur:

— Sonra bir daha ona üfürülən kimi onlar qalxıb baxacaqlar. "Zumər (Zümrələr)" surəsi, 68-ci ayə.

Həşr

İnsanların qəbirlərindən nə cür qalxacağı haqqında, Aişənin (Allah ondan razı olsun) sözlərindən rəvayət edilən və hər iki "Səhih"də verilmiş bir hədisdə bildirilir. Aişə dedi: *"Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **"Qiyamət günü insanlar ayaqyalın, çılpaq və xitan olunmamış (sünnətsiz) toplanacaqlar."***

Muslimin "Səhih"ində əl-Miqdad bin əl-Əsvədin (Allah ondan razı olsun) rəvayət etdiyi bir hədis vardır ki, Rəsulullahın ﷺ belə dediyini rəvayət edir: ***"Qiyamət günü günəş insanlara yaxınlaşacaq və onlardan bir mil məsafədə olacaq, insanlar isə öz əməllərinə görə öz tərlərinə qərq olacaqlar."***

Bu vəziyyətdə, Peyğəmbər ﷺ insanlara şəfaət edəcək, hal bu ki, Adəm, Nuh, İbrahim, Musa və İsa (əleyhissələm) bunu etməkdən imtina edəcəklər, və bu şəfaət ən böyük şəfaət və tərifə layiq bir yerə çeviriləcək.

Ayaqda durma və hesab

Ayaqda durma, yəni bütün insanların, Uca və Əzəmətli Allah qarşısında dayanması nəzərdə tutulur.

Uca Allah buyurur:

— Onlar Rəbbinin hüzuruna çıxarılacaqlar (və onlara belə deyiləcək)**: "Sizi ilk dəfə yaratdığımız kimi hüzurumuza gəldiniz. Ancaq siz, sizin üçün** (belə bir) **vədələşmə yeri yaratmayacağımızı iddia etmişdiniz!"** "Kəhf (Mağara)" surəsi, 48-ci ayə.

Uca Allah həmçinin buyurur:

— O gün siz məhşərə gətiriləcəksiniz və heç bir sirriniz gizlədilməyəcəkdir. "Həqqə (Haqq olan)" surəsi, 52-ci ayə.

Hesab

Uca və Əzəmətli Allah, insanlara yaxşı və pis əməlləri haqqında xəbər verəcək və unutduqları şeylər haqqında xatırladacaq.

Uca Allah buyurur:

— O gün Allah onların hamısını dirildəcək və etdikləri əməlləri özlərinə xəbər verəcəkdir. Allah onları (etdikləri əməlləri bir-bir) **saymışdır, onlar isə onu unutmuşlar. Allah hər şeyə şahiddir.** "Mucadilə (Mübahisə edən qadın)" surəsi, 6-cı ayə.

Uca Allah həmçinin buyurur:

— Şübhəsiz ki, onların dönüşü Bizədir. Sonra onları sorğusuala çəkmək də Bizə məxsusdur. "Ğaşiyə (Bürüyən)" surəsi, 25-26-cı ayələr.

Uca Allah həmçinin buyurur:

— Ona görə də Allahın Öz peyğəmbərlərinə verdiyi vədə xilaf çıxacağını sanma! Şübhəsiz ki, Allah qüdrətlidir, intiqam alandır. O gün yer başqa bir yerlə, göylər də (başqa göylərlə) **əvəz olunacaqdır. Onlar tək və hər şeyə qalib olan Allahın hüzurunda duracaqlar. O gün günahkarların zəncirləndiyini görərsən. Onların köynəkləri qətrandandır. Üzlərini də alov bürüyər. Allah hər kəsə qazandığının əvəzini versin deyə** (belə edəcəkdir)**. Şübhəsiz ki, Allah sürətli haqq-hesab çəkəndir.** "İbrahim" surəsi, 47-51-ci ayələr.

Eyni zamanda, vərəqlər, səhifələr açılacaq və hamıdan hər şey soruşulacaq, — həm peyğəmbərlərdən, həm də onların icmalarından, ümmətlərindən soruşulacaq.

Uca Allah buyurur:

— Şübhəsiz ki, peyğəmbər göndərilənləri də, peyğəmbərləri də mütləq sorğu-sual edəcəyik. "Əraf (Sədd)" surəsi, 6-cı ayə.

Ancaq insanlara verilən suallar və hesablaşmaları fərqli olacaq. Müsəlmanlara gəlincə, onların günahları onlara təqdim olunacaq, onlar qəbul edəcəklər və onların günahları örtüləcək, silinəcək. Hər iki "Səhih"də Aişənin (Allah ondan razı olsun) sözlərindən rəvayət olunan bir hədis vardır ki, o demişdir: "Bir dəfə Allah Rəsulu ﷺ buyurub: ***"Ciddi haqq-hesab tələb olunacaq şəxs əzaba düçar olacaq."*** Mən soruşdum: *"Məgər Uca Allah buyurmur ki:* **"o, yüngül sorğu-suala tutulacaq?"** "İnşiqaq (Yarılma)" surəsi, 8-ci ayə — Allah Rəsulu ﷺ ona cavab verdi: ***"Haqq-hesab bu cür olacaq!"***

Hər iki "Səhih"də İbn Ömərin (radıyallahu anhu) rəvayət etdiyi bir hədis var ki, o, Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: ***"Qiyamət günü mömin Rəbbinə o qədər yaxınlaşacaq ki, Onun himayəsi altında olacaq və günahlarını etiraf edəcək. Allah ondan soruşacaq: "Sən etiraf edirsənmi bunu? O cavab verəcək: "Bəli, ya Rəbb, mən bunu etiraf edirəm!" Sonra O deyəcək: "Həqiqətən, Mən səni dünya həyatında örtdüm və bu gün də səni bağışla-***

dım!", sonra da onun yaxşı əməllərinin dəftəri ona veriləcək. Kafirlərə və münafiqlərə gəlincə, hamının gözü qarşısında onlara deyiləcək ki: "Bunlar öz Rəbbinə iftira atanlardır!""

Möminlər arasında elələri də olacaq ki, cənnətə haqq-hesabsız və əzabsız daxil olacaqlar, məsələn hər iki "Səhih"də İbn Abbasın (Allah ondan razı olsun) sözlərindən nəql olunan hədisdə adı çəkilən yetmiş min nəfər.

Kafirlərə gəldikdə isə, onların hesabları, yaxşı və pis əməlləri ölçülən kəslərlə eyni olmayacaqdır, çünki onların yaxşı əməlləri olmayacaq.

Uca Allah buyurur:

— Biz onların etdiyi hər bir (yaxşı) əmələ nəzər salar və onu səpələnmiş zərrələrə çevirərik (puç edərik). "Furqan (Haqqı batildən ayıran)" surəsi, 23-cü ayə.

Kafirlərin haqq-hesabı belə olacaq ki, pis əməlləri onlara təqdim olunacaq və məzəmmət ediləcək.

Tərəzi

Burda nəzərdə tutulan, Qiyamət günü Allahın bəndələrinin əməllərini ölçmək, onları bir-birindən ayırmaq və sayını müəyyən etmək üçün qoyulacaq tərəzidir. Tərəzidə ölçmə, haqq-hesabdan sonra aparılacaq, çünki haqq-hesab, görülən işləri müəyyən etmək üçün lazımdır, amma tərəzi — insanın öz əməlinin nə dəyərində olduğunu görməsi üçündür, buna uyğun olaraq da əvəzini alacaq.

İstər Quranda, istərsə də Sünnədə bu tərəzinin dəqiq, ədalətli, olmasına dəlalət edən çoxlu işarələr vardır.

Məsələn, Uca Allah buyurur:

— Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. Görülmüş iş bir xardal dənəsi mislində olsa belə, onu gəti-

rib tərəziyə qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik. "Ənbiya (Peyğəmbərlər)" surəsi, 47 ayə.

Uca Allah həmçinin buyurur:

— O gün kimin tərəziləri ağır gələrsə, xoşbəxt güzəran sürəcək. Kimin tərəziləri yüngül gələrsə, məskəni Həviyə olacaqdır. "Qariə (Qorxuya salan) " surəsi, 6-9-cu ayələr.

Əl-Buxarinin "Səhih"ində, Əbu-Hüreyradan (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər ﷺ belə demişdir: ***"Dilə yüngül, çəkidə ağır gələn və ər-Rahmənə (Allaha) sevimli olan iki kəlmə vardır və onlar bunlardırlar: Allahı ən kamil sifətləri ilə tərifləyərək Onu bütün nöqsanlardan uzaq tuturam. Əzəmətli Allah pak və nöqsansızdır. (Subhəənəllaahi va bihəmdihi, subhəənəllaahi-l-azim)."***

Əməllərin qeydləri ilə səhifələr

Haqq-hesab tamamlandıqdan sonra, hər kəs öz əməllərinin dəftərini götürəcək və orada yazılanları oxuyacaq. İnsanlar arasında bu dəftəri, bəziləri sağ əli ilə, digərləri isə sol əli ilə arxa tərəfdən götürəcəklər.

Uca Allah buyurur:

— Kitabı sağ tərəfindən verilən belə deyəcəkdir: "Alın kitabımı oxuyun! Mən əməllərimin haqq-hesabı ilə qarşılaşacağımı dəqiq bilirdim." Buna görə də o, razı qalacağı bir həyat içində, Uca bir cənnətdə olacaqdır. Onun meyvələri (dərilməsi asan olsun deyə) **yaxın olacaqdır.** (Onlara belə deyiləcəkdir:) **"Keçmiş günlərdə etdiyiniz** (yaxşı) **əməllərinizə görə nuşcanlıqla yeyin-için!" Kitabı sol tərəfindən verilən isə belə deyəcəkdir: "Kaş mənə kitabım verilməyəydi. Əməllərimin haqq-hesabını heç bilməmiş olaydım. Kaş ölümlə hər şey bitmiş olaydı. Mal-mülküm**

mənə heç bir fayda vermədi. Səltənətim də yox olub getdi." "Haqqə (Haqq olan)" surəsi, 19-29-cu ayələr.

Körpü (əs-Sirat)

Bu, Cəhənnəm üzərində uzanan körpünün adıdır ki, oradan həm birincilər həm də sonuncular keçəcək, onu keçən (aşan) oddan xilas olacaq. İnsanlar yalnız haqq hesab yerindən ayrıldıqdan sonra oradan keçəcəklər. Möminlər onu keçib cəhənnəmdən qurtula biləcəklər, lakin cəhənnəmə düçar olanlar isə bu körpüdən yıxılıb düşəcəklər.

Uca Allah buyurur:

— İçinizdən ora girməyəcək heç kim yoxdur. Bu, Rəbbinin qəti hökmüdür. Sonra Biz müttəqiləri xilas edəcək, zalımları isə diz çökmüş vəziyyətdə orada saxlayacağıq. "Məryəm" surəsi, 71-72-ci ayələr.

Hər iki "Səhih"də Əbu Hüreyrənin (Allah ondan razı olsun) rəvayət etdiyi bir hədis vardır ki, o belə demişdir: "Bir dəfə insanlar Peyğəmbərdən ﷺ soruşdular: "Ey Allahın Rəsulu ﷺ, Qiyamət günü Rəbbimizi görəcəyikmi?" Və bu hədisdə Peyğəmbərin ﷺ bu sözləri nəql olunur: ***"Cəhənnəm üzərində bir körpü qurulacaq ki, ümmətimlə birlikdə onun üstündən birinci Mən keçəcəyəm. O gün elçilərdən başqa heç kəs danışa bilməyəcək, elçilər isə fəryad edəcəklər: "Allahım! Xilas et, xilas et!" Cəhənnəmdə isə sadan (dadı şirin tikanlı bir bitki) tikanlarına bənzər qarmaqlar vardır***."

Muslimin "Səhih"ində Əbu Səid əl-Xudrinin (Allah ondan razı olsun) sözlərindən rəvayət olunan bir hədis vardır ki, Rəsulullahın ﷺ belə dediyini rəvayət edir: ***"Sonra Cəhənnəmin üzərində bir körpü qurulacaq, şəfaətə icazə veriləcək və onlar (Peyğəmbərlər) deyəcəklər: "Allahım, xilas et!"*** Camaat soruşdu: *"Ya Rəsulallah, bu körpü nədir?"* Cavab verdi: ***"Onun üzərində sadan bitkisinin tikanları kimi qarmaqlar və tikanlar olacaq. Möminlər-***

dən bəziləri onu bir baxış, göz qırpımı sürəti ilə, bəziləri şimşək kimi, bəziləri külək kimi, dördüncüləri isə quşlar kimi, bəziləri də qaçan atlar kimi keçəcəklər və müsəlmanlar nicat tapacaq, bu qarmaqların dəydiyi kəs isə düşəcək cəhənnəm alovuna."

Körpü

Möminlər Siratdan keçib oddan xilas olduqdan sonra, lakin Cənnətə girməzdən əvvəl Cənnətlə Cəhənnəm arasında atılan başqa bir körpünün üstündə dayandırılacaqlar. Bu ona görə ediləcək ki, incidilmiş insanlar, dünyada onları incidən insanlara etdikləri əziyyətlərin eynisi ilə əvəzini ödəsinlər deyə və onlar bir-birləri ilə hesablaşdıqlarından sonra Cənnətə daxil olsunlar.

Əbu Səid əl-Xudri (Allah ondan razı olsun) rəvayət edir ki, Rəsulullah ﷺ buyurur: ***"Möminlər Cəhənnəmdən qurtulub Cənnətlə Cəhənnəm arasında körpüdə bir müddət həbs edilirlər. Bu yerdə aralarında dünyada olan keçmiş haqsızlıqlar qisas edilir. Beləcə günahlardan təmizlənib paklandıqdan sonra Cənnətə girmələrinə izin verilir. Nəfsim əlində olan Allaha and olsun ki, onlardan hər biri Cənnətdəki evini, dünyadakı evindən daha yaxşı bilir."*** Bu hədisi Buxari nəql etmişdir.

Bu körpü ilə bağlı şərhçilər arasında müəyyən fikir ayrılıqları var. Beləki, bəziləri bunu Siratın tamamlanması, sonu olduğu demişlər, başqa sözlə desək, onun Cənnətə bitişik hissəsinin tamamlanması olduğunu iddia edirdilər, bəziləri isə bunun başqa bir körpü olduğunu iddia edirdilər.

Su hovuzu

Söhbət Peyğəmbərin ﷺ su hovuzundan gedir.

Buxari və Muslimin "Səhih"lərində Abdullah ibn Amr ibn əl-Asın (Allah ondan razı olsun) sözlərindən rəvayət edilən bir hədis

vardır ki, Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: ***"Mənim su hovuxumun ətrafında dolaşmaq üçün bir aylıq (gedilən) yol laxımdır, onun bucaqları bir-birinə bərabərdir, suyu süddən ağdır, ətri müşk ətirindən daha xoşdur və ətrafında dayanan qədəhlər (saylarına görə) səma ulduxları kimidirlər və onun suyundan içən hər kəs, bir daha əbədiyyən susamayacaq."***

Hər iki "Səhih"də, eləcə də digər "hədis toplularında" olduğu kimi, bu su hovuzu haqqında zikr edilən bir çox başqa hədislər də vardır.

Cənnət və Cəhənnəm

Cənnət və Cəhənnəm insanların məskunlaşacağı və Uca Allahın qulları üçün əməllərinin qarşılığı olaraq hazırladığı iki məskəndir.

Allaha yaxın olan, həmçinin Allaha və Elçisinə həmçinin Elçisi ilə birlikdə insanlara gələnə iman edən, Allaha və Elçisinə itaət edən, yalnız Allaha ixlasla ibadət edən və Onun əmrinə tabe olan müttəqi möminlərin səadət və səxavət məskəni Cənnət adlandırılır.

Uca Allah buyurur:

— Şübhəsiz ki, iman gətirib yaxşı əməllər edənlər yaradılanların ən xeyirliləridir. Rəbbi yanında onların mükafatı (ağacları) **altından çaylar axan və əbədi qalacaqları Ədn cənnətləridir. Allah onlardan razı olmuş, onlar da Allahdan razı qalmışlar. Bu** (mükafatlar)**, Rəbbindən qorxanlara məxsusdur.** "Beyyinə (Açıq-aydın dəlil)" surəsi, 7-8-ci ayələr.

Uca Allah həmçinin buyurur:

— Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin.

"Ali İmran (İmranın ailəsi)" surəsi, 133-cü ayə.

Cənnətdə, saleh insanları, bu dünyada heç kimin görmədiyi, heç kimin eşitmədiyi və təxmin etmədiyi bir çox ləzzətlər gözləyir.

Uca Allah həmçinin buyurur:

— Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir. "Səcdə (Səcdə)" surəsi, 17-ci ayə.

Cənnətə daxil olanlar üçün ən böyük həzz, Rəbblərini öz gözləri ilə görmək olacaq.

Uca Allah bu haqda buyurur:

— O gün neçə-neçə üzlər nurlanacaq, və öz Rəbbinə baxacaqdır. "Qiyəmə (Qiyamət)" surəsi, 22-23-cü ayələr.

Bu haqda həmçinin bir çox hədislərdə bildirilib.

Cəhənnəmə gəlincə, Allaha iman gətirməyən və peyğəmbərlərinə itaət etməyən kafirlərdən olan, Onun düşmənləri üçün hazırladığı əzab və rüsvayçılıq yurdudur.

Uca Allah buyurur:

— Kafirlər üçün hazırlanmış Oddan çəkinin. "Ali Imran (İmranın ailəsi)" surəsi, 131-ci ayə.

Cəhənnəmdə günahkarlar müxtəlif cəza və əzablara məruz qalırlar.

Uca Allahın buyurur:

— Biz zalımlar üçün elə bir Od hazırlamışıq ki, onun divarları onları əhatə edəcəkdir. Onlar kömək dilədikdə əridilmiş metal kimi üzlərini qovuran bir su ilə kömək ediləcəkdir. Nə pis içkidir! Nə pis məskəndir! "Kəhf (Mağara)" surəsi, 29-cu ayə.

Quranın bir çox ayələrində və hədislərdə cənnət və cəhənnəmin təsvirləri verilmiş, onların yaradıldığına və hazırda mövcud olduğuna işarələr edilmiş, cənnətə və ya cəhənnəmə daxil olanlar üçün əbədi səadət və ya ağrılı əzabdan bəhs edilmişdir.

Cənnət və Cəhənnəm əbədi mövcud olacaq və heç vaxt yox olmayacaqlar. Uca Allah cənnət haqqında belə buyurur:

— …meyvələri və kölgələri daimidir. "Rad (Göy gurultusu)" surəsi, 35-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Bu, əlbəttə, Bizim verdiyimiz ruzidir. O, bitməz-tükənməzdir. "Sad" surəsi, 54-cü ayə.

Uca Allah həmçinin buyurur:

— …və əbədi qalacaqları Ədn cənnətləridir. "Beyyinə" surəsi, 8-ci ayə.

— Onlar dünyadakı ölümdən sonra orada heç bir ölümü dadmayacaqlar. "Duxan (Tüstü)" surəsi, 56-cı ayə.

Uca Allah həmçinin buyurur:

— Onlar orada əsla yorğunluq hiss etməz və oradan çıxarılmazlar. "Hicr" surəsi, 48-ci ayə.

Uca Allah Cəhənnəm barədə buyurur:

— (Kafirlər) **Oddan çıxmaq istərlər, lakin onlar oradan çıxan deyillər. Onları əbədi bir əzab gözləyir.** "Maidə (Süfrə)" surəsi, 37-ci ayə.

Uca Allah həmçinin buyurur:

— …Orada nə öldürülməzlər ki, ölüb canları qurtarsın, nə də bu odun əzabı (onlar üçün) **yüngülləşdirilər…** "Fatir (Yaradan)" surəsi, 36-cı ayə.

Uca Allah həmçinin buyurur:

— …içərisində əbədi qalacaqları Cəhənnəm… "Nisa" surəsi, 169-cu ayə.

Şəfaət

Cənnətin qapılarının açılmasını istəyənlərdən ən birinci insan, Peyğəmbərimiz Muhəmməd ﷺ olacaq və oraya birinci daxil olanlar onun ümmətinin nümayəndələri olacaq.

Yalnız Peyğəmbərimiz ﷺ möminlərin Cənnətə daxil olması üçün Allahdan şəfaətçilik edəcək. Aqibətlərinin qərarını gözləyənləri mühakimə etməsi üçün, həmçinin əmisi Əbu Talibin əzabını yüngülləşdirməsi üçün, Peyğəmbərimiz ﷺ Allahdan ən böyük dua ilə şəfaətçilik diləyəcək, və bu yalnız Peyğəmbərimizə ﷺ icazəli olacaq.

Digər şəfaətçilərə gəlincə isə, başqa peyğəmbərlər də, mələklər də və möminlər də Uca Allahdan şəfaət diləyəcəklər. Bu şəfaətlər arasında aşağıdakıları qeyd etmək olar:

1. Cəzaya layiq olan, günahkar tövhid əhlinin, cəhənnəmə düşməməsi üçün şəfaət.

2. Artıq Cəhənnəmə düşən günahkarların (tövhid əhlindən olan) oradan çıxarılması üçün şəfaət.

3. Cənnətə daxil olanlardan bəzilərinin daha yüksək məqama yüksəlməsi üçün şəfaət.

Bu cür şəfaətlərin müvəffəqiyyəti iki səbəblə müəyyən ediləcək:

1. Uca Allahın izni ilə, çünki Allah Təala buyurmuşdur:

— İzni olmadan Onun yanında kim şəfaət edə bilər?! "Bəqərə (İnək)" surəsi, 255-ci ayə.

2. Başqalarının şəfaət edəcəyi bir şəxs barəsində Allahın lütfü.

Uca Allah buyurur:

— Onlar Allahın razı qaldığı kimsələrdən başqasına şəfaət etməzlər. "Ənbiya (Peyğəmbərlər)" surəsi, 28-ci ayə.

O biri dünyada baş verənlər haqqında, məhz — insanın ölümü ilə Qiyamət gününə qədər olan müddətə, və Qiyamət günü, həmçinin Cənnətdə və Cəhənnəmdə baş verənlər barəsində, yalnız Quran və Sünnədən gələnləri bilirik və bunlara inanırıq, necə görünəcəkləri, necə olacaqları ilə bağlı bütün dərinlikləri bilməməyimizə baxmayaraq.

QƏZA VƏ QƏDƏRİN HƏM XEYİRİNƏ, HƏM DƏ ŞƏRİNƏ İMAN

Alın yazısı (qədər), Allahın hər bir varlıq üçün təyin etdiyi bir şeydir. İstər Quranda, istərsə də Sünnədə təqdirin (qədərin), varlığına və ona mütləq şəkildə iman gətirilməsinin vacib olması haqqda çoxlu işarələr vardır. Məsələn, Uca Allah buyurmuşdur:

— Şübhəsiz ki, Biz hər şeyi müəyyən bir ölçüdə yaratdıq. "Qamər (Ay)" surəsi, 49-cu ayə.

Uca Allah həmçinin buyurmuşdur:

— Allahın hökmü belə təqdir edilmişdir. "Əhzab (Dəstələr)" surəsi, 38-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Allahın izni olmadıqca heç bir müsibət üz verməz. Kim Allaha iman gətirərsə, Allah onun qəlbini doğru yola yönəldər. "Təğabun (Qarışıqlı aldanma)" surəsi, 11-ci ayə.

"Səhih-Muslim"də rəvayət olunur ki, bir dəfə Abdullah ibn Ömər ibn əl-Xəttaba (Allah ondan razı olsun) Quran oxuyan, elmə can atan, amma hadisələrin təqdirini (Allah tərəfindən yazılmasını) inkar edən bir qrup insan haqqında danışdılar, O isə xəbər verən şəxsə bu haqda dedi: *"Onlarla görüşən zaman onlara de ki, mənim onlara heç bir aidiyyətim yoxdur, onların da mənə aidiyyəti yoxdur və de ki, Abdullah ibn Ömər and içir ki, əgər onlardan hər hansı biri təq-*

dirə (alın yazısına) iman gətirməyincə, onların yaxşı əməlləri, hətta Uhud dağının ağırlığı qədər qızıl xərcləsələr belə, Allah onların əməllərinin heç birini qəbul etməz" Abdullah ibn Ömər bunları dedikdən sonra, bu adama Cəbrail haqqında, Allah Rəsulundan ﷺ eşidən atasının sözlərindən başqa bir hədisi danışdı.

Muslimin "Səhih"ində Taus ibn Kaysanın sözlərindən nəql olunan bir hədis vardır ki, o demişdir: "Mən Rəsulullahın ﷺ səhabələrindən həyatda qalan adamlar tapdım ki, onlar: *"Hər şey əvvəlcədən müəyyən edilmişdir"* deyirdilər."

Taus, həmçinin Abdullah ibn Ömərin (Allah ondan razı olsun) belə dediyini eşitdiyini söyləmişdi: "Allahın Elçisi ﷺ buyurub ki: ***"Hər şey qabaqcadan müəyyən edilmişdir, o cümlədən fəallıq (çalışqanlıq) və acizlik (gücünün çatmaması) və yaxudda acizlik və fəallıq."***

Muslimin "Səhih"ində Əbu Hüreyrənin (Allah ondan razı olsun) sözlərindən rəvayət olunan bir hədis var ki, Rəsulullahın ﷺ belə dediyini rəvayət edir: ***"Güclü mömin zəif mömindən Allah yanında daha yaxşıdır və Onun yanında daha sevimlidir, hətta hər ikisində də xeyir olsa belə. Sənə fayda verəcək şey üçün səy göstər, Allahdan kömək dilə və təslim olma, əgər başına bir iş gəlsə, demə ki: "Əgər mən filan-filan etsəydim!", əksinə de: "Bu, Allah tərəfindən müəyyən edilmişdir və O, istədiyini etmişdir" — çünki bu "əgər"lər şeytana yol açır!"***

Qədərə imanın tərkib hissələri

Birincisi: Allahın elminin tamamilə hər şeyi əhatə etdiyinə iman etmək, və Uca Allahın bütün insanlar haqqında onları yaratmamışdan əvvəl bildiyinə iman etmək, həmçinin onların bütün əməllərini, taleyini, hər birinin ömrünün nə qədər olacağını, yaxşı əməllərini,

günahlarını və sair şeyləri, Allahın əvvəlcədən bildiyinə inanmaq, iman etmək.

İkincisi: Allahın bütün bunları Lövhi-məhfuzda yazdığına inanmaq, iman etmək.

Bu iki tərkib hissəsinə Uca Allahın kəlamı dəlalət edir, O buyurur:

— Bilmirsənmi ki, Allah göydə və yerdə olanların hamısını bilir? Həqiqətən, bu, bir kitabda (lövhi-məhfuzda) **mövcuddur. Əlbəttə, bu, Allah üçün çox asandır.** "Həcc" surəsi, 70-ci ayə.

Muslimin "Səhih"ində Abdullah ibn Amr ibn əl-Asın (Allah onlardan razı olsun) sözlərindən rəvayət olunan bir hədis var ki, o demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: ***"Allah Təala göyləri və yeri yaratmamışdan əlli min il əvvəl bütün yaradılmışların taleyini yazmışdır. O zaman onun ərşi suyun üzərində idi."***

Bu müqəddərat (alın yazısı), Uca Allahın biliyi ilə tamamilə həyata keçir, və bu həm ümumi hər şeyə, həm də xüsusi olaraq müəyyən şeylərə şamil olunur. Birincisinə gəlincə, bu, Lövhi-məhfuzda qeyd olunan bütün yaradılmışların aqibətinin ümumi təyin olunmasıdır. İkincisi isə xüsusilərə, fərdlərə aiddir və üç zaman dövrü ilə əlaqədardır:

1. Bütün həyatın əvvəlcədən təyin edilməsi, yazılması.

Hər iki "Səhih"də Abdullah ibn Məsuddan (radıyallahu anhu) rəvayət olunan hədisdə Rəsulullah ﷺ buyurur: ***"Sizin hər biriniz, ana bətnində qırx gün damcı şəklində, sonrakı qırx gün laxta şəklində və o qədər də ət parçası şəklində formalaşırsınız, (əmələ gəlirsiniz), və sonra Uca Allah bir mələk göndərir və əmr edir ki, ona ruh üfürsün və ona dörd şeyi yazsın: aqibətini, ömrü-***

nün müddətini, əməllərini, həmçinin onun xoşbəxt və ya bədbəxt olacağını."

2. Gələn bir il ərzində baş verəcəklərin əvvəlcədən təyin edilməsi, yazılması.

Qədr gecəsində, gələcək bir il ərzində baş verəcək hər şey əvvəlcədən təyin olunur, yazılır.

Uca Allah buyurur:

— Hər bir hikmətli iş o gecədə ayırd edilir... "Duxan (Tüstü)" surəsi, 4-cü ayə.

3. Gün ərzində baş verəcək hadisələrin təqdiri (yazılması) və həyat, ölüm, ucalıq, zillət və sair şeylər ilə əlaqədardır.

Uca Allah buyurur:

— ...O hər gün (hər an) bir işdədir. "Rahmən (Mərhəmətli)" surəsi, 29-cu ayə.

Üçüncüsü: Allahın iradəsinin, istəyinin hər zaman, yerinə yetəcəyinə, baş verəcəyinə iman etmək, Onun qüdrətinin həddi-hüdudunun olmadığına, və yalnız Allahın istədiyinin olacağına, istəmədiyinin isə olmayacağına iman etmək, həm göydə, həm də yerdə hər şeyin ancaq Allahın iradəsi, izni ilə edildiyinə və ya edilmədiyinə iman etmək, Onun hökmranlığında Onun iradəsinin əksinə heç bir şeyin olmadığına və Onun hər şeyə qadir olduğuna iman etmək.

Uca Allah buyurur:

— Rəbbin istədiyini yaradır və istədiyini də peyğəmbər seçir. Onların isə seçməyə haqqı yoxdur. Allah pakdır, müqəddəsdir və onların qoşduqları şəriklərdən ucadır. "Qasas (əhvalat)" surəsi, 68-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Həqiqətən, Rəbbin istədiyini edəndir. "Hud" surəsi, 107-ci ayə.

Uca Allah həmçinin buyurur:

— Şübhəsiz ki, Allah hər şeyə qadirdir. "Bəqərə (Inək)"surəsi, 20-ci ayə.

Bu halda Allahın iradəsi, istəyi iki növ olur:

1. Sevgi və lütf ilə əlaqəsi olmayan, ümumi varlıqlar və təqdir (alın yazısı) ilə bağlı iradə, istək. Bu barədə Uca Allah belə buyurur:

— Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə cəzalandırar. "Ənam (Mal-qara)" surəsi, 125-cu ayə.

2. Din və dini qanunlar ilə əlaqəsi olan iradə, istək. Bu cür iradə, istək, özünə sevgi və lütf daxil edir. Buna Uca Allahın bu sözləri işarə edirlər:

— Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir… "Bəqərə (Inək)" surəsi, 185-ci ayə.

Bu o deməkdir ki, əgər itaətin təzahürü ilə bağlı bir şey varsa, deməli Allah bunu, yuxarıda göstərilən birinci halda istəmiş, başqa sözlə desək, təyin etmişdir (yazmış) və istəmişdir, həmçinin də bunu ikinci halda da istəmişdir. Və bu da o deməkdir ki, O bunu sevir və bu da Ona xoşdur. Əgər itaətsizliklə bağlı bir şey olarsa, bu sözün birinci mənasında Allahu Təalənın bunu istədiyini bildirir, ikinci mənada isə bu cür əməllər Onun nifrətinə və etirazına səbəb olur.

Dördüncüsü: Allahu Təalənın Xaliq-Yaradan olduğuna iman etmək, başqa bütün varlıqların Onun tərəfindən yaradıldığına iman etmək, və o cümlədən yaradılmışların bütün hərəkətlərinin olmasının və ya hərəkətlərinin olmamasının Onun tərəfindən yaradıldığına iman etmək, və bunların nə başqa bir Yaradanı nədə başqa bir Rəbbi olmadığına iman etmək.

Uca Allah buyurur:

— Allah hər şeyin Xaliqidir. O, hər şeyi Qoruyandır. "Zumər (Zümrələr)" surəsi, 62-ci ayə.

Uca Allah xəbər verir ki, İbrahim Peyğəmbər (Allahın salamı onun üzərinə olsun) öz qəbilə yoldaşlarına dedi ki:

— Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır.

"Saffat (Səf-səf duranlar)" surəsi, 96-cı ayə.

Allahın qullarının, bəndələrinin, əməl etmək üçün real qabiliyyətləri vardır, necəki müəyyən bacarıq və iradələri olduğu kimi, amma o qulların Xaliqi-Yaradıcısı və həmçinin onların bacarıqlarının və iradələrinin Xaliqi-Yaradıcısı Allahdır.

Uca Allah buyurur:

— …sizlərdən doğru (yolda) **olmaq istəyənlər üçün. Aləmlərin Rəbbi Allah istəməyincə, siz istəyə bilməzsiniz!** "Təkvir (Sarınma)" surəsi, 28-29-cu ayələr.

Beləliklə, Uca Allah insanların iradəsi olduğuna, ama ancaq Allahın iradəsi ilə təzahür edə biləcəyinə işarə etmişdir. Allahın bəndələri əməl və iradəyə malik olduqlarına və onlara elçilər göndərildiyinə və kitablar nazil edildiyinə görə, bu o deməkdir ki, Allah onlara Öz dəlil və izahlarını təqdim etmişdir və bundan belə nəticə çıxır ki, onların əməllərinə görə ya mükafat alacaqlar, ya da cəzalarını çəkəcəklər. Bunu nəzərə alaraq, Allahın bəndəsi Allahın təqdirinə inanmalı, şəriətinin hökmlərinə əməl etməli və Allahdan onu düz yola yönəltməsini istəməlidir. Bundan əlavə, ona fayda verəcək hər şey üçün səy göstərməlidir, dünya və dini işlərində ona zərər verə biləcək hər şeyi rədd etməlidir, Allaha təvəkkül edib və arzuladıqlarına nail olmağa və şəriətin bəyənmədiyi şeyləri özündən uzaqlaşdırmağa, kömək üçün yalnız Ona dua etməlidir. Və əgər insanın özü üçün seçdiyi vasitələr ona fayda verərsə, Allaha həmd etməli və Ona şükür etməlidir, amma seçdiyi bu vasitələr fayda verməsə, o zaman sakit, səbirli, təmkinli olmalıdır, çünki o insan artıq əlindən gələni etmiş, və o dözməlidir, və Allahın mükafatına ümid etməlidir və əvəzində Allahdan ona başqa şey verməsini diləməlidir.

Uca Allah buyurur:

— Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı (xeyir yalnız) onun özünə, qazandığı (şər də yalnız) öz əleyhinədir. "Bəqərə (Inək)" surəsi, 286-cı ayə.

Rəvayət edilir ki, Rəsulullah ﷺ buyurdu: ***"Əməl edin, çünki hər kəs nə üçün yaradılmışsa, Allah onun yaradıldığı şeylərə çatmasını rahatlaşdırar, asantlaşdırılacaqdır."*** Bu hədisi Buxari və Muslim Əli ibn Əbu Talibin sözlərindən nəql etmişdir.

Həmçinin rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: ***"Möminin işi təəccübə layiqdir, həqiqətən onun bütün işləri onun üçün xeyirlidir və bu da yalnız möminlərə xasdır: əgər onun başına sevindirici bir iş gələrsə, Allaha şükür edər, bu da onun üçün xeyirli olar, əgər başına qəm-qüssə gələrsə, səbr edər və bu da yenə onun üçün xeyirli olar."***

Bu hədisi Muslim rəvayət etmişdir.

Mündəricat

MÜQƏDDİMƏ **3**

Din — Allaha ibadət etmək üçün qaydalar toplusudur **3**

Qəlb əməlləri — ibadətin əsasıdır **7**

Qəlb əməllərinin növləri **9**

ALLAHA İMAN **17**

Rəbblikdə Tək-ilahlıq (Tövhid ər-rububiyyə) **19**

İlahi ad və sifətlərə (keyfiyyətlərə) sahib, malik olmaqda Tövhid-Tək-ilahlıq (tövhidul-əsmə və əs-sıfat) **24**

Uluhiyyət Tövhidi (Tək-ilahlığı) (tövhid əl-uluhiyyə) **38**

(Tək-ilahlığın) Tövhidin sözləri — Lə iləhə İllallah şəhadəti **43**

Lə iləhə illəllah şəhadətinin şərtləri **44**

İbadətin sütünları **49**

Şirk, küfr, münafiqlik **53**

İki növ nifaq (münafiqlik, ikiüzlülük) **62**

MƏLƏKLƏRƏ İMAN **63**

Mələklərin növləri haqqında **66**

MÜQƏDDƏS YAZILARAİMAN **68**

ELÇİLƏRƏ İMAN **70**

Möhkəm iradə sahibləri (Ulul-azm) **72**

Muhəmməd peyğəmbərimizin ﷺ risalətinin ümmubəşərliyi **73**

Muhəmməd ﷺ — sonuncu peyğəmbərdir **76**

AXİRƏT GÜNÜNƏ İMAN **78**

Allahu Təalə, bariz-sadə misallar ilə və əqli dəlillərlə sübut edir ki, bu günün gəlməsi mümkündür **79**

O saatın gəlməsi haqqında **83**

Ölüm və qəbirdə baş verənlər **85**

Qiyamətdən sonrakı hadisələr **93**

QƏZA VƏ QƏDƏRİN HƏM XEYİRİNƏ, HƏM DƏ ŞƏRİNƏ İMAN **105**